Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

İctimai-siyasi, hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 27 (6070) 26 iyul 2024-cü il

Qiyməti 40 qəpik

# İlham Əliyev Zəfər parkında




Bax:səh-2

## "Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları olmamalıdır"



**Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, Ermənistanın konstitusiyası dəyişməlidir, çünki orada Azərbaycana qarşı birbaşa ərazi iddiaları var.**

Adalet.az-ın məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında söyləyib. O qeyd edib ki, Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır:

**"Sülh sazişi ilə bağlı vaxt çərçivəsi qoymuruq. Azərbaycan gözləyir ki, ərazi iddiasına son qoyulsun. Anlayırıq ki, konstitusiya hər ölkənin daxili işidir, amma burada başqa ölkəyə qarşı ərazi iddiası olmamalıdır. Hüquqi çərçivə ərazi iddialarına son qoyacaq formada olmalıdır".**

## Zelenski: "Münaqişəni tez bir zamanda bitirməliyik"

**Münaqişəni mümkün qədər tez bitirməliyik. Adalet.az xəbər verir ki, bu barədə Ukrayna Prezidenti Vladimir Zelenski Vatikanın dövlət katibi kardinal Pietro Parolinlə görüşdə deyib.**

"Məncə, hamımız başa düşürük ki, müharibəni mümkün qədər tez bitirməliyik", - deyə prezident bildirib.

Zelenski həmçinin Parolinin səfərini "Vatikandan güclü siqnal" adlandırıb.

## CƏBBƏLÜTARİQƏ YUXARIDAN AŞAĞI BAXMAYIN

**Birincisi, Avropadır, "Linkoln" komandasının oyunçuları Avropanın ayrı-ayrı tanınmış klublarında oynayıblar. Özləri də əksəriyyəti Böyük Britaniyanın və İspaniyanın vətəndaşlarıdır, eləcə də digər Avropa ölkələrinin.**

**Bu ölkənin 30 min vətəndaşı var, təxminən Tovuzun Qovlar qəsəbəsinin sakinlərindən bir az artıq, Gəncə şəhərindən on beş dəfə az. Amma özünün daxili çempionatını keçirir, "B" qrupu da var. "Linkoln" da bu ölkənin 28 dəfə çempionu olub. Gəncənin "Kəpəz" komandası isə Azərbaycan Yüksək liqasında güc-bəla ilə yerini qoruyub saxlaya bilib.**

**Nə isə**

**"Qarabağ" klubu Çempionlar Liqasının ikinci təsnifat mərhələsində "Linkoln"u 2:0 məğlub etdi. Özü də bilirsiz hansı gün - 23 iyulda, Ağdamın işğal günündə.**

**Ağdam azad olunub, yenidən qurulur. Və rayonda 15 minlik stadion tikilir. İnşallah, "Qarabağ" Ağdama döndən sonra görün hansı zirvələri fəth edəcək?!**

**Tanrı "Qarabağ"ı qorusun!**

**Tanrı Qurban Qurbanovu qorusun!**

**Aqil ABBAS**

## BAYDEN GETDİ QARĞIDALI ƏKMƏYƏ

**ABŞ-ın prezidenti Bayden növbəti seçkilərdə namizədliyini geri götürdü.**

Bundan əvvəl o, Trampı ikinci dəfə teledebata çağırmışdı. Görünür, onu başa saldılar ki, birinci teledebatda uduzduğu kimi, ikinci teledebatda da uduzmayacaq ey, özünü lap hörmətdən salacaq. ABŞ-da təqaüdə çıxanlardan soruşurlar ki, niyə təqaüdə çıxdın? Deyir, yorulmuşam, istəyirəm gedim bir az qarğıdalı əkim, nəvələrimlə oynayım, inək sağım. İndi Bayden də dedi ki, gedirəm qarğıdalı əkməyə, inək sağmağa, nəticələrimlə oynamağa.

## ƏDƏ, QOYMAYIN, AĞADADAŞ AĞAYEV ADAM BALTALAYIB



**Bütün saytlar elə sevinə-sevinə bu xəbəri paylaşıblar ki. Və əslində necə olub bu haqda məlumat yoxdur.**

**Xalqın sevimli müğənnisi, gözəl insan Ağadadaş Ağayev hər halda dəli olmayıb kiməsə balta atsın. Baltalasın yox ey, balta atsın.**

**Daxili İşlər Nazirliyi rəsmi məlumat yayıb. Və bildirib ki, hadisə ilə bağlı Binəqədi Rayon Polis İdarəsində araşdırma aparılır. Bir gözləyin görək araşdırma nə ilə bitəcək.**

**Onu da qeyd edim ki, videogörüntülər var. Xəstəxananın mühafizəçisi Ağadadaş Ağayevi yerə yıxıb möhkəm döyüb.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## ƏL BORCU VERİLƏN AĞDAM



**Bu gün Ağdamın işğal günüdür. 27 il bu ağrı-acını yaşamışıq. 27 ildə 270 il qocalmışıq. Əslində yaşamamışıq ey, çoxumuzun ürəyi dərddən partlayıb. Doğma atam da Ağdam acısını yaşaya bilmədi. Montində bağda dostları ilə söhbət edərkən "bu türklər niyə gəlmədi" deyib ruhunu götürüb çıxıb getmişdi Ağdama.**

**Ağdamlılar son anadək əyinlərinə kəfən geyinib uşaqdan-böyüyə səngərdə vuruşdular. Altı könüllü batalyon vardı, bir də Şirin Mirzəyevin hərbi hissəsi.**

**Sonra Surət Hüseynovun 709-cu briqadası gəldi, könüllü batalyonları səngərlərdən zorla çıxarıb dedilər ki, siz çıxın, şəhəri biz müdafiə edəcəyik.**

**Və necə müdafiə elədilər?! Şəhəri döyüşsüz-filansız ermənilərə təslim etdilər. Sonra da Ağdamın kənarında kabab yeyə-yeyə dedilər ki, əl borcu vermişik, qaytaracağıq.**

**Bu "əl borcu" 27 il çəkdi.**

Bax:səh-3

## GÜNÜN LƏTİFƏSİ

Bir gün xəstə həkimə gedir.Həkim soruşur:

**- Hə, indi necə yatırsınız? Məsləhətimə əməl edib yuxuya getmək üçün sayırsınızmı?**

Xəstə:

**- Bəli həkim.**



**Düz 18456-ya kimi saydım.**

Həkim:

- Yuxuladınızmı?

Xəstə:

**- Nə yuxlamağı, işə getmək vaxtı idi.**

# İlham Əliyev Zəfər parkında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub.**

"PMD Projects" şirkətinin direktoru Nəriman Topçibaşev parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.

Qeyd edək ki, 2023-cü il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında oldular. Dövlətimizin başçısı və birinci xanım burada görülən işlərlə tanış oldular.

8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi doqquz hektardan çoxdur.

Parkın girişində 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağın hündürlüyü 44 metr, eni isə 22 metrdir.

Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər Muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Sahəsi 9 min 200 kvadratmetr olan muzeyin yan divarında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərin adları qeyd ediləcək.

Ziyarətçilər muzeyi gəzdikdən sonra park hissəsinə daxil ola biləcəklər. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası da nəzərdə tutulur.

**Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri yaradılacaq, oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq.**

# İlham Əliyev Şavkat Mirziyoyevə zəng edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Dövlətimizin başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edərək, ona möhkəm cansağlığı və prezidentlik fəaliyyətində yeni uğurlar arzulayıb.

Şavkat Mirziyoyev göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Prezidentlər bu il iyulun 5-6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün və bu tədbir çərçivəsində təmasların əhəmiyyətini qeyd ediblər.

**Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edib, əməkdaşlığın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.**

# Azərbaycandan Aİ Şurasının qərarına etiraz

**Fransa tərəfindən Ermənistanın "Bastion" çoxməqsədli zirehli avtomobilləri və "Sezar" özüyeriyən artilleriya qurğuları ilə təchiz edilməsi istiqamətdə atılan addımlardan sonra, Avropa İttifaqının Ermənistana hərbi yardım göndərməsi qərarı olduqca yanlış və təhlükəli addımdır və regionda gərginliyin artmasına xidmət edir. Avropa İttifaqı tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır, bölgədə "bölücü xətlər" yaratmaq siyasətinin təzahürüdür.**

Adalet.az xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə "Avropa Sülh Fondu" çərçivəsində Ermənistana hərbi yardım ilə bağlı medianın sualına cavabında deyib.



"22 iyul tarixində Avropa İttifaqı Şurası tərəfindən qəbul edilmiş qərara əsasən, "Avropa Sülh Fondu" çərçivəsində Ermənistana 10 milyon avro məbləğində hərbi yardım edilməsi nəzərdə tutulub. Bu qərarı necə şərh edərdiz?" sualına A.Hacızadə belə cavab verib:

"Ermənistana sözügedən hərbi yardım və belə yardımın gələcəkdə artmasına çağırışlar Azərbaycan Respublikasının ərazilərinin bir hissəsini 30 ilə yaxın dövrdə işğal altında saxlayan, hal-hazırda ərazi bütövlüyümüzə qarşı iddialardan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək.

Avropa İttifaqı Şurası tərəfindən verilmiş bu qərara qətiyyətlə etiraz edir, göstəriləcək yardım barədə şəffaf şəkildə məlumatın açıqlanacağını gözləyirik.

Avropa İttifaqı bölgədə silahlanmaya və hərbiləşmə siyasətinə töhfə verən bu kimi addımlara son qoymalı, bölgədə sülh və əməkdaşlığın alternativinin olmadığını anlamalıdır. Əks təqdirdə, Ermənistanın sabitliyi pozan hər hansı mümkün təxribatına görə Avropa İttifaqı da məsuliyyəti bölüşəcək".

# Bu ayın sonunda ATƏT-in uzunmüddətli müşahidəçiləri Azərbaycana gələcək

**Bu ayın sonunda ATƏT-in uzunmüddətli müşahidəçiləri sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri ilə bağlı Azərbaycana gələcək.**

Adalet.az xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında deyib.

Qeyd edək ki, Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən seçkiləri izləmək üçün 7 beynəlxalq təşkilata dəvət göndərilib. Bunlar ATƏT DTİHB, Müstəqil Dövlətlər Birliyi (MDB), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), GUAM, Qoşulmama Hərəkatı Gənclər Təşkilatı, Şanxay



Əməkdaşlıq Təşkilatı (ŞƏT) və Türk Dövlətləri Təşkilatıdır (TDT). Milli Məclis tərəfindən isə 13 beynəlxalq təşkilata dəvət göndərilib. Bunlar arasında ATƏT RA, MDB PA, TÜRKPA, İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqı (İƏT Pİ), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi (QDİƏTPM), GUAM PA, Asiya Parlament Assambleyası (APA), Pan-Afrika Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası (İƏT PA), Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyası (AIPA), Ərəb Parlamenti, Beynəlxalq Parlamentarilər Konqresi (IPC), Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) yer alır.

# BQXK Azərbaycanda saxlanılan Qarabağ separatçılarına baş çəkdi

**İyul ayında BQXK əməkdaşları Azərbaycan tərəfinin haqqında məlumat verdiyi erməni əsilli şəxslərə yenidən baş çəkiblər. Saxlanılan şəxslərlə təkbətək görüşlər keçirilib və onların ailələri ilə əlaqəsi üçün şərait yaradılıb.**

BQXK-nın Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az-a verilən məlumata görə, nandatına uyğun olaraq BQXK, bu cür başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir. BQXK həmçinin, şəxslərin ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır.

BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır və müzakirə edilir.



Qeyd edək ki, Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağın erməni separatçılarının "prezidentləri" olmuş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, "xarici işlər naziri" olmuş David Babayan, eləcə də "parlament sədri" olmuş David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və "dövlət naziri" olmuş Ruben Vardanyanı həbs edərək Bakıya gətirib.

# Qərbin sanksiyaları iflasa uğradı

**Almaniyanın "Handelsblatt" qəzeti, Avropanın iqtisadi araşdırmalar institutlarının məlumatlarına əsasən yazır ki, Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar iflasa uğrayıb və gələcəkdə Avropa İttifaqının özünə zərbə vura bilər.**

Məqalədə diqqətə çatdırılır ki, Rusiyanın iqtisadiyyatı hərbi sənayesi sayəsində artmaqdadır. "Ayıq başla baxsaq, Qərbin siyasətinin iflasa uğradığını deyə bilərik.

Biz qadağaları münaqişənin tezliklə həll olunması üçün tətbiq etmişdik. Qadağalar qısa müddətli bə tez işləməliydi, uzun müddətə yox"- deyə məqalə müəllifləri bildirirlər.

Qəzet yazır ki, Qərb istəsə də, istəməsə də, gələcək perspektivdı Rusiya dünya ticarətində iştirak edəcək. Hazırda tədbiq olunan qadağalar, mədən neft-qaz məhsullarının bshalaşması Aİ-nin özünə ciddi zərbə vura bilər.

ABŞ-ın dövlət katibi Entoni Blinken də, antirusiya sanksiyalarının effektsiz olduğunu etiraf etmək məcburiyyətində qaldı.Bir sözlə, Qərb antirusiya sanksiyalarından gözlədikləri nəticələri ala bilmədilər.

**R.Hacıyev**

# *Tramp rəqiblərinə "tərif" yağdırmaqda davam edir*

**Respublikaçılar partiyasından ABŞ prezidentliyinə namizəd Donald Tramp, demokratların mümkün namizədi Kamala Xarrisi "kütbeyin axmaq və zalım" qadın adlandırıb.**

"Kamala Xarrisi iki sözlə ifadə etmək olar, "kütbeyin və zalım".

Bu çox pis kombinasiyadır"- deyə Tramp bəyan edib. Xarrisin seçki qərərgahının nümayəndəsi Ammar Musa Trampa cavab olaraq bildirib ki, "Trampa Xarrisin işində güzəşt olunmayacaq, xanım Kamala onun cinayətlərinə görə məsuliyyətə alınmasına qərar verəcək".

Bu da "demokratiyanın" çiçəklədiyi Birləşmiş Ştatlar. Nə deyə bilərik?

**Rüstəm Hacıyev**

# AQİL ABBASIN SƏHİFƏSİ

## ERMƏNİLƏRƏ 30 İL DƏDƏ BOYU VERMİŞDİK...

*Bu 30 illik dədə boyu müddətində Qarabağı çapdılar-taladılar. Təkcə Ağdamdan heç nə demirəm, elə 200 min tondan artıq metal apardılar. Hər evin bir dəmir darvazası, hər evin bir qaraj darvazası və on mindən çox da evin və inzibati binanın dəmir, taxta-puşları. Qəbiristanlıqlardan minlərlə mərmər başdaşı və sinədaşları söküb apardılar, eləcə də Füzulidən. Sənaye obyektlərini də daşıdılar. Meşələrimizdəki qiymətli ağacları daşıdılar.*

*Beləliklə, Azərbaycana 800 milyarddan çox zərər vurdular.*

*Onu da qeyd edim ki, Ağdam və Füzuli yerində olsaydı, bu 30 il müddətində sənayesi və kənd təsərrüfatı çalışsaydı ölkəmizin illik büdcəsi indiki kimi 34 milyard manat yox, 50 milyard manatdan artıq olardı.*

*Özlərinə qondarma Artsax yaratdılar, qondarma prezident seçdilər və sonda dədə boyu müddəti qurtardı. Müzəffər ordumuz Ali Baş Komandan, Möhtərəm prezident İlham Əliyevin sərkərdəliyi ilə onların 30 illik dədə boyuna 44 gündə son qoydu. Separatizmin kökünü isə 24 saata kəsdi. Bizə meydan oxuyan uydurma prezidentləri və əshabələri hazırda DTX-nın həbsxanasında onlara verəcəyimiz cəzanı gözləyirlər.*

*İndi 30 illik dədə boyunda heç bir qələt edə bilməyən, əlləri ABŞ-ın və Fransanın qurbağalı aşından olan Ermənistan sülh müqaviləsini uzadır. Nə qədər uzadacaq? Artıq dədə boyu vaxtı qurtarıb. Day onlara nənə boyu vaxtı da verməyəcəyik, Dəmir Yumruq boyunlarının dalındadı.*

*Şuşada keçirilən Qlobal Media Forumunda Cənab Prezident bir daha Ermənistana, Fransaya və bütün dünyaya mesaj verdi ki, Ermənistanın silahlandırılması erməni xalqını məhvə aparır.*

## SOSİAL ŞƏBƏKƏLƏR AĞADADAŞI MÜHAFİZƏÇİDƏN PİS DÖYDÜ VƏ DÖYÜR

50 ildir Ağadadaş Ağayevi tanıyıram və dostluq edirəm. İndiyədək onun kimsəyə acı bir söz dediyinə və ya kiminsə xətrinə dəydiyinə şahid olmamışam. Özünü həm həyatda, həm də məclislərdə ağır-ağayana aparıb. Baxıram, sosial şəbəkələr onu mühafizəçidən pis "döyür" və döyməkdədir. Kimlərinsə trol dəstələri tökülüb Ağadadaşın üstünə.

Məsələn, yazırlar ki, Ağadadaş hadisədən əvvəlki gecə möhkəm içibmiş, yıxılıb qulağı partlayıb və həmin xəstəxanaya müraciət edib, qulağına tikiş qoyulub.

Ay bunu yazan, sən həmin gecə Ağadadaşgildəydinmi, onunla birgə içmişdinmi?! Yoxsa ailə üzvləri bunu sənə xəbər edib?

Neçə ildir ki, bu görkəmli Xalq artisti onkoloji xəstədir, ağır əməliyyat keçirib. Bu xəstəliyə tutulanlara və ağır əməliyyat keçirənlərə həkimlər içkini qadağan edir. Gündə nə qədər dərman qəbul edir. Ağadadaş canının düşmənidir ki, o dərmanların qarşılığında içki içsin və yıxılsın?

Xalq artistinin əlində balta nə gəzirdi?! Ağadadaş xəstəxana ilə üzbəüz, demək olar ki, on addımlığında həyət evində yaşayır. Bəlkə səhər-səhər həyətdə çalışırmış və ona görə də balta əlində çölə çıxıb?

Və mühafizəçidən elə söz eşidib ki, özünü saxlaya bilməyib. İnsanın əsəblərinin son həddi var, istəyirsən Xalq artisti ol, istəyirsən Xalq yazıçısı, akademik, professor, bəzən əsəblərinə sahib ola bilmirsən. Görünür, o da əsəblərinə sahib ola bilməyib.

Mən Ağadadaşa haqq qazandırmaq istəmirəm, sadəcə olaraq, bir görkəmli Xalq artistinin sosial şəbəkələrdə linç olunmasının əleyhinəyəm.

Daxili İşlər Nazirliyi rəsmi məlumat yayıb ki, hadisə ilə bağlı araşdırmalar aparılır, təhqiqat aparılır. Məsələn, dünən Ağadadaş Ağayev Binəqədi rayon Polis İdarəsində olub, ifadəsi alınıb. Özü isə açıqlama yayıb ki, tezliklə hadisə ilə bağlı video-müraciət yayımlayacaq.

Ağır onkoloji xəstəlik keçirən bir adamı, istəyir Xalq artisti olsun, istəyir adi bir bənna, bu cür linç etməzlər. Bu, Allahın xoşuna getməz.

Allah bizi Allahın öz qəzəbindən qorusun!

Sonda. Mən həmin videonu izləməmişəm. Yaxın bir dostumun vəhşicəsinə döyülməsini görmək istəməmişəm. Həmin videonu paylaşanlar da böyük səhv edir.

# ƏL BORCU VERİLƏN AĞDAM

Bu gün Ağdamın işğal günüdür. 27 il bu ağrı-acını yaşamışıq. 27 ildə 270 il qocalmışıq. Əslində yaşamamışıq ey, çoxumuzun ürəyi dərddən partlayıb. Doğma atam da Ağdam acısını yaşaya bilmədi. Montində bağda dostları ilə söhbət edərkən "bu türklər niyə gəlmədi" deyib ruhunu götürüb çıxıb getmişdi Ağdama.

Ağdamlılar son anadək əyinlərinə kəfən geyinib uşaqdan-böyüyə səngərdə vuruşdular. Altı könüllü batalyon vardı, bir də Şirin Mirzəyevin hərbi hissəsi.

Sonra Surət Hüseynovun 709-cu briqadası gəldi, könüllü batalyonları səngərlərdən zorla çıxarıb dedilər ki, siz çıxın, şəhəri biz müdafiə edəcəyik.

Və necə müdafiə elədilər?! Şəhəri döyüşsüz-filansız ermənilərə təslim etdilər. Sonra da Ağdamın kənarında kabab yeyəyeyə dedilər ki, əl borcu vermişik, qaytaracağıq.

Bu "əl borcu" 27 il çəkdi.

Və Surət Hüseynovun "əl borcu" verdiyi Ağdamı 27 ildən sonra Ali Baş Komandan, Cənab prezident İlham Əliyevin sərkərdəliyi ilə Müzəffər ordumuz şəhidlərimizin qanı bahasına azad elədi.

İstəyirdim işğalla bağlı nəsə yazım, gördüm gücüm çatmır. Gördüm o ağrı-acını yenidən yaşayıram və ürəyim dözmür.

Ona görə də "Tut arağı, donuz kababı və Aşotun məktubu" povestindən bir parçanı oxuculara təqdim edirəm.

*(Povestdən bir parça)*

Girdi Var-Yoxdan olmuş Dünyanın Ən Varlı Şəhərinə. Şəhər böyük bir tikinti meydançasına oxşayırdı. Qaynayırdı şəhər. Amma heç kim heç nə tikmirdi. Sökhasök, daşıhadaşı idi. Təkcə Var-Yoxdan olmuş Dünyanın Ən Varlı Şəhərinin dövlətini deyil, daşını, divarını, taxta-puşunu söküb aparmırdılar, həm də uşaqların sevincini, cavanların sevgisini, yaşlı adamların xatirələrini, göz yaşlarını daşıyırdılar. Küçələr tırlarla doluydu. Qarğaquzğun kimi darışmışdılar şəhərin canına. Çoxu hansısa başqa bir dildə danışırdı, arada azərbaycanca da sözlər eşidirdi. Maşınların demək olar ki, əksəriyyətinin nömrələri başqa dildə yazılmışdı. Ara-sıra Ermənistan nömrəli maşınlar da gözə dəyirdi.

Fikirləşdi ki, bunlar necə müsəlmandırlar, öz qardaşlarının ev-eşiyini dağıdıb aparırlar. O yorğan-döşəyin içində necə yatacaqlar, o apardıqları televizorda necə futbola baxacaqlar? O apardıqları stol-stulda oturub necə çay içəcəklər, çörək yeyəcəklər? Və fikirləşdi ki, oğruluqla qəhbəlik qırx gün çəkər...

...Amma bunların oğurluqla qəhbəliyi qırx gün yox, otuz il çəkdi

... Tırların arasından maşını bir təhər sürüb keçdi. Bu da bazar, az qala atom bombası satılan bazar. Vurhavurla bazarı da daşıyırdılar. Vaxtilə səs-küydən qulaq tutulan bazarda indi bir ölü sükut vardı.

Qabağına çıxan ilk salamat ev Artuşun evi oldu. Evin hasarına iri bir xaç çəkilmişdi və üstünə də ermənicə "Artuşun evi" yazılmışdı. Erməni evi olduğundan əl dəyilməmişdi. Artuşu elə də yaxşı tanımırdı, amma bilirdi ki, şəhərdə böyük hörməti var. Əvvəl maşın ustası olmuşdu, sonra profilaktoriya açmışdı. Artuşun evini də keçdi və başladı Faxigilin evini axtarmağa. Nəhayət, tapdı, hələ söküb dağıtmamışdılar. O da yanmış evlərin birindən bir kömür tapdı, Faxigilin hasarına bir xaç çəkdi və yazdı "Aşotun evi". Özü də həm ermənicə yazdı, həm də azərbaycanca.

Girdi həyətə. Bu həyətdə Faxının atası Məmməd kişi onlara çox kabab çəkmişdi. Çox yeyib-içmişdilər, danışıb-gülmüşdülər, vaxtilə bu evin ən əziz qonağı olmuşdu...

... İndi bu əziz qonağı qarşılayan olmadı...

... Evin qapısı açıq idi. Girdi içəri, qonaq otağına göz gəzdirdi, hər şey yerində idi. Hiss olunurdu ki, hələ yağmaçılar bu evə girməyib. Divardakı xalça da, xalçanın üstündə Faxının almanlarla müharibədə həlak olmuş babasının portreti də yerindəydi. Heç nəyə əl dəyməmişdi, küncdəki televizora da.

İlk dəfə rəngli televizoru da Faxigildə görmüşdü. Bu televizorda futbola baxmağın ayrı ləzzəti vardı. Evdəkilər də bilirdi ki, futbol günü Aşot mütləq gələcək, gələndə də özü ilə turşu, mürəbbə və bir də çöl quşları gətirəcək. Onlar futbola baxarkən Faxının anası da onun gətirdiyi kəkliklərdən gözəl bir çığırtma bişirəcək, sonra da yeyib-içəcəklər.

Bu futbolların içində ən maraqlısı "Neftçi" ilə "Ararat"ın oyunu idi. "Ararat" qol vuranda Aşot çığırıb-bağırardı, "Neftçi" qol vuranda Faxı ilə atası. Onda Markarov "Neftçi"də oynayırdı, sonra qaçıb getdi "Ararat"a.

Faxı deyirdi:

- Qaqa, bu Markarov şandığa niyə xayın çıxdı? Dəyyus!

Aşot:

- Xayın niyə olur, gedib öz komandasına.

Mübahisə böyüyərdi, son nöqtəni Faxının atası qoyardı:

- Qaçmasaydı, valyuta alveri üstə Əli Rəhmanov kimi onu da tutacaqdılar. Qaçıb canını durtardı dana.

Gəldi oturdu televizorun qabağındakı kresloda, özü də dəməkgərmədən. Təbii ki, işıq olmadığına görə televizor işləmirdi. Ekranın aşağısına Rəmişin şəkli yapışdırılmışdı. Aşot da Rəmişi çox sevirdi. Rəmişin xətrinə bir maqnitofon da almışdı. Valsatan Abbasa da bir ətək pul verib Rəmişin nə qədər lent yazısı vardı almışdı. Və axşamlar həyətdə maqnitofonu qoyurdu stolun üstünə, bütün səsini verirdi. Qonşular da yığışardı onun həyətinə ki, Rəmişə qulaq assınlar.

Qulaq asan ermənilərdən biri:

- Kaş bu köpəyoğlu erməni olaydı.

Bu vaxt evə dörd-beş nəfər adam girdi. Başladılar başa düşmədiyi hansısa bir dildə danışmağa, nə isə tələb edirdilər.

O da azərbaycanca, özü də ağdamlı ləhcəsiylə soruşdu:

- Ə, nə çığırıf-bağırırsız? Kimsiz, burda nə sülənirsiz?

Əslində "sülənirsiz" demədi, elə bir söz dedi ki, özünüz başa düşdüz də.

İçlərindən biri azərbaycanca dedi:

- Bəradər, niyə söyüş söyürsən? Azərbaycanlısan?

- Yox, erməniyəm.

- Bəradər, bu evi komendant beş yüz dollara bizə satıb. Bizimdi, dur bas bayıra.

"Bas bayıra" sözü Aşotun xoşuna gəlmədi. Qalxdı ayağa, az qaldı azərbaycanca danışanı vura, gördü ki, bunlar çoxdu, qorxdu.

Dedi:

- Komendant pox yeyif. Bu evi mən sahibindən dörd min manata satın almışdım, sənədlər də kənddə məndədi.

İki yalan danışdı. Birincisi, o Faxıya iki min manat borc vermişdi.

Və Faxı da Ayrikanı qaçıra bilməyəndən sonra pulu da qaytarmışdı. İki mini də üstünə qoydu ki, bir az inandırıcı olsun. Bəlkə bu evin iyirmi-otuz min manat qiyməti vardı, hələ içindəkiləri demirəm. İkincisi də, onda heç bir sənəd yox idi, kim idi bunu gedib arayıb-axtaran? Gələnlər Aşotun qırımını görüb:

- Bağışla, bəradər - deyib, çıxıb getdilər komendantdan pullarını almağa.

Ermənilər adətən adi evləri üç yüz dollara, bahalı evləri beş yüz dollara satırdılar dilini bilmədiyi bu adamlara.

Aşot yendi evin zirzəmisinə. Bilirdi ki, Faxının zirzəmidə yaxşı içkiləri var, xüsusilə də Şampan zavodda hazırlanan konyaklar. Üç litrlik balonlarda olurdu. Bir-iki dəfə o da kəklikdən, turacdan vurub aparmışdı zavodun direktoru Siyavuş müəllimə pay. Siyavuş müəllim də ona hər dəfə bir balon konyak bağışlamışdı:

- Ə, Aşot, konyak belə olar ey, İrəvan konyakının adı çıxıf.

Balonlardan birini götürüb qalxdı yuxarı, yenə dəməkgərmədən oturdu kresloda. Balonu açdı, elə balondanca konyakdan bir az içdi...

AQİL ABBAS

# SONUNCU POST

(əvvəli qəzetin ötən sayında)

... Məkan dəyişir. Xəlvət otaq. Aktrisa hamamdan çıxıb, xalatın bütün düymələri açıq, məmələr çöldə, saçlar tökülüb məmələrinin arasına. Aktrisa Qaranın əlindən tutub gətirir yataq otağına, xalatı çıxarıb atır. Qara qızarır, utana-utana əlini onun döşünə yaxınlaşdırır, dayanır.

Aktrisa:

- Birinci dəfədi?

Qara:

- Hə!

Aktrisa dodaqlarını onun dodaqlarına yapışdırır...

... Məkan dəyişir. Komandir Qaraya bir-iki yüngül şapalaq vurur:

- Ə, demədim yatma?!

Qara gözünü açır,.. səngər... çovğun... deyir:

- Komandir, sən nə namərd adamsan!

Komandir:

- Yatma, yatma! Söy məni, amma yatma! Gördüyünüz yuxu deyil ey, ölümdü! Ölüm! Başa düşürsüz?!

Sonra Qaranın sinəsini açır, ovur və deyir:

- Bax, yatsan nə sabah axşam televizorda xəbərlərə baxa biləcəksən, nə də sağ qaldığını eşidəcəksən.

Bakılı Balası:

- Komandir, sən qoyma uşaqlar dona, mən birtəhər dözəcəm.

... Məkan dəyişir. Komandirin evi. Televiziyada "Uzaq sahillərdə" filmini göstərirlər.

Komandirin xanımı boşqaba yemək çəkir. Anası yun corab toxuyur.

Xanım:

- Ay xala, yorulmadın bu corab toxumaqdan.

Ana:

- Uşağın əsgərlərinə göndərəcəm, bu sonuncudu.

Xanım:

- Ay xala, indi keçmiş zaman deyil, hökumət hər şey verir.

Ana:

- Hökumətin verdiyi başqa, mənim toxuduğum başqa.

Böyük qardaş:

- Nənə, bax, Mixaylo atamıza oxşayır.

Komandirin Anası gülümsəyir:

- Anjelika da ananıza!

Xanım televizoru söndürmək istəyir:

- Yaxşı, Mixaylonun uşaqları, gəlin çörəyinizi yeyin, yatmaq vaxtıdı.

Uşaqlar çığırışır:

- Dəymə, dəymə!

Komandirin Anası:

- Dəymə, qoy uşaqlar atalarına baxsınlar.

***

... Məkan dəyişir. Mayor ərzaq anbarında bir əsgərlə müxtəlif ərzaqları stolun üstə yığır.

Əsgər:

- Yoldaş mayor, bu qədər ərzağı xeyirdimi? Siz heç vaxt burdan ərzaq götürməzdiz?!

Mayor:

- Xeyirdi, sabah ad günümdü, qonaqlarım olacaq, bazarlıq etməyə vaxtım olmayıb. Deyəcəm, pulunu maaşımdan tutacaqlar.

Əsgər:

- Yoldaş mayor, mən o mənada demədim.

Mayor gülümsəyir:

- Bilirəm. Sən ordan iki butulka da spirt gətir.

Əsgər gedib iki butulka da spirt gətirir. Mayor stolun üstündəkiləri bir çantaya yığır.

Əsgər:

- Yoldaş mayor, siz gedin, mən bir azdan özüm evinizə gətirərəm.

Mayor:

- Yox, sağ ol, qapıyacan aparsan bəsdi.

Əsgər çantanı götürür və Mayoru hərbi hissənin nəzarət məntəqəsinədək ötürür.

Qapıya çatanda əsgər deyir:

- Yoldaş Mayor, ağırdı, bəlkə evəcən.

Mayor:

- Sağ ol əsgər, sən qayıt çörəyini ye, yemək vaxtıdı.

Mayor çantanı əsgərdən alıb geyir kürəyinə və hərbi hissədən çıxır.

... Məkan dəyişir. Televiziyada xəbərlər proqramı.

- Axşamınız xeyir! "Xəbərçi"nin iyirmi bir buraxılışı efirdədi. Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin verdiyi məlumata görə, cəbhə xəttində sakitlikdir.

İndi isə günün əsas xəbər başlıqları. Bəxtiyar Vahabzadə ilə Məmməd Araz aclıq aksiyası keçirən Qarabağ qaziləri ilə görüşüb. ATƏT-in həmsədrləri bu gün Yerevanda olublar, Ermənistanın xarici işlər naziri ilə görüşüblər, sabah Bakıya gələcəklər. Türkiyədə PKK Vanda polis binasını atəşə tutub. İndi isə daha ətraflı...

... Məkan dəyişir. Komandir ermənilərin dərədə batıb qalmış maşınına baxır, bir donmaqda olan uşaqlara baxır, sonra öz-özünə nə isə hesablayır.

Və Komandir qalxır ayağa, üzünü əsgərlərə tutub deyir:

- Uşaqlar, mən gedirəm maşına.

Bakılı Balası:

- Hara?

Komandir:

- Cəhənnəmə!

Dağlaroğlu:

- Bura cəhənnəm deyil ki?!

Bakılı Balası:

- Cəhənnəm olsa, nə dərdimiz vardı, indi qırqazanının içində buğlanırdıq.

Qara:

- Komandir, niyə gedirsən ki?

Komandir:

- Bəlkə əlimə bir şey keçdi. Heç olmasa bir təkər gətirə bilsəm, səhərəcən bəsimizdi.

Şair:

- Vurarlar səni.

Komandir:

- Vura bilməzlər. Siz məni qoruyarsız. Gördünüz itușağı duyuq düşdü, basın gülləyə.

Qara:

- Bəs ATƏT?!

Komandir:

- ATƏT qələt eləyir!

Şair:

- Getmə, Komandir, səhərədək birtəhər dözərik.

Komandir Şairi öpür:

- Qorxma!

Dağlaroğlu:

- Bəlkə mən gedim.

Komandir:

- Yox. Yerimdə sən qalırsan. İşdi-şayətdi, başıma bir iş gəlsə, siz möhkəm olun. Nə edirsiz-edin yatmayın. Yatmasaz donmayacaqsız. Amma yatıb postu təhvil versəz, sizi o dünyada da olsa tapıb öz əllərimlə güllələyəcəm. - sonra flyaqasın çıxarıb verir Dağlaroğluna; - Ala, amma içməyin, burnunuza çəkin.

Komandir ehtiyatla aşağı yenməyə başlayır...

Şair:

- Gərək buraxmayaydıq.

... Məkan dəyişir. Komandirin Anası titrəyə-titrəyə girir içəri, əlindəki sərnicdən südü bir qaba süzüb qoyur sobanın üstə. Televiziyada "Uzaq sahillərdə". Mixaylo almanları qırır.

## (Kinossenari)

Böyük qardaş əlini tapança kimi tutub sevinclə qışqırır:

- Ta! Ta! Ta! Ta!

Komandirin Xanımı balacanı yedirtmək istəyir, uşaq isə gözünü zilləyib televizora.

Komandirin Anası:

- Bala, dünya donub. Qorxuram heyvanlar da dona, ikisindən bir qab süd çıxmadı. Yazıq uşaq indi dağın təpəsində, qar-qiyamət! Köpəyuşağı qoymadılar adam kimi yaşayaq. Ay Allah, sən baisin tifağın dağıt.

Komandirin xanımı:

- Ay xala, indi sənin dediyin o yazıq özünü verib şəhərə, girib bir xanımın qucağında xumarlanır! Sən də başlamısan dağ belə getdi, qiyamət belə gəldi.

Komandirin Anası əllərini qaldırır göyə:

- Ya xudavəndi-kərim olan Allah, sənə qurban olum, gəlin deyən olsun, mən deyən yox!..

... Məkan dəyişir. Komandir qara bata-bata maşına çatır. Ehtiyat təkəri sığallayır. Desant bıçağı ilə təkərin boltunu açmağa çalışır, gücü çatmır. Kabinəyə yaxınlaşır, qapını açır, çaşıb qalır. Bir erməni əsgəri mışıl-mışıl yatır. Əlini atıb onun avtomatını sakitcə götürür, dirəyir sinəsinə, lülə ilə möhkəm sıxır:

- Dur oğraş...

Erməni qımıldanır, amma gözlərini açmır. Komandir avtomatın lüləsi ilə bu dəfə onun sinəsindən vurur:

- Dur, şandığa!

Əsgər gərnəşir, gözlərini ovxalayır və qarşısında Azərbaycan zabitini - Komandiri görəndə gözləri bərələ qalır, heç nə anlamır, qorxudan udqunmağa başlayır. Komandir barmağını dodaqlarına yaxınlaşdırır:

- Suss! Azərbaycanca bilirsən?

Erməni başını həyəcanla və qorxa-qorxa bulayır - yox!

Komandir:

- A pa russki...

Erməni:

- Znayu.

Komandir:

- Mantirovka! Qde mantirovka! Davay!

Erməni kənara çəkilib oturacağı qaldırır və ordan mantirovkanı götürüb Komandirə uzadır.

Komandir mantirovkanı alır və onu çəkib kabinədən düşürür, maşının altındakı ehtiyat təkəri göstərir:

- Davay otkrıvay!

Erməni nə qədər əlləşir təkərin bağlandığı boltu açmağa gücü çatmır, keyimiş əllərini üfürə-üfürə dönüb yazıq-yazıq Komandirə baxır.

Komandir onu kənara itələyir, özü girişir açmağa:

- Ya Allah!

Çətinliklə olsa da birtəhər təkəri aça bilir, sonra erməniyə deyir:

- Ey dığa, veryovka yest?

Erməni:

- Yest.

- Davay prinisi.

Erməni kabinəyə qalxır, oturacağın altından kəndir gətirir.

Komandir:

- Tam çto-nibud yest pokuşat?

Erməni kabinədən çantasını gətirir. Komandir ondan çantanı alıb açır, içində çörək, kolbasa, sala, siqaret...

Komandir hamısını doldurur qoynuna.

- A vodka?

- Vodka net. Vodka tolko dlya komandira.

Komandir onun flyaqasını alıb açır, əvvəl iyləyir, sonra içindəkin tökür yerə, qaytarır erməniyə, bakı göstərir:

- Davay napalnyay.

Erməni bakdan benzin çəkib flyaqanı doldurub verir Komandirə.

Komandir flyaqanı keçirir kəmərinə, sonra mantirovka ilə bakın altındakı boltu açıb benzini boşaldır yerə. Daha sonra kəndirin bir ucunu möhkəm-möhkəm təkərə bağlayır və o biri ucunu verir erməniyə, yuxarını göstərib deyir:

- Taşi!

Erməni kəndirlə təkəri yuxarı çəkir, Komandir də gah çiyni ilə, gah da əlləri ilə təkəri yuxarı itələyir. Qara bata-bata çox çətinliklə üzü yuxarı posta tərəf qalxırlar. Bir azdan hər ikisinin nəfəsi təngiyir, yorulurlar, oturub nəfəslərini dərirlər.

Erməni qorxa-qorxa soruşur:

- Tı menya ubyoş?

Komandir:

- Ne boysya, ya tebya ne ubyu. Yesli xoçeş jit, davay taşi.

Nəfəslərini bir az dərəndən sonra Komandir qalxır və erməniyə də işarə edir ki, qalx. Yenidən yuxarı dırmaşırlar.

Hiss olunur ki, ermənin gücü tükənib, arada-bir dizi üstə düşür, sonra yenə qalxır. Və birdən kəndir erməninin donan əlindən çıxır, Komandir nə illah edir təkəri saxlaya bilmir, təkər Komandiri də yıxıb dərə aşağı dığırlanır.

Komandir dərəyə dığırlanan təkərin ardınca elə baxır, elə baxır, sonra yumruğu ilə yeri döyəcləyir. Qalxıb özünü atır erməninin üstə, başlayır döyməyə:

- Sənin ölənləriyinin... - bıçağı çıxarır, dirəyir erməninin boğazına, erməni uşaq kimi ağlayır. Komandir başını bulayır, özünü ələ alır və ermənini yerdən qaldırır:

- Vstavay!

Posta çatırlar. Komandir avtomatın qundağı ilə erməninin kürəyindən vurub salır səngərə:

- Təkəri buraxdı itin doğduğu.

Uşaqlar hamısı təəccüblə erməniyə baxırlar. Erməni yalvarır:

- Klyanus materi, ya ne xotel, sila ne xvatila...

Komandir:

- Maşında yatmışdı, itoğlu!

Şair:

- Komandir, indi bu itoğlunu nə edəcəyik?

Komandir:

- Nə bilim nə edəcəyik?! - sonra əsəbi; - Paza keçirdəcəyik. Heç olmasa bunları gətirə bildim.-deyir və qoyun-qoltuğundakı ərzağı çıxarır, beş yerə bölür və paylayır uşaqlara; - Birdən yeməyin. Heç olmasa bir-iki tikə də olsa saxlayın.

Amma uşaqlar onu eşitmirlər, yeməyi az qala gözlərinə təpirlər. Komandir bir öz payına baxır, bir əllərindəkini acgözlüklə yeyən uşaqlara baxır, yazıq-yazıq ona baxan erməniyə baxır, payının yarısını erməniyə uzadır:

- Ala.

Erməni heç nə başa düşmür. Komandir yenə yeməyi erməniyə uzadır:

- Vozmi. Ne boysa. Vozmi ya skazal!

Erməni qorxa-qorxa əlini uzadıb yeməyi alır, o da tez-tələsik yeyir, sanki qorxur tutub əlindən alarlar, sonuncu tikəni udduqdan sonra deyir:

- Spasibo.

... Məkan dəyişir. Anbarda çalışan əsgər üst-başının qarını çırpıb təmizləyir və girir yeməkxanaya. Əsgərlər zarafatlaşa-zarafatlaşa şam edirlər. Əsgər gəlib öz bölümü ilə bir stolun arxasında oturur.

Əsgərlərdən biri:

- Bir az da gec gəlsən, sənin də payını yeyəcəydik.

Əsgər özünə yemək çəkə-çəkə deyir:

- Bizim Mayor ərzaq tədarük edirdi, mən də ona kömək eləyirdim. Bilirsiz, sabah bizim Mayorun ad günüdü? Bəlkə yığışıb bir hədiyyə də biz alaq, yaxşı kişidi.

Əsgərlər təəccüblə bir-birlərinə baxırlar.

Çavuş deyir:

- Nə boş-boş danışırsan,ə? Mayorun ad günü iki-üç həftə bundan əvvəl klubda qeyd olunmadı? Polkovnik də hərbi hissənin adından bir saat da bağışladı.

Əsgər:

- Mən nə bilim ey. Bir çanta ərzaq yığdı, mənə də dedi ki, sabah ad günümdü, qonaqlarım olacaq. Bəlkə qonaqlığı sabah verir?!

Hamı əl saxladı və çavuşa baxdılar.

Çavuş fikirli-fikirli başını yellədi və dedi:

- Yeməyinizi bitirin, sakitcə qalxın. Mən bildim Mayor bir çanta ərzağı nə üçün götürüb. Bayaq qərargahda polkovniklə danışığını eşitdim.

Heç kəs əlini yeməyə uzatmadı. Hamı məsələnin nə yerdə olduğunu anladı və sakitcə qalxıb yeməkxanadan çıxdılar.

Çıxarkən biri çavuşdan soruşur:

- Bəs hissədən necə çıxacağıq?

Çavuş bir az əsəbi:

- Qız dalınca gedəndə necə çıxırdın, elə! - sonra üzünü hamıya tutub deyir; - Möhkəm geyinin, flyaqalarınızı da spirtlə doldurun!

***

... Məkan dəyişir. Bizim post. Çovğun davam edir. Uşaqlar bir-birinə sığınıblar. Komandir çıxılmaz vəziyyətdə başını alıb əllərinin arasına. Gecə keçdikcə şaxta bir az da artır.

Qara:

- Komandir.

Komandir başını qaldırır:

- Haycan, Qara!

Qara zarıyır:

- Komandir, ölürəm, qoyma...

Komandir əlacsız-əlacsız bircə qıça da Tanrı işığı görünməyən göyə baxır, uşaqlara baxır, sonra bir siqaret yandırıb verir Qaraya:

- Ala çək, bir az qızışacaqsan.

Qara:

- Mən siqaret çəkə bilmirəm.

- Ala dedim.

Qara siqaretdən bir qurtum alır və başlayır öskürməyə.

Komandir:

- Öskür, öskür, xeyri var. - sonra erməniyə baxır və deyir: - Çıxart buşlatı.

Erməni başa düşmür.

Komandir:

- Snimay buşlat,- deyir və gözləmir, çəkib buşlatı onun əynindən çıxarır, atır Qaranın üstünə.

- Götür bürün.

Qara:

- Bəs o? Yazıqdı axı.

Komandir:

-Onun yazıq... Götür!

Qara bir az tərəddüd etsə də götürüb bürünür.

Komandir ürək ağrısıyla erməniyə baxır və deyir:

- Axı, sənin burda nə itin azmışdı ki, ay yetim.

Erməni:

- Çto vı skazali!

Komandir əlinin dalı ilə:

- Niçeqo!

(ardı qəzetin növbəti sayında)

# 34 il bir səngərdə

## Bu, “Ədalət”in yaşıdı

**Ön söz əvəzi:**

**Bu il 34-ün əlini sıxırıq. Və xatırladım ki, mən bu yazını yazanda da, indi də düşündüm ki, 25-də də, 30-da da oxucu qarşısına gəlib çatdığımız kimi, 34-yə də o cür gəlib çatmışıq.**

**Hə, bu da 34 il!.. Düz 34 il bundan öncə Azərbaycan adlı məmləkətdə ”Ədalət” adlı qəzet dünyaya gəldi... Düz 34 il bundan öncə həmin o Azərbaycan adlı məmləkətin ”Ədalət” adlı qəzeti müstəqil mətbuatın ilk carçılarından, ilk qaranquşlarından biri kimi tarixə düşdü. Yəni bu məmləkətdə azad sözün, azad jurnalistikanın nəfəsini, hərarətini oxucu üzünə açdı ”Ədalət”. Hər kəs qəzeti ilk dəfə olaraq birinci səhifədən oxumağa başladı. Bu, ”Ədalət”in uğuru idi, bu, ”Ədalət”in yolu idi. Və 34 ildir ki, bu yol belə də davam edir...**

Bəlkə də 34 rəqəmi bir riyazi yanaşma baxımından o qədər də böyük önəm kəsb etmir. Amma 25-i yaş kimi görəndə, təqdim edəndə istər-istəməz gözünün qarşısında boylu-buxunlu, yumruqları düyülmüş, sözü ötkəm, səsi qətiyyətli bir lay divar oğlan canlanır. Deməli, ona güvənmək də olar, ona iş də tapşırmaq mümkündü və hətta ondan qəhrəmanlıq da ummaq. Bax, bu mənada 34 yaşlı ”Ədalət” dolanbac yolları, ağrılı-acılı günləri, Qarabağsız ayları, şəhid qanlarını, ölkədəki xaosu, qardaş qarşıdurmasını və nəhayət, uğurlu bir inkişafı öz canına-qanına hopdura-hopdura, köynəyindən keçirə-keçirə gəlib çatdı Qarabağlı günlərə - yeni 34 yaşa!..

Bəli, indi oturub bu 34 illik yolu kimlərlə, necə gəldi düşünürəm... Hansı çətinliklərdən keçdiyimizi, hansı uğurları qazandığımızı muncuq kimi sapa düzürəm. Bu məqamda ürəyimin dağ boyda olduğu anları da qürur hissi ilə yaşayıram. Üzüldüyümüz məqamları da kədərlə xatırlayıram. Çünki bu bizim həyatımızdı, bu bizim ömür yolumuzdu və bu yolda biz ilk addımları ”Azərbaycan” nəşriyyatının 2-ci mərtəbəsində dizimizin üstündə dəhlizdə atmışıq. Ürəyimiz əsə-əsə, həyəcandan əlimiz titrəyə-titrəyə dünyaya bir ”Ədalət” gətirmişik. Özü də bu ”Ədalət” indiki texnikanın olmadığı, sovet döneminin primitiv çap maşınları ilə yığılıb işıq üzü görübdü. Onun dünyaya gəlməsində dəyərli Adil Minbaşının, qəzetin ilk redaktoru Aqil Abbasın və onların ətrafında toplaşan Babək Yusifoğlunun, Faiq Qismətoğlunun, Rəşid Faxralının, Lətif Süleymanlının, Məhəmmədəli Mustafanın, Əyyub Kərimovun əməyi danılmazdır. Üstəlik, dünyaya ilk sözünü çatdıran ”Ədalət”in bir pöhrə kimi böyüməsində, bir ağac kimi qol-budaq atmasında həmin illərin ziyalılarının, aydınlarının dəstəyi, təqdim etdikləri sanballı materialları doğru sözün həsrətini çəkən oxucular üçün sanki göydəndüşmə olmuşdu. Hamı səbirsizliklə məmləkətimizdə öz izini açan, öz işığını yandırıb hər kəsi ətrafına yığan ”Ədalət”in növbəti saylarını gözləyirdi. Hər yeni nömrə oxucuya yeni imzalar da təqdim edirdi. Artıq”Ədalət”in oxucuları mərhum Mirmayıl Cəbrayılovu, Baba Pünhanı, Adil Mirseyidi, Yusif İsmayılı, Hidayət Elvüsalı, Yusif Misiroğlunu, Əliyusif Məmmədovu, Pərviz Əliyevi, Ərşad Mirzəni, Oqtay Salamovu, Qeyrət Quliyevi, Çingiz Ələkbərzadəni, Vahid Əlifoğlunu, Tofiq Abdini, Söhbət Səfərlini, Vəsilə Usubovanı, Oqtay Abbasovu, Nəriman Səttaroğlunu, Vaqif Əliyevi sözündən tanıyırdılar. Eləcə də ”Ədalət”i oxuyanlar Kamran Nəzirlini, Adil Şirini, Vaqif Bəhmənlini, Rəşad Məcidi, Asif Mərzilini, Asif Talıboğlunu, Daşdəmir Əjdəroğlunu, Nazim Ağamirovu, Lətif Novruzovu, Lətif Süleymanlını, Faiq Sadıqovu, Zaur Vəliyevi, Mehman Cavadoğlunu, Vahid Qazini, Şakir Qurbanovu, Şakir Həşimovu, Ceyhun Musaoğlunu, Nicat Bəşirzadəni, Nicat Rüstəmovu, Elçin Namazı, Rəhman Hacıyevi, Qələndər Xaçınçaylını, Surxay Əlibəylini, Yusif Rzayevi, İsrafil Quliyevi, Səxavət Məmmədovu, Nərgiz Cabbarlını, Murad Nəbibəyovu, Asəf Quliyevi, Füzuli Rüzgarı, Kərim Kərimlini, Kənan Hacını, Hidayət Elvüsalı, Bəsti Əlibəylini, Ağakişi Bahaduru, Samir Sədaqətoğlunu, İqbal Aydınoğlunu, Ceyhun Rüstəmovu, Nizami Allahyarovu, Nicat Rüstəmovu, Şamxal Şəbiyevi, Rüstəm Hacıyevi, Gülər İsmayılovanı, Mehriban Cəfərovanı, Tahirə Cəlilovanı, Elnarə Quliyevanı, Fəridə Rəhimlini, Tünzalə Xəlilovanı, Qəşəm Nəcəfzadəni, Əsəd Cahangiri, Vaqif Yusiflini, Ələvsət Beşirlini, Sevinc Seyidovanı, Qərənfil Dünyaminqızını, Xatirə Hafizqızını, Möhtərəm Rəcəbovanı, Ülviyyə Rzayevanı, Kamil Rzakovu, Qəşəm Həşimovu, Rüstəm Hacıyevi, Elşən Quliyevi, Gültəkin Qəhrəmanlını,Vüqar Tofiqlini, Elnur Astanbəylini, Rüfət Soltanı, Nicat Qafuroğlunu, Sahib Əsədbəylini hər gün qarşılayır və onların bir-birindən maraqlı yazılarının yaratdığı ovqatın aurasında sabaha böyük ümidlər bəsləyirdilər. Şükürlər olsun ki, həmin ümidlərazçox fərqlərlə öz təsdiqini tapdı. Bəli, ”Ədalət”in şinelindən çıxıb indi Azərbaycan mətbuatında böyük nüfuz qazanan, imzasını hərkəsə birmənalı şəkildə sevdirən yazarlar, redaktorlar bu gün öz yolları ilə getsələr də, amma onların müstəqil məmləkətdə ilk sözlərini oxucuya çatdıran ”Ədalət” oldu. Sevindirici haldır ki, dünyasını dəyişmiş həmkarlarımız,əməkdaşlarımız öz sağlıqlarında ”Ədalət”in səhifəsində olan möhürlərini, yeni imzalarını son anlarına qədər sədaqətlə, şərəflə qorudular və bu dünyadan köç edəndə onların yarımçıq qalan fikirləri, deyilməmiş sözləri tirajlanan ”Ədalət”də susmadı, dayanmadı. Əksinə, onların ruhu da, sözü də bizimlə qaldı, həm də bizim oxucularla.



Bəli, mən 34 il yol gələn ”Ədalət”in bu günündən üzü geri boylananda bir məqamı da gördüm və onu xüsusi vurğulamaq istəyirəm.

Belə ki, ”Ədalət”in təqdimatı ilə ”Ədalət”in şinelindən çıxıb müxtəlif vəzifələrə, xüsusilə hüquq-mühafizə orqanlarına işə gedən kifayət qədər müəlliflərimiz olub.

Onlar bu gün də vəzifə sahibidilər və bu gün də ”Ədalət” onlar üçün doğmadı. Onların arasında Elşad Əliyev, Rafiq Abbasov, Nazim Ağamirov, Elşad Həsənov, Amil Dosiyev, Aydın Ağazadə, Faiq Sadıqov, Rövşən Əhədoğlu və başqaları da var. Deməli, bütün bunlar göstərir ki,”Ədalət” bir xalq qəzeti olaraq ilk gündən atdığı doğru, dürüst və ədalətli addımını bu gün də yaşadır, bu gün də davam etdirir. Təbii ki, indi onun ilk baş redaktoru millət vəkili olmaqla yanaşı, həm də qəzetin təsisçisidi və ilk baş redaktoru Azərbaycanın ”Əməkdar jurnalist”i, dəyərli yazıçı-publisist İradə Tuncay əvəz edibdi. Həmin zamandan İradə xanımın rəhbərliyi altında ”Ədalət”in köhnə, yeni ilk komandasından olan Faiq Qismətoğlu, Məzahir Əhmədoğlu, Yaşar Nəbiyev, İslam Niftiyev, eləcə də yeni ”Ədalət”çilər Ədil Ədilzadə, Oğuz Ayvaz, Sübhan Mahmudlu, Əntiqə Rəşid, Şəfiqə Şəfa, Emin Piri, Ulucay Akif, Ayxan Ayvaz, Orxan Saffari, Eminquey, Əntiqə Kərimzadə,Elnarə hər gün sizin oxucu süfrənizə özlərinin dövlətə, dövlətçiliyə,xalqa xidmət edən fikirlərini təqdim edirlər. Mən bu bir növü xatırlatma xarakterli yazını bilgisayara diktə edəndə yaddaşımı demək olar ki, xeyli sağa-sola vərəqlədim.

Çalışdım ki, heç kim yaddan çıxıb kənarda qalmasın. Çünki bizim unutmağa haqqımız yoxdu. Ən azından ”Ədalət”çi olduğumuz üçün!..

**Və bu yazıya son olaraq demək istəyirəm ki, biz 34 ili bir ailə kimi necə yaşadıq, onu sizdən gizlətmədik. Nə qazandıq sizin gözünüzün önündə oldu və bir də adımızın saflığını, sözümüzün kəsərini sizə güvənib yaşatdıq. Bunun üçün ”Ədalət”çilər olaraq Sizə, yəni bizə dayaq olan oxucularımıza təşəkkür edirik. Sağ olun ki, bizi yaşatdınız! Sağ olun ki, bizi yaşadırsınız! Biz də çalışacağıq ki, bu 34 ildə sizinlə olduğumuz kimi, bundan sonra da sizinlə olaq! Bizim və Sizin 34 yaşımız mübarək!!!**

**Hörmətlə:**
**“Köhnə Ədalətçilər”dən**
**Əbülfət MƏDƏTOĞLU**

# Hərbi liseylərə qəbul imtahanının nəticələri elan edilib

**İmtahanlarda iştirak etmiş abituriyentlər imtahan nəticələri, ”cavab kartı” və ”cavab vərəqi”nin qrafik təsviri, həmçinin qiymətləndirmə meyarları ilə buradan tanış ola bilərlər.**




DİM-dən verilən məlumata görə, abituriyentlər imtahanın nəticələri haqqında məlumatı, həmçinin mobil operator nömrələrindən ”iş nömrəsi”ni 7727 nömrəsinə göndərməklə öyrənə bilərlər.

Hərbi liseylərə qəbul imtahanında iştirakı gözlənilən 1322 abituriyentdən 26 nəfər gəlməyib. İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM-də Apellyasiya Komissiyası fəaliyyət göstərəcək. Apellyasiya Komissiyasına müraciət etmək istəyənlər 26-28 iyul tarixlərində DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan Apellyasiya Komissiyasına müraciət edə bilməyəcəklər. Elektron ərizədə haqqında müraciət edilən tapşırığın nömrəsi seçilməli, onunla bağlı müraciətin məzmunu yazılmalı və meyarın hansı bəndinə uyğun hesab edildiyi göstərilməlidir. Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir və həmin müraciət araşdırılmır. Apellyasiya prosesi aşağıdakı ardıcıllıqla aparılır:

- Apellyasiya Komissiyası tərəfindən haqqında müraciət olunan bütün işlər araşdırılır;
- Abituriyentlərin müraciət etdikləri tapşırıqlar üzrə ekspert rəyi (yazılı şəkildə) apellyasiya ərizələrinə əlavə edilir;
- Abituriyentlərin apellyasiya ərizələrində qeyd etdikləri telefon nömrəsinə apellyasiya prosesinin başa çatması ilə bağlı ”sms” göndərilir.

Bundan sonra abituriyentlər apelyasiya.dim.gov.az saytında ərizələrinə daxil olaraq apellyasiyanın nəticəsi ilə tanış ola və ekspert rəyini oradan çap edə bilərlər.

**Cavab vərəqində təlimata uyğun olmayan formada qeyd olunmuş cavablar, o cümlədən cavabın optik qurğu tərəfindən səhv kimi nəzərə alınması ilə nəticələnən düzəlişlərlə (məsələn qapalı sualda iki dairənin qaralanması və s.) bağlı müraciətlərə baxılmayacaq.**

# *Azərbaycan dünya pasportları reytinqində yüksəlib*

**”Henley & Partners” şirkətinin dünya pasportları indeksinə dair məlumatları dərc olunub.**

Reytinqə əsasən, Azərbaycan əvvəlki qiymətləndirmə ilə müqayisədə bir mövqe yüksələrək 69-cu yeri tutub. Respublika vətəndaşları 71 ölkəyə vizasız səfər edə bilərlər.

Qeyd edək ki, Sinqapur yenidən dünyanın ən güclü pasportlarına malik olmaqla liderliyini qoruyub saxlayıb.

Belə ki, bu ölkənin vətəndaşları 195 ölkəyə (təhlil olunan 227 ölkədən) vizasız və ya gəlişdə viza ilə səfər edə bilirlər.

Fransa, Almaniya, İtaliya, Yaponiya və İspaniya 192 ölkəyə vizasız girişlə 2-ci yerdə qərarlaşıb.

Üçüncü yeri yeddi ölkə bölüşüb: Avstriya, Finlandiya, İrlandiya, Lüksemburq, Hollandiya, Cənubi Koreya və İsveç (191 vizasız istiqamət).

Reytinqi İraq (31 vizasız istiqamət), Suriya (28 vizasız istiqamət) və Əfqanıstan (26 vizasız istiqamət) tamamlayır.

**Qeyd edək ki, ”Henley” pasport indeksi sahiblərinin əvvəlcədən vizasız gedə biləcəyi istiqamətlərin sayına görə dünyada bütün pasportların orijinal və ən nüfuzlu reytinqidir. İndeksə 199 pasport və 227 turist istiqaməti daxildir ki, bu da istifadəçilərə qlobal çıxış imkanı və mobillikləri barədə ən geniş və etibarlı məlumat verir.**

# Kamran Əliyev: "Bəzi cinayətlərin açılmasında mətbuatın da öz töhfəsi olub"

**"Bəzi cinayətlərin açılmasında mətbuatın da öz tövhəsi olub".**

Adalet.az xəbər verir ki, bu fikirləri Baş prokuror Kamran Əliyev Baş Prokurorluqda bu gün keçirilən 2024-cü ilin birinci yarımilinin yekunlarına həsr olunmuş onlayn formatda keçirilən geniş kollegiya iclasında deyib.

Belə ki, iclasda Baş prokuror 22 iyul tarixinin Azərbaycanda Milli Mətbuat və Jurnalistika günü kimi qeyd



edilməsini xatırladaraq media nümayəndələrini təbrik edib və onlara səmərəli əməkdaşlığa görə təşəkkür edir: "Cinayətkarlığa qarşı aparılmış mübarizə sahəsində media nümayəndələrinin göstərdiyi cəhdlər, sərf etdikləri əmək xüsusi qeyd olunmalıdır. Müxtəlif hüquqpozmalar barədə mətbuatda yayılan məlumatlar əsasında prokurorluq orqanları tərəfindən 8 araşdırma aparılıb və onlardan 4-ü üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi, 1-i üzrə isə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə inzibati xətalar haqqında iş üzrə icraat başlanıb. Səmərəli və sağlam qarşılıqlı əməkdaşlıq sayəsində əldə olunan nəticələrə və cinayətkarlığa qarşı mübarizədə prokurorluq və digər hüquq-mühafizə orqanlarına daim dəstək olduqları üçün media nümayəndələrinə təşəkkür edir, 22 iyul Milli Mətbuat və Jurnalistika günü münasibətilə təbriklərimizi çatdırır, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayırıq"- deyə Baş prokuror qeyd edib.

# Naxçıvanda MSK seminar-müşavirə keçirdi

**Naxçıvanda MSK seminar-müşavirə keçirib.**

Adalet.az xəbər verir ki, MSK tərəfindən bölgələrdə keçirilən silsilə seminar-müşavirələr Naxçıvanda da davam etdirilir.

Keçirilən tədbirdə Mərkəzi Seçki Komissiyasının üzvü Bəxşeyiş Əsgərov, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Səxavət Novruzov, Ali Məhkəmənin hakimi Müşfiq Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

Çıxış edənlər bildirib ki, bu cür tədbirlərin keçirilməsi narazılıqlarının sayının azal-



masında xüsusi önəm daşıyır. Müşavirədə Ali Məhkəmənin əməkdaşları tərəfindən hüquqi və prossesual məsələlərlə bağlı olan suallar cavablandırılıb. Sonra "Seçkilərdə seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər", Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri İlqar Əlizadənin "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin seçki komissiyalarında araşdırılması prinsipləri və xüsusiyyətləri" mövzularında çıxışları dinlənilib.

**Seminar-müşavirəyə seçki mübahisələrinin məhkəmə qaydasında həlli ilə bağlı fikir mübadiləsi və müzakirələrdən sonra yekun vurulub.**

# Nikaha daxil olma yaşı və qadağa qoyulan evliliklərlə bağlı izah

**23 iyul 2024-cü il tarixdə qüvvəyə minmiş Azərbaycan Respublikasının Qanunu ilə Ailə Məcəlləsində dəyişikliklər edilib.**

Baş Prokurorluqdan Adalet.az-a verilən məlumata görə, dəyişikliyə əsasən, Azərbaycanda nikah yaşının 1 il azaldılmasına yol verilən hal, eləcə də, nikah yaşına çatmayan şəxslə bağlanmış nikahın etibarsız hesab edilməsinə dair hal aradan qaldırılıb.

Belə ki, Ailə Məcəlləsinə əsasən ölkəmizdə nikah yaşı 18 yaş müəyyən olunub.

Qeyd olunan Məcəllənin 10.2-ci maddəsində qeyd olunurdu ki, üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.

Habelə, həmin Məcəllənin 27.2-ci maddəsində göstərilirdi ki, yetkinlik yaşına çatmayan ərin (arvadın) mənafeyi tələb etdikdə, eləcə də nikahın etibarsız sayılması barədə onun razılığı olmadıq-



da, nikah yaşına çatmayan şəxslə bağlanmış nikahın etibarsız sayılması barədə iddianı məhkəmə rədd edə bilər. Dəyişiklik nəticəsində qeyd olunan hər iki norma ləvğ edilib.Bundan başqa, Ailə Məcəlləsinə yeni - 12.0.2-1-ci və 12.0.2-2-ci maddələr əlavə edilmiş və bununla ölkəmizdə nikahın bağlanmasına mane olan hallar artırılıb.

Hazırda aşağıdakı şəxslər arasında nikahın bağlanmasına yol verilmir:

1. yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar);

2. övladlığa götürənlər və övladlığa götürülənlər;

3. qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları;

4. bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oglu;

5. ikisindən biri və ya hər ikisi başqası ilə nikahda olan şəxslər;

6. qanunla nəzərdə tutulmuş tibbi müayinədən keçməyən şəxslər;

7. ikisindən biri və ya hər ikisi ruhi xəstəlik və ya əqli gerilik nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslər.

Həmçinin yeni qanunla edilən əlavə Ailə Məcəlləsinə yeni əlavə edilmiş 12.0.3-2-ci maddəyə əsasən ikisindən biri və ya hər ikisi Azərbaycan Respublikası ərazisində qanunsuz olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında nikahın bağlanmasına yol verilmir.

**Qeyd olunan qanun 2025-ci il iyulun 1-dən qüvvəyə minir.**

# *ÜST: Qəzzada poliomielit virusunun yayılması riski yüksəkdir*

**Qəzza zolağında və ankdan kənarda sanitar və tibbi vəziyyətin pis olması səbəbindən poliomielit virusunun yayılması riski yüksəkdir.**

Adalet.az xəbər verir ki, bu barədə "Times of Israel" Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) bəyanatına istinadən məlumat yayıb.

Ümumdünya Səhiyyə Təşkilatının Qəzza və İordan çayının Qərb Sahilində fövqəladə hallar qrupunun rəhbəri Ayadil Saparbekov, Qəzzadakı kanalizasiyadan ətraf mühit nümunələrində dövran edən poliovirus aşkarlandığını açıqlayıb.

"Qəzzada dövriyyədə olan poliomielit peyvəndi virusunun yayılması riski təkcə onun aşkar edilməsinə görə deyil, həm də suyun təmizlənməsi ilə bağlı dəhşətli vəziyyətə görə yüksəkdir",- deyən Saparbekov virusun yayılmasının beynəlxalq səviyyədə də baş verə biləcəyini qeyd edib.

**Onun sözlərinə görə, ÜST və UNICEF əməkdaşları poliomielit virusunun aşkarlanması ilə bağlı risklərin qiymətləndirilməsi çərçivəsində nümunələr toplamaq üçün çərşənbə günü Qəzzaya gələcəklər.**

*Rüstəm Hacıyev*

# *"Dəlinin yadına daş salırlar"*

***Magaupload fayldəyişən şirkətinin keçmiş sahibi Kim Dotkom bildirir ki, ABŞ prezidenti Co Bayden postunu təhvil verənədək Rusiyaya qarşı nüvə arsenalından istifadə edə bilər.***

***O, xatırladlr ki, prezidentlik müddəti bitənədək, yəni 2025-ci ilin yanvar ayınadək Bayden ölkənin nüvə silahının bütün kodlarını əlində saxlayacaq.***

***Hazırki prezident Co Bayden 21 iyul tarixində seçki marafonundan geri çəkildiyini bəyan edib. Ağ Evin sahibi varis kimi demokratlar partiyaspndan hazırki vitse-prezidenti Kamala Xarrisin namizədliyini irəli sürüb.***

***Avstriyanın müxalif sağkonservativ partiyasının lideri Qerber Kikl, 81 yaşlı xəstə, özünü idarə edə bilməyən Co Baydenin, öz vətəndaşlarlnın təhlükəsizliyi naminə tezliklə vəzifəsindən uzaqlaşdırılmasına çağırlb. Siyasətçinin fikirincə, danışığını itirən, sözləri qarışdıran adamın hakimiyyətdə qalması amerikanlıları təhlükə altına salır.***

***Respublikaçılar partiyasının nümayəndəsi Erik Şmitt də, ABŞ-ın hazırki prezidentinin istefaya göndərilməsini tələb edib. O qeyd edib ki, Baydenin səhhətində yaranmış problemləri ona dövlət əhəmiyyətli mühüm qərarların verilməsinə mane olur.***

***Rusiya tərəfi də, Co Baydenin prezidentlik müddətinin sonunadək postunda qala biləcəyinə inanmadlğını bildirir.***

***Baydenin özü isə, hələ ki, kreslosundan saman çöpündən yapışan kimi yapışıb qalıb. Yaxın silahdaşları onu prezidentlik marafonundan geri çəkilməsinə razı sala bilsələr də, o, müddəti başa çatanadək vəzifəsini icra edəcəyini bəyan edib.***

## *"Jurnalistlər üçün yeni layihələr nəzərdə tutulur"*



**Jurnalistlərin sosial təminatının yaxşılaşdırılması istiqamətində layihələrin gələcəkdə də həyata keçirilməsi nəzərdə tutulur.**

Adalet.az xəbər verir ki, bunu Şuşada jurnalistlərə açıqlamasında Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov deyib.

"Medianın İnkişafı Agentliyi olaraq Prezidentin media sahəsində islahatların dərinləşdirilməsi haqqında fərmanından sonra jurnalistlərin sosial təminatı sahəsində bir sıra tədbirlər həyata keçirilib. Bu əsnada imzalanan fərmanlarla onların sosial təminatı istiqamətində addımlar atılıb.

Onların sosial ipotekadan istifadə hüququ təmin olunub. Bununla yanaşı, Vergi Məcəlləsinə edilən dəyişikliklərlə media subyektləri bütün vergilərdən azad olunub. Bu istiqamətində layihələrin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulub", - deyə o, əlavə edib.

## *Kennedi: "ABŞ-da inqilab olacaq"*



**ABŞ prezidentliyinə müstəqil namizəd Robert Kennedi ölkədə inqilab ola biləcəyi barədə xəbərdarlıq edib.**

"Bu ölkəni inqilab gözəyir. Sual ondadır ki, bu inqilab ideya üzərində baş verəcək, yoxsa qara qüvvələr tərəfindən həyata keçiriləcək. Seçim sizindir"- deyə onun xalqa müraciətində bildirilir. Kiçik- Kenedi video müraciətində Birləşmiş Ştatlarda baş verə biləcək inqilab barədə müzakirə aparıb.

Onun sözlərinə görə, demokratlar və respublikaçılar arasında hakimiyyət uğrunda mübarizə artıq qarşıdurma həddinə çatıb və sinfi mübarizəyə keçib. Kennedi bildirib ki, 54 fauz amerikanlıya, öz yaşayış təminatını ödəmək üçün maliyyə vəsaiti çatmır.

Xatırladırıq ki, ABŞ-da sayca 60 -cı prezident seçkiləri noyabr ayının 5-də keçiriləcək. Avqust-sentyabr aylarında artıq hər bir partiyanın qurultaylarında bir nəfərin namizədliyi təsdiq olunmalıdır.

**Rüstəm Hacıyev**



Rüstəm Hacıyev

## Ukrayna Rusiya ilə danışıqlara hazırdır..?

**_Pekində səfərdə olan Ukraynanın xarici işlər naziri Dmitri Kuleba bildirib ki, Ukrayna ədalətli və dayanıqlı sülhün əldə olunması üçün Vladimir Putinlə danışıqlara başlamaq istəyir. Ukrayna prezidenti Volodimir Zelenski də daha əvvəl danışıqlara başlamaq niyyətini açıqlamışdı._**

**_"Ukrayna tərəfi istəyir və Rusiya ilə dialoqa hazırdır. Təbii ki, danışıqlar rasional olmalı , ədalətli və dayanıqlı sülhün əldə olunması üçün praktiki əhəmiyyət kəsb etməlidir"- deyə Ukrayna XİN-in rəhbəri Dmitri Kuleba Çinin xarici işlər naziri Mao Ninlə görüşündə bəyan edib._**

**_Əslində Rusiya prezidenti Vladimir Putində bütün çıxışlstında Ukrayna münaqişəsinin danışıqlar masasında həll olunmasını bəyan edir. Lakin tərəflərin danışıqlara başlamaq üçün irəli sürdüyü şərtlər hər iki tərəfdən qəbuledilməz sayıldığı üçün baş tutmur._**

**_Ukrayna tərəfi danışıqlara başlamaq üçün atəşin dayandırılmasını, Rusiya qoşunlarının işğal olunmuş ərazilərinfən çıxarılmasını və ərazi bütövlüyünün bərpa olunması şərtlərini irəli sürür._**

**_Rusiya tərəfi isə, Krımda daxil olmaqla işğal etdikləri və artıq Rusiya ərazilərinə daxil etdikləri Xerson, Zaparojye, Donbass və Luqansk vilayətlərinin Rusiyanın ərazisi kimi tanınmasını, Ukraynanın NATO-dan imtina etməsini və yalnız bundan sonra danışıqlar masasına otura biləcəkləri şərtlərini irəli sürür._**

**_Hər kəsə aydındır ki, bu şərtlər qarşılığında sülhə nail olmaq mümkün olmayacaq. Görünən odur ki, bu müharibə elə ABŞ-ın ssenarisi üzrə, tərəflərdən birinin kapitulyasına qədər davam edəcəkdir, yəni sonsuzluğa qədər..._**

## Çinlilər Abşeronda 130 min dollarlıq oğurluq edib, ölkədən qaçmaq istədilər



**Abşeron rayonu Saray qəsəbəsində yerləşən evlərdən birindən içərisində 130.000 ABŞ dolları və 700 qram qızıl-zinət əşyaları olan seyfin oğurlanması barədə polisə məlumat daxil olub.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən Çin Xalq Respublikasının vətəndaşları - V.Zhijian və V.Hongfu ölkədən çıxmağa cəhd edərkən polis əməkdaşları tərəfindən müəyyən olunaraq saxlanılıblar. Onların üzərindən 17.306 dollar, 9586 BƏƏ dirhəmi, müxtəlif xarici valyutalarda olan pul əskinasları və 147 qram qızıl-zinət əşyaları aşkar edilərək götürülüb.

"Oğurlanan pul və zinət əşyalarının yerinin müəyyən edilməsi istiqamətində tədbirlər görülür. Faktla bağlı Abşeron Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, şübhəli şəxslər barəsində həbs qətimkan tədbiri seçilib. Hazırda iş üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir", - məlumatda qeyd olunub.

## Bəzi çaylardan sel keçib

**İyulun 25-i saat 10:00-a olan məlumata görə, öncədən xəbər verildiyi kimi gündüz dağlıq ərazilərdən başlayaraq hava şəraiti dəyişib, əksər rayonlarda arabir yağış yağıb, şimşək çaxıb. Ayrı-ayrı yerlərdə yağıntılar leysan xarakterli intensiv olub.**

Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, Bakıda və Abşeron yarımadasında da gecə saatlarından başlayaraq arabir yağış yağıb, şimşək çaxıb. Yarımadanın bəzi yerlərində yağıntılar intensivləşib.

Düşən yağıntının miqdarı Bakıda və Abşeron yarımadasında 11 mm-dək, Balakən-Şəki bölgəsində 62 mm, Lənkəran-Astara bölgəsində 55 mm, Mərkəzi Aran bölgəsində 39 mm, Quba-Qusar bölgəsində 33 mm, Qarabağ bölgəsində 30 mm, Dağlıq-Şirvan bölgəsində 26 mm, Naxçıvan MR-də 13 mm, Gəncə-Qazax bölgəsində isə 11 mm-dək təşkil edib.

İyulun 25-də gecə və səhər saatlarında Şəki rayonu ərazisindən axan Kişçaydan, Qəbələ rayonu ərazisindən axan Göyçaydan, Dəmiraparançaydan, İsmayıllı rayonu ərazisindən axan Girdimançaydan və Quba rayonu ərazisindən axan Qudyalçaydan sel keçib.

## Zakir Həsənov azad edilmiş ərazilərə getdi



**Müdafiə Nazirliyinin rəhbər heyəti azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşüb.**

MN-dən Adalet.az-a bildirilib ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizin bütün bölgələrində, o cümlədən azad edilmiş ərazilərdə hərbi qulluqçuların maddi-texniki təminatının və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması üzrə görülən işlərdən danışıb.

Azərbaycan Ordusunda aparılan islahatların müsbət nəticələrini qeyd edən nazir bu istiqamətdə görülən işlərin bundan sonra da uğurla davam etdiriləcəyini əminliklə bildirib.

Sonda general-polkovnik Z.Həsənov hərbi qulluqçuların qayğıları ilə maraqlanıb, onların fərdi hazırlığının inkişaf etdirilməsi, eləcə də bilik və bacarıqlarının artırılmasına dair şəxsi heyətə müvafiq tövsiyələr verib.

## DİN çağırış edir: "Bank kart məlumatları verməyin, risklidir"



**Bank kart məlumatlarının naməlum şəxslərə verilməsi pul vəsaitlərin oğurlanmasına səbəb olur. Hər bir vətəndaş diqqətli olmalıdır, inandırıcı görünən hər bir hal - müraciət, təklif, vəd, qazanc vətəndaşın aldadılmasına yönələn tələlərdir.**

DİN-dən Adalet.az-a verilən məlumata görə, vətəndaşlar "WhatsApp", "Telegram", "Signal", "Messenger" üzərindən daxil olan zəngləri, mesajları cavablamadan, oxumadan, saxta linklərə daxil olmadan bloklamalıdır.

"Bankdandır, kartınıza müdaxilə var, yoxlayırıq", "satdığınız əşyanı almaq istəyirəm, beh ödəyim, kartınızı deyin" adı adı altında bütün zənglər, mesajlar bank kart məlumatlarının əldə olunmasına və vəsaitin oğurlanmasına səbəb olacaqdır.

İyulun 19-da ayrı-ayrı şəxslərin - 16780, 9745, 7550, 3070, 3026, 2807, 1951, 1380, 1320, 1102, 940, 850, 750, 736, 640, 600, 528, 500, 363, 293, 240, 198, 136 manat pulları oğurlanıb.

Bütün oğurluq halları yalnız bir üsulla - bank kart məlumatları aldadılıb alınmaqla törədilir.

Danışıqlar kiber üsulla hazırlanan, qeydiyyatı olmayan, xaricdən saxta nömrələr vasitəsilə aparılır. Vətəndaşlara çağırış edirik ki,diqqətli olun, şəxsi məlumatlarınızı naməlum şəxslərlə bölüşməyin, təhlükə var, inandırıcı görünüən hər bir təklif yalandır.

## Mərkəzi Çağırış Komissiyasının tərkibinə daha 4 qurum əlavə olunub

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Aparatında müddətli həqiqi hərbi xidmətə iyul çağırışının yekunları ilə bağlı Mərkəzi Çağırış Komissiyasının iclası keçirilib.**

Adalet.az xəbər verir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimovun sədrliyi ilə keçirilən iclasda Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamının icra vəziyyəti müzakirə olunub.

Dövlət Xidməti tərəfindən 2024-cü ilin iyul çağırışının uğurla icra edilməsi və Silahlı Qüvvələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə keyfiyyətlə komplektləşdirilməsi məqsədilə zəruri işlərin görüldüyü diqqətə çatdırılıb.

Qeyd edək ki, Mərkəzi Çağırış Komissiyasının tərkibinə daha 4 yeni dövlət qurumu (Dövlət Təhlükəsizliyi Xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Xarici İşlər Nazirliyi) əlavə olunmaqla, üzvlərin sayı 14-ə çatıb.

İclasın sonunda gündəlikdə olan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Səxavət Məmməd



## Cənubi Qafqaza nəzarət etməyə potensial var, kadr yoxdu

***Cənubi Qafqaz ABŞ və Rusiyanın əsas toqquşma mərkəzlərindən birinə çevrilməkdədir. Bu toqquşma əsasən Ermənistan və Gürcüstan üzərindən həyata keçirilir.***

***Ermənistan 44 günlük müharibədən sonra Rusiyaya üz çevirməyə başladı. Erməni tərəfi məğlubiyyətlərinin səbəbkarı kimi Rusiyanı gördü. Hətta Ermənistan bir çoxları Rusiyanı ittiham etdi ki, niyə onlara ruslar kömək etmədi. Rusiya əleyhinə aksiyalar, 102-ci bazanın qarşısında etirazlar, hətta Qarabağdakı sülhməramlıların qərargahının qarşısına da toplaşaraq Rusiyanı ittiham edirdilər. Anti-terror əməliyyatından sonra isə Ermənistan açıq şəkildə Rusiyadan qopduğunu nümayiş etdirdi. Əvvəlcə yön dəyişmək siyasətdə baş verdi, ardınca isə hərbiyə yönəldi. İqtisadi qopmanı isə hələ də necə həyata keçiriləcəkləri düşünülür. Çünki Ermənistanın iqtisadı baxımdan Rusiyadan qopması o qədər də asan məsələ kimi görsənmir.***

***Ermənistan müharibədən sonra ordudakı boşluqları doldurmağa start verdi. Bu həm itirilmiş texnikaların yerinin doldurulması, həm də müharibə zamanı üzə çıxan zəif yerlərin möhkəmləndirilməsi kimi səciyyələndirilməlidir. ABŞ ordusu ilə Ermənistan ordusunun birgə təlimlərinin sonu mütləq şəkildə Ermənistan ordusunda bir nümayəndə təyini ilə nəticələnməli idi. Bu əvvəlcədən də iddia olunurdu. Bunun bir neçə səbəbi ola bilər. İlk səbəb odur ki, Ermənistan rəsmiləri də dəfələrlə orduda "5-ci kolon"un olduğunu dilə gətirirdi. Nəzərdə tutduqları isə təbii ki, Rusiya idi. Beləcə ABŞ ordusunun nümayəndəsinin Ermənistan Müdafiə Nazirliyində oturması o anlama gələcək ki, orduda təmizlənmə aparılsın və Rusiya ilə bağları olan bütün hərbçilər sıradan çıxarılsın. Digər səbəb isə Azərbaycana güc nümayişi də ola bilər. Belə ki, Azərbaycan müdafiə nazirinin türkiyəli müşavitinə qarşı Ermənistan ordusunda amerikalı nümayəndə…***

***Antiterror əməliyyatından sonra Qarabağdakı bütün ermənilər Azərbaycanı tərk etdi. Beləlklə Azərbaycan böyük problemi həll etmiş sayıldı, ancaq həm də Azərbaycan Ermənistana təsir, təzyiq rıçaklarını itirmiş oldu. Azərbaycan Ermənistana necə təzyiq edə bilər? Bunun üçün əlində hansı rıçaqları var? Hesab edirəm ki, birinci bunu tapmaq lazımdır. Bəziləri deyə bilər ki, 10 noyabr bəyanatını əsas gətirilməlidir, Ermənistan öhdəliyini yerinə yetirməlidir! Sual yaranır, 10 noyabr Bəyanatının bütün bəndlərini Azərbaycan öz gücü ilə yerinə yetirmədi? Rusiya və Ermənistanın öhdəliklərini belə Azərbaycan güc yolu ilə həll etmədi? Yenə güc?***

***Azərbaycan tərəfinin sülh müqaviləsi ilə bağlı konkret şərti var - Ermənistan konstitusiyası dəyişməlidir! Bir aya sülh bağlana bilər bəyanatı verən Paşinyan konstitusiyanın dəyişməsini 2026-cı ilə atdı. Dolayısı ilə gözlənildiyi kimi, sülh müqaviləsinin yaxın zamanda bağlanma ehtimalı gündəmdən çıxmış oldu. Rəsmi Bakı İngiltərədəki görüşdən Paşinyanın imtina etdiyini bildirdi və bunun sülh danışıqlarından çəkilmək kimi bəyan etdi. Ermənistan tərəfi də cavab olaraq imtinanın Azərbaycan tərəfindən edildiyini dilə gətirdi. Açıq şəkildə görünür ki, regiondakı ABŞ Rusiya toqquşması həm də Azərbaycan və Ermənistan arasında siyasi gərginliyi artırıb. Artıq Ermənistan mediası Azərbaycanın müharibəyə hazırlaşdığını iddia edir. Bilirik ki, müharibələr siyasi gərginliklər pik həddi keçəndən sonra baş verir. İndiki məqamda siyasi gərginlik mövcuddur. Ancaq bunun pik həddinə çatıb-çatmayacağını isə indidən demək asan deyil. Tərəflərin silahlanması, tərəflərin orduda apardığı islahatlar çox şey deyir, ancaq siyasilər arasında anlaşma mümkünsüz də deyil.***

***Rusiya Ermənistanı açıq şəkildə təhdid edir. Ermənistanın dövlət kimi gələcəyinin sual altında olmasını belə dilə gətirirlər. Hesab edirəm ki, bu təhdidlər blef deyil. Rusiya xarici işlər nazirliyinin sözcüsü Mariya Zaxarova həm Ermənistanı təhdid etdi, həm də Ermənistanın ABŞ tərəfindən istifadə edilib atılacağını bildirdi. Əslində, bunu Zaxarovadan dəqiq heç kim deyə bilməzdi.***

***Çünki Ermənistanı istifadə edib, atmaqları ilə bağlı böyük təcrübələri var. Gürcüstanda oktyabr ayındakı seçkilərlə bağlı proqnozlar onu deməyə əsas verir ki, Rusiya və ABŞ həm Ermənistanda, həm də Gürcüstanda ciddi şəkildə qarşıdurmaya gedəcəklər.***

***Rusiya tərəfi açıq şəkildə bildiririr ki, Ermənistanın atdığı addımlar Cənubi Qafqazı qarışdıracaq. Gürcüstanda və Ermənistanda baş verəcəklərin Azərbaycandan təsir ötüşəcəyini düşünmək sadəlövhlük olardı. Azərbaycan tərəfi prosesləri diqqətlə izləməli və hər varianta hazırlıqlı olmalıdır. Ermənistan və ya Gürcüstanda təbii ki, Rusiya ilə ABŞ birbaşa hərbi toqquşmaya getməyəcək. Ancaq Ermənistanla Azərbaycanı yenidən toqquşdura bilərlərmi? Bəli! Buna hətta bir neçə dəfə cəhdlər də olub. Bu variantın da gündəmə gəlmə ehtimalı mümkün görünür. Ancaq buna gələnə qədər keçilməli bir neçə mərhələ var. Regionda növbəti hərbi toqquşma ağır nəticələrə səbəb ola bilər. Bunu həm Azərbaycan, həm də Ermənistan gözəl bilir.***

***Ümid edək ki, proseslər o həddə gəlib çatmadan məsələ öz həllini tapmış olsun.***



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Dünyamızın ədaləti

## Və yaxud da “Ədalət”li dünyada yaşadıqlarım

Gəlin etiraf edək ki, biz tez-tez dünyanı qınayırıq. Onu etibarsızlıqda, gəlimli-gedimli olmaqda suçlayırıq, hətta bəzən emosiyalara uyub elə ifadələr işlədirik ki, sonra fərqinə varanda adamın dünyaya da yazığı gəlir, özünə də. Belə məqamda mən daha çox bir atalar sözünü xatırlayıram.

Atalar deyib ki, ”Ulağa gücü çatmayan palanı döyür”. İndi özümüz özümüzlə bacara bilməyəndə üz tuturuq dünyaya. Başlayırıq onu sağdan, soldan vurmağa. Özdə təkcə adi bəndələr yox, bunu dünyaya meydan oxuyan fatehlər də, söz sərkərdələri də, sinəsi sazlı aşıqlar da, əli qələmli ən adi yazar da edir. Hətta bu yerdə yadıma böyük Səməd Vurğunun misraları düşür.

Xalq şairi yazırdı ki:

*Göylərə baxıram qapısı bağlı,*
*Yerlərə baxıram bağçalı-bağlı.*
*Həyat ixtiyari, sirli, soraqlı -*
*Biz gəldi-gedərik, sən yaşa dünya!*

Və yaxud böyük Məmməd Araz yazırdı:

*Dünya sənin, dünya mənim,*
*Dünya heç kimin.*

Bu sıranı kifayət qədər uzatmaq olar, davam etdirmək olar və bu davam edən sırada bir məntiqi məqam da var. Onu da yenə böyük Məmməd Araz deyib:

*Məni qınayanın beləsi belə,*
*Mən belə dünyanın nəyindən küsüm.*

Hə, indi bacarırsan küs və yaxud indi bacarırsan yaşa. Hər iki halda seçim ixtiyarı səndə. Mənsə başladığım bu fikir yumağını tərsinə çözürəm. İstəyirəm ki, əvvələ qayıdım. O günə ki, onda dünyaya ”Ədalət” gəlirdi. Onda iyul ayının 26-sı idi. İl isə təqvimdə 1990-ı göstərirdi. İndi hesablayın, görün ədalət neçə ildi yol gəlib və bu neçə ildə nə qədər yüksəlib, nə qədər yayılıb, nə qədər qol-qanad atıb. Cərgəsində kimlər olub, kimlər gedib, kimlər köçüb, kimlər hələ də cərgədədi. Bu adi riyazi hesablamadı. Amma bu riyaziyyatda ömür ifadə olunub. Ona görə də xeyir-duası haqdan, adı Allahdan, sözü Tanrıdan olan ”Ədalət” bütün çətinliklərin, bütün süni və həyati problemləri aşıb 2021-ci ilin bu gününə gəlib çıxıbdı. Və qəzetin öz dili ilə desək, hələ də ”Ədalət” çıxır, hələ də ”Ədalət”in təsisçisi, millət vəkili, yazıçı-publisist Aqil Abbasdır və hələ də mənim bu qəzetdə fikirlərimi bölüşmək, duyğularımı sərgiləmək, oxucularımla baş-başa qalmaq imkanım saxlanır...

Dünyanın bax belə qəribəliklərinin içərisində 34 il yol gəlmək və bu yolun da sevincini, kədərini, bütünlüyünü özünə köçürtmək, köçürtdüyünü də tarixləşdirib gələcək illərə daşımaq xoş olduğu qədər də şərəflidi. Bu mənada ”Ədalət” şərəfli bir yol keçib və yoluna da davam edir. Elə bu davam edən yolda hər bir əməkdaş kimi mənim də iynə ucu boyda da olsa, izim, sözüm görünür, yaşayır. Görünən və yaşanan sözün ünvanı olan Ədalətdə görünmək və yaşamaq da bir xoşbəxtlikdi. Necə deyərlər, şükür xoşbəxtliyimə. Çünki Ədalət mənə dərd ortağı olub. Onunla bütün duyğularımı bölüşmüşəm. Hətta üzümü ona tutub demişəm ki:

*Qayğılı çəkdiyim, dərdli çəkdiyim,*
*Bu boyda Bakıda dərddi çəkdiyim!..*
*Mənim azadlıqda şərti çəkdiyim -*
*Cəzanın adını çəkənlər bilər.*

Hətta onda öncə bu qəzetin səhifələrindən hər kəsə üz tutaraq pıçıldamışam:

*Yandı evim-eşiyim,*
*Yandı divarım, daşım...*
*İsit, qoyma üşüyüm -*
*İsit məni göz yaşım...*

Ədalət mənə həm də olmuşların və olacaqların şahidi kimi sirr ünvanı olub. Bir kadına yazdıqlarımı öncə özü oxuyub, sonra tirajlayıb. Elə bu gün də yazdıqlarını sətir-sətir, cümlə-cümlə büküb özünə aparır oxucu qapısına, oxucu ünvanına. Çatdırır onlara duyğuların ifadəsini. Deməli, Ədalət həm də məni tanıdır, təqdim edir.

Bax, bütün bu dediklərimin fonunda 34 yaşlı Ədalətin mənim üçün nə, kim olduğunu siz özünüz təxmin edin, mən bildiyimi bilirəm!..

Yazının bu nöqtəsinə qədər söylədiklərimi, sizinlə bölüşdüklərimi oxuyub zənnimcə, ədalət barəsində iki yol ayrıcında dayandınız. Birinci düşündünüz ki, axı bu dünyada ədalət yoxdur?! İkinci də 34 ildir oxuduğunuz Ədalətin simasında sizi razı salan və salmayan, sizin səsinizə səs verən və verməyən ədaləti düşündünüz. Son olaraq isə kimsə susdu, kimsə başını buladı, kimsə də şükür bu günə dedi. Bax, elə yol ayrıcında sizin çıxara bilmədiyiniz son qərar ”Ədalət”in də axtardığıdı, ”Ədalət”in də sorağında olduğudu. Deməli, sizli, bizli ”Ədalət” olaraq ədalət axtarırıq. İnşallah, taparıq bir gün!

***

Tez-tez eşitdiyim bir söz var. Bu sözü də dostlar həmişə mənə ünvanlayırlar. Xəyalpərvərliyimi, sabahkı günlərə daha çox güvəndiyimi bağışlamırlar mənə. Bəzən birbaşa, bəzən sözarası deyirlər mənə ki, bir saat sonra nə baş verəcəyini heç kim bilə bilməz. Ona görə zamanın özünün yaxasından dərd tutmaq, zamanın özü ilə haqq-hesab çəkmək, qərar qəbul edib addım atmaq lazımdır. Sabahla bağlı isə sabah düşünüb, sabah danışarıq. Təbii ki, mən bununla razılaşmıram. Bu, hardasa bir ümidsizlikdi. Ancaq ümidsizliyin özü ilə özünə qapanmanın arasında da fərq var. Bu mənada mən tənhalığın, təkliyin, özünəqapanmanın xəstəsiyəm. Bunu mənə günah da saya bilərsiz, qəbahət də, xəstəlik də. Bütün hallarda bildiyim, inandığım odur ki, dörd divarın içərisində Allahın şahidliyi və sənin iştirakınla edilən söhbətlər bir ürəyin səsi, bir ürəyin hıçqırtısı, bir ürəyin fəryadıdı. Əgər bu dörd divarın daşlarını iynə ucu ilə ovub töksək, ondan kitab-kitab söz, nəğmə, fəryad, haray, dua əmələ gələr. Bu cildləri daşımaq üçün isə bir dəvə karvanını kirayə götürmək lazım olar. Bax, bu yozumun içərisində mənim yuxumun da, xəyalımın da, yaşadığım reallığın da hər bir anı bir gül ləçəyi və həmin ləçəyin üstündə də bir damla şeh kimidi. Və bu məqamda öz səsimə oyanıram. O səs deyir ki:

*Qarşında kiprikləri*
*Gül ləçəyi tək şehli...*
*Həmişə küskün, incik,*
*Dili də ki, gileyli -*
*dayanmışam...*

*Gözlərimi son güclə*
*Sıxmışam səhərədək!..*
*Səni yuxuda görmək*
*Anında mən, ay mələk -*
*oyanmışam.*

*Ruhum sızıltılardan*
*Bələnibdir ahlara...*
*Bilirəm ki, qarşında*
*Mən bütün günahlara -*
*batmışam.*

*İndi susmaq, danışmaq...*
*Fərq eləmir heç biri.*
*Əgər bağışlanmırsa,*
*Yozulmursa , heç sirri -*
*ürəyin.*

Bu misralar yaşamın özünü tam ifadə etməsə də, amma bir az təsəllidi. Daha doğrusu, ağrıyan ürəyin yaralarına bağlanan sarğıdı. Və mən də həmin sarğının kimin əli ilə bağlanmasını heç kimə açmıram, demirəm. Düşünürəm ki, o əlin sahibi o yaranı bağlayacaq Kəs özü işarəmi görür, duyur və bilir. Təbii ki, bu qədər şərhdən sonra ikinci şərhə də heç yer qalmır. Amma...

Amma bütün hallarda göy üzündən, tanrının özündən gələn sevgini göstərmək, reklam etmək bir az gülüş doğurur, istehzaya səbəb olur. Axı ürək kimə aiddirsə, kimin üçün döyünürsə, onu deməyə gərək ki, dil dönməsin. Əgər döndüsə, deməli ürək bütünlüklə o sevgiyə aid deyil. Hələ o ürəkdə nəsə çatmır. Bax, elə bu səbəbdən də mən Tanrıdan gələn pıçıltıları misralamağa, şeirə çevirməyə özümü borclu sayıram. Düşünürəm və əminəm ki, Allah məni bir bəndə olaraq bu missiya ilə şərəfləndirib, bu vəzifəni icra etmək üçün Yer üzünə göndərib. Göndərib ki, sevgidən yazım, sevgini yaşayım, sevgini özümdən sənə, səndən özümə daşıyım. Hətta bəzən küskün halda olsa belə, deyim ki:

*Kipriklərin çətirin,*
*Üstümdən yığma, gülüm.*
*Könlümün çəkdiyinə -*
*Könlünü sıxma, gülüm!*

*Günümdən gün kəsirəm,*
*Girovunam - əsirəm...*
*Görməyə tələsirəm -*
*Özünü yıxma, gülüm...*

*Həsrət sanki təmənə,*
*Dən olsa da tən, mənə!*
*”Can” demədən sən, mənə -*
*Yuxumdan çıxma, gülüm!*

Bax, elə bu ovqatın içində də yenə üzümü dünyaya tuturam. Axı, baş verənlər bu dünyanın həm gözünün önündə, həm də ovcunun içərisində gerçəkləşir. Ona görə də ”ovcunun içi”ni xüsusi vurğulayıram ki, bu dünya bizi öncə ovcalarını açaraq qarşılayır, sonra da ovuclarını yumaraq öz dərinliyinə çəkib aparır. Bu məqamda mən bir az şairlik edirəm. Necə deyərlər, havalanmış kimi göyə də, yerə də səslənirəm. Səsləndiyim, daha doğrusu, səsdən sözə çevirdiyim isə dörd misradır.

*Məni göydən ayırıb,*
*Qaytarın yerin üstə.*
*Sevgi istəyən olsa -*
*Məni də verin üstə!..*

***

Bir damın altında, bir köynəkdə yaşamaq, bir adı daşımaq və o damın da, o köynəyin də, o adın da hər halını özününküləşdirmək, ona sahib çıxmaq, onunla nəfəs-nəfəsə olmaq böyük hünər tələb edir. Bir az da dəqiq ifadə etsək, dözüm zərurəti yaradır.

Bu mənada ”Ədalət”in damı altında olduğum illər kəsiyində mən zamanı bir az da yaxından gördüm, yaxından duydum.

Az qala bəzən zamanın bütün qatlarına baş vurdum. Və nəhayət, gəldiyim qərar, çıxartdığım nəticə bu oldu ki, Yer üzü bəzən adama göy üzü qədər uzaq olur. Bu uzaqlığı yaradan da anlamaq, anlatmaq məsələsidi. Neyləyək ki, bəzən biz özümüz anlamadığımız kimi, bizi də anlamırlar. Bu da son nəticədə adamın təkcə çevrəsi ilə yox, həm də özü ilə üzüzə qoyur.

Hətta bəzən elə bir durum yaranır ki, hər şeyi alt-üst etmək, hər şeyin nöqtəsini qoyub... beləcə, bir ömrün az qala yarıdan çoxu həmin o anlamanın və yaxud da anlamamağın güdazına gedir...elə bu məqamda da son şeirlərimdən biri yadıma düşür. O şeiri başqa ovqatla, başqa istəklə yazmışam Sənə! Əslində mən yazmamışam, mən haqdan gələn pıçıltını misralamışam, vərəqə köçürmüşəm. İndi də uca səslə oxuyuram:

*Elə düşünmə ki, məndən uzaqsan,*
*And olsun Allaha, sən yanımdasan!*
*Havasan, işıqsan, susan, torpaqsan -*
*Allahın özütək hər anımdasan!*

*Elə düşünmə ki, səndən uzağam -*
*Kölgənəm, fikrinəm, dildə sözünəm.*
*Küləyəm, yağışam, odam, sazağam -*
*Anında, ayında, ildə özünəm!*

*Elə düşünmə ki, biz aralıyıq -*
*Sən sərhəd çəkmisən, ya mən ölmüşəm...*
*İkimiz bir dərddən biz yaralıyıq -*
*Sənə, o dünyadan geri dönmüşəm!*

Bəli, buy azı mənim dünya ilə, ”Ədalət” ilə, duyğular ilə baş-başa qaldığım anın müəyyən məqamlarıdı. Necə deyərlər, içimdən gəlib keçənləri dünyanı, ”Ədalət”i əlimdə bayraq kimi tutub onun altında oxuculara səsləndim. Yəqin ki, səsim, sözüm kimlərəsə çatdı... çatmadısa, demək dinləmək istəmədikləri üçün çatmadı. Onlardan incik deyiləm. Çünki səs də, söz də hərəyə bir cür təsir edir. Bu özü də həyatın, dünyanın, elə ”Ədalət”in də özündə ifadə etdiyi nüanslardandır. Və...

Gəlin, dünyanı da, ədaləti də bir az sərbəst, rahat buraxaq. Yapışaq ürəyimizin, sevgimizin əlindən, ətəyindən və bir də sığınaq Allahımıza. Sığınaq ki, ədaləti unutmayaq. Sığınaq ki, sevgimizin bizi daşıdığı ünvana yetişə bilək...

# Yeni kitabxana: AĞCABƏDİDƏ



**Ağcabədili yazar, ziyalı Eldar Əhmədovun təşəbbüsü və təşkilatçılığı ilə şəhərin mərkəzində, Regional Mədəniyyət İdarəsinin Yaxınlığında, keçmiş Əhaliyə Məişət Xidməti Kombinatının binasında "Ağcabədi yazarları" kitabxanası açılmışdır. Kitab evinin direktoru Süleyman Quliyevdir.**

Kitabxanada yuxarıda adı çəkilən təşəbbüskarların gərgin əmək və səyləri nəticəsində minə yaxın kitab toplanaraq oxucuların ixtiyarına verilmişdir. Tanınmış ölkə yazarlarının kitabları ilə yanaşı, ağcabədili yazarlarının hamısının kitablarının yer aldığı kitabxanada müntəzəm olaraq müxtəlif mədəni tədbirlər, eləcə də yerli yazarlarla görüşlər və onların yeni kitablarının təqdimatı keçirilir. Kitabxana, eyni zamanda yeni kitablarla genişləndirilir və zənginləşir.

Bu yaxınlarda şəhərimizdə 70 illik yubileyi keçirilən ədəbiyyatşünas-alim Asif Rüstəmli " Ağcabədi yazarları" kitabxanasının qonağı olmuş və buraya xeyli sayda kitab hədiyyə etmişdir.

Kitabxananın fəal üzvləri Kamil Haqverdiyev, Avşar Eyvaz, İlham Həsənov bu mədəniyyət ocağının fəaliyyətinin genişləndirilməsi, daha səmərəli işləməsi üçün yerlərə gedir, oxucularla maarifləndirici söhbətlər aparır, yeni kitabların əldə olunması üçün əllərindən gələni əsirgəmirlər.

Əziz kitab həvəskarları!

Siz də "Ağcabədi yazarları" kitabxanasına kitab hədiyyə etmək istəyirsinizsə, 050 502 03 99 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz...

**Adil Misirli**

## *Şuşada zəlzələ sensorları yerləşdirilib*



**Şuşa şəhəri ətrafında yaradılan Daşaltı Dərin Quyu seysmik stansiyasında işlərin birinci mərhələsi çərçivəsində seysmik stansiyanın müşahidə məntəqəsi üçün 100 metr dərinlikdə quyu qazılıb və polad borularla mühafizə olunub.**

Adalet.az Türkiyə Daxili İşlər Nazirliyinin Fəlakət və Fövqəladə Halların İdarə olunması Zəlzələ və Risklərin azaldılması İdarəsinə (AFAD) istinadən xəbər verir ki, quyuya iki yüksək həssaslıqlı zəlzələ sensorları yerləşdirilib. Sensorlar həm yer sürətini, həm də yer səthinin titrəyişini qeydə ala bilir.

Bildirilib ki, sensorlar hətta səthi səs-küy olmadan yüksək dəqiqlikli mikrovibrasiyaları qeydə alır.

Bundan sonrakı mərhələdə isə stansiyanın ətrafında xidməti-texniki infrastrukturun yaradılması, stansiya ətrafında istinad divarlarının hörülməsi və s. texniki işlər həyata keçiriləcək.

Qeyd edək ki, Şuşa-Daşaltı Dərin Quyu Seysmik Stansiyası və stansiyanın bazasında yaradılacaq Qarabağ və Şərqi Zəngəzur üzrə Regional Kompleks Seysmoloji Monitorinq Mərkəzi Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Fəlakət və Fövqəladə Halların İdarə olunması Zəlzələ və Risklərin azaldılması İdarəsi (AFAD) ilə AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi tərəfindən birlikdə inşa edilir.

## *"Rusiyanı ABŞ-dəki prezident seçkiləri maraqlandırmır"*



**Rusiya üçün əsas məsələ ABŞ prezident seçkiləri deyil, onun narahatlıqları və nailiyyətləridir.**

Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

"Biz ABŞ-dəki seçki kampaniyasından danışırıq və dünyanın ən böyük ölkələrindən birində seçki kampaniyasından bəhs etdiyimizi başa düşsək, bu, hələ də bizim daxili işimiz deyil, bu, prioritet mövzu ola bilməz", - deyə Peskov bildirib.

Onun sözlərinə görə, bu mövzu amerikalı seçiciləri narahat etməlidir. Peskov qeyd edib ki, hazırda tarixin ən pis dövrünü yaşayan Rusiya ilə ABŞ arasında münasibətlərin gələcəyi Moskva üçün vacibdir.

# Hansı hallarda valyutanın ölkədən çıxarılmasına icazə verilməyəcək?

**Baş nazir "Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar"da dəyişiklikləri təsdiq edib.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

Məlumata görə, yeni qaydalar ilə bu ilin fevralında Nazirlər Kabinetinin təsdiq etdiyi sənədə bir sıra dəyişikliklər edilib. Qeyd edək ki, sözügedən sənəd ilə qaydaların tam siyahısı müəyyən edilmişdir.

"Yeni qaydalar ilə valyuta sərvətləri və milli valyutanın hərəkətinin dayandırılması ilə bağlı indikatorların siyahısını və qaydaların miqyasını daha da dəqiqləşdirilir. Belə ki, valyuta sərvətləri və milli valyutanın bəyan edilməsi rejiminin tələbləri çərçivəsində bəyan edilməmiş və ya düzgün bəyan edilməmiş valyuta sərvətləri və milli valyutanın aşkar edilməsi hallarında da onların hərəkəti dayandırılır, yeni aparılmasına icazə verilmir. Burada söhbət eyni zamanda inzibati araşdırmanın və ya cinayət təqibinin aparılması zamanı valyuta sərvətləri və milli valyutanın maddi sübut qismində götürülməsi halları istisna olmaqla onların bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi hallarından gedir". V.Bayramov bildirib ki, digər dəyişiklik valyuta sərvətləri və milli valyutanın hərəkətinin dayandırılması ilə bağlı indikatorların siyahısı ilə bağlıdır.



Onun sözlərinə görə, yeni qərara əsasən, valyuta sərvətləri və milli valyutanı gömrük sərhədindən keçirən şəxsin gömrük işi sahəsində cinayətlərə görə məhkumluq müddətində və ya gömrük qaydaları əleyhinə olan inzibati xətalara görə tətbiq edilmiş inzibati tənbehin icra olunduğu vaxtdan sonrakı bir il ərzində şəxsin müvafiq hüquqpozmalarla əlaqədar əvvəllər məsuliyyətə cəlb edilməsi faktının müəyyən olunması da indikatorlardan biri kimi götürüləcək.

"Bu maddə üzrə əvvəlki redaksiyada yalnız gömrük işi sahəsində hüquqpozmalarla əlaqədar əvvəllər məsuliyyətə cəlb edilməsinin müəyyən olunması nəzərdə tutulurdu".

Deputat qeyd edib ki, bütövlükdə, qərarın qəbulunda məqsəd ölkədən qanunsuz valyuta çıxarılmasına qarşı mübarizənin gücləndirilməsi, aydın və ölçülə bilən indikatorlar ilə prosesdə şəffaflıq və hesabatlığı daha da artırmaqdır.

"Bu qaydalar "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq müəyyənləşdirilmişdir".

# Palata bu il 91 mln. manatlıq maliyyə pozuntusu aşkarladı

**Bu ilin birinci yarısında Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti (KDMN) tədbirləri ilə uyğunluq predmetləri üzrə cəmi 91 milyon manat maliyyə pozuntusu aşkarlayıb.**

Bu barədə Adalet.az-a Palatadan bildirilib.

Bu il iyulun 1-nə qədər başa çatdırılmış KDMN tədbirləri ilə uyğunluq predmetləri üzrə büdcəyə zərərin 39,3 milyon manat olduğu hesablanıb. 36,6 milyon manat məbləğində hesablanmış büdcəyə zərərin müvafiq qaydada pul və ya natura şəklində bərpası, eləcə də əvəzləşdirilməsi istiqamətində Palatanın kollegiyası təkliflər verib. 2,7 milyon manat məbləğində hesablanmış büdcəyə zərər üzrə cinayət tərkibinin əlamətlərinin ehtimal olunması ilə əlaqədar 2 audit üzrə müvafiq materiallar hüquq-mühafizə orqanlarına göndərilib.

KDMN tədbirləri ilə hesablanmış büdcəyə zərərdən əlavə, digər maliyyə pozuntuları da qeydə alınıb. Auditlər zamanı rast gəlinən bu pozuntulara vəsaitlərin icrası zamanı vahid büdcə təsnifatına əməl olunmaması, satınalma tətbiq olunmadan vəsaitin icrası və s. hallar aid edilib ki, belə hallar üzrə maliyyə pozuntularının məbləği 51,7 milyon manat təşkil edib. Nəticələri rəsmiləşdirilmiş auditlər üzrə maliyyə hesabatlarında 169,3 milyon manatlıq təhriflərə yol verildiyi aşkarlanıb ki, bunların 47 milyon manatı əhəmiyyətli təhriflərdən ibarət olub.




Nəzarət tədbirlərinin nəticələri ilə bağlı zəruri addımların atılması məqsədilə 14 halda nəzarət obyektlərinə auditor hesabatı və kollegiya qərarları göndərilib. 2024-cü ilin İş Planına əsasən başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim olunub. 5 tədbir üzrə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, 2 tədbir üzrə aşkar edilmiş aidiyyəti nöqsanlarla əlaqədar səlahiyyətləri çərçivəsində tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, 8 tədbirlə əlaqədar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına və digər qurumlara məlumat göndərilib.

Hesabat dövründə də əvvəlki illərdə başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri üzrə qurumlar tərəfindən atılmış addımların icrasının izlənilməsi (follow-up) diqqətdə saxlanılıb, əvvəlki illərin nəzarət tədbirləri üzrə dövlət vəsaitinin bərpa təklifi ilə bağlı qalan vəsaitdən 2,3 milyon manatın pul və əvəzləşdirmə formasında bərpası təmin edilib. Əvvəlki ildə maliyyə hesabatlarının auditi nəticəsində aşkarlanmış 661,5 milyon manat əhəmiyyətli təhriflərin 205,2 milyon manatı üzrə müvafiq düzəlişlər edilib.

# Bayden prezident yarışından geri çəkildi

**ABŞ-ın hazırki prezidenti, Demokratlar partiyasından prezidentliyə namizəd Co Bayden, X sosial şəhifəsində rəsmi olaraq noyabrda keçiriləcək prezident seçkilərindən geri çəkildiyini bəyan edib.**

81 yaşlı prezident qeyd edib ki, ilin sonunadək dövlət başçısı vəzifəsini icra edəcək. Amerikan liderinin bu qərarının səbəbi və qarşıda nələr gözlənilir? Co Baydenin prezident yarışından çıxması məsələsi, 27 iyunda opponenti, Respublikaçılar partiyasının namizədi Donald Trampla keçirdiyi uğursuz debatdan sonra qaldırılmağa başlamışdı. Lakin, həftə uğursiz debatdan sonra da, Baydenin geri çəkiləcəyi az ehtimal olunurdu. Demokratların əksəriyyəti hələ də onu dəstəkləyir və dövlət başçısının tam sağlam olduğunu, qətiyyətlə seçkilərə hazırlaşdığını iddia edirdilər.



Həftələr keçdikcə, demokratlar partiyasının nüfuzlu üzvləri kollektiv məktublar yazaraq, sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində Baydeni geri çəkilməyə çağırmağa başladılar. Lakin problem ondaydı ki, hamı bilirdi, namizədi yarışdan çıxarmaq mümkün deyil, onu yalnız könüllü surətdə namizədlikdən əl çəkməyə inandırmaq olardı ki, deyəsən onlar buna nail olmağı bacardılar. Baydenin geri çəkilməməsinin səbəbi var idi. Çünki onu seçkilərdə əvəz edə biləcək namizədin müəyyənləşdirilməsində çətinliklər var idi. Kamala Xarrisin reytinqi çox aşağıdır və onun Trampa qalib gəlmək şansları da çox azdır. İndi demokratlar siyasi texnologiyanın bütün sahələrindən istifadə etməklə güclərini Xarrisin nüfuzunun, reytinqinin qalxmasına yönəltməyə çalışmalıdılar.Demokratlar Konqressdə yalnız Senatda çoxluq təşkil edirlər. Ona görə də onlar təkcə Ağ Ev uğrunda deyil, eyni zamanda gələcəkdə nümayəndələr palatasInda da qalib gəlmək üçün mübarizə aparmalıdırlar. Prezident seçkilərində respublikaçılar qalib gələrlərsə, demokratlar aşağı palatada saylarını artırmaq arzularından da əl çəkməli olacaqlar.

**Çox güman ki, avqustun 19-da demokratlar partiyasının qurultayında Kamala Xarrisin prezidrntliyə namizədliyi təsdiq olunacaq. Qalan bir neçə ay ərzində o, çox çalışmalıdır ki, Baydenə səs verməyə hazırlaşan seçiciləri itirməsin. Bunun üçün Xarris Baydenin seçki proqramı üzrə hərəkət etməlidir. Bacaracaqmı?**

**Rüstəm Hacıyev**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Uşaqları qorxaq böyütməyin...

**Biz həmişə uşaqlarımızı dəcəllik edəndə "Xoxan gəlir, həkim iynə vuracaq, polis tutub aparacaq" - deyib qorxutmuşuq!**

**Bu sözlərdən qorxan da olub, qorxmayan da! Və çox uşaqları belə gözüqıpıq böyütmüşük, amma düz eləməmişik! Yaxın vaxtlarda "Fatimeyi-Zəhra" məscidinin yanındakı parkda beş yaşında oğlan uşağı yaşıl otların üstündə gəzir, hətta gülləri, çiçəkləri koldan qoparırdı.**

**Dostum və hər gün bir yerdə idman elədiyim Məhəmməd qardaşım da yanımda idi.**

**Uşağı qorxutmaq üçün dedim: - Güllərin arasında ilan var, səni vurar!**

**Uşaq: - Mən ilandan qorxmuram!**

**Mən yenidən dilləndim: -Şir səni parçalayar!**

**Uşaq yenə soyuqqanlıqla: -Şirdən də qorxmuram! - deyib getmək istədi.**

**Bu dəfə onu fillə qorxutmaq istədim!**

**Onun cavabı isə çox təəccüblü oldu: - Filin belinə minib at kimi çaparam, əgər məni yıxmaq istəsə, yumruqla boynundan vurub yerə yıxaram!!!**

**Sonra isə o uşaq bizdən aralanıb, daşın üstündə oturmuş on üç, on dörd yaşında olan bir oğlanın yanına getdi! Böyük uşaq onu qorxutmaq istəyəndə balaca bir-iki yumruq və təpik atdı! Böyük uşaq ondan qorxub çəkindi.**

**Dostum Məhəmməd müəllim dedi ki, bax uşağı belə böyüdərlər; qorxmaz və ürəkli!**

**Bunun dili olduğu kimi, dilçəyi də varmış!!! Bax, belə! O uşaq bizim yaddaşımızda bir iz qoydu! Azərbaycan uşaqları şir kimi, pələng kimi böyüdülməlidir! Ki, düşmənin gözünü qırsınlar!!!**

## *Bu ilin altı ayında icbari tibbi sığorta hesabına 42 mindən çox abort edilib*

**Bu ilin ilk altı ayı ərzində icbari tibbi sığorta hesabına hamiləliyin pozulması (abort) ilə bağlı 42 039 cərrahi xidmət göstərilib.**

Bu barədə Adalet.az-a İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən məlumat verilib.

Qeyd olunub ki, hamiləliyin süni pozulması (abort) ilə bağlı müayinə və müdaxilələr icbari tibbi sığorta təminatına daxildir.

Xidmət hamilə qadınların sağlamlığının qorunmasını və zəruri hallarda lazım olan tibbi müdaxilələrin vaxtında həyata keçirilməsini təmin etmək məqsədi daşıyır.



Həmin müddətdə olan abortların 16 936-sı hamiləliyin 9-cu həftəsinə qədər olan dövrdə, 16 463-ü hamiləliyin 9-cu həftəsindən sonra, 8640-ı isə uşaqlıqdankənar hamiləliyi pozmaq məqsədi ilə aparılıb. Hamiləliyin pozulması icbari tibbi sığorta hesabına TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrində, o cümlədən Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda həkim göstərişi əsasında icra olunur.

Statistik göstəricilərə əsasən Bakı şəhərində qeyd olunan tibbi xidmət üzrə ən yüksək müraciət sayı Sabunçu Tibb Mərkəzi, Yeni Klinika, Respublika Klinik Xəstəxanası, Kliniki Tibbi Mərkəz, Abşeron Rayon Mərkəzi Xəstəxanası, rayonlar üzrə isə Şəmkir Rayon Mərkəzi Xəstəxanası, Şirvan Şəhər Mərkəzi Xəstəxanası, Şəki Rayon Mərkəzi Xəstəxanası, Saatlı Rayon Mərkəzi Xəstəxanası və Tovuz Rayon Mərkəzi Xəstəxanalarına aiddir.

Məlumat üçün bildirək ki, ginekoloji problemlər, dölün anomaliyaları, borudan kənar hamiləlik, hamiləlik zamanı ananın sağlamlığı üçün risklər kimi tibbi göstərişlərə əsaslanan hallarda hamiləliyin pozulması zəruri hesab edilir. Bu məqsədlə xüsusi medikamentoz vasitələrdən, kiçik cərrahi müdaxilə ilə həyata keçirilən vakuum aspirasiya və uşaqlıq boşluğunun cərrahi yolla təmizlənməsi olan küretaj üsullarından istifadə olunur. Müvafiq üsul, xəstənin vəziyyəti və hamiləliyin mərhələsinə uyğun olaraq ixtisaslaşmış həkim tərəfindən təyin edilir.

**Abortdan əvvəl və sonra aparılan obstetrik doppler müayinəsi, hamiləlik testi hormonu (HCG), ginekoloji USM (transabdominal və transvaginal), qan analizləri və biokimyəvi testlər icbari tibbi sığorta təminatına daxildir.**

# *Mebel sexində 10 nəfərin öldüyü partlayışla bağlı istintaq tamamlandı*

**Bakının Binəqədi rayonunda 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən partlayışla bağlı istintaq tamamlanıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən Adalet.az-a verilən xəbərə görə, cari il yanvarın 15-də paytaxtın Binəqədi rayonunda "Bakı Ağac Emalı" Açıq Səhmdar Cəmiyyətinin ərazisində yerləşən mebel emalatxanalarında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən yanğınla müşayiət olunan partlayış baş verməsi faktı əsasında Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində başlanmış cinayət işi üzrə istintaq tamamlanıb:

"İbtidai istintaqla ASC-nin faktiki sahibi, 1962-ci il təvəllüdlü Tağı İbrahimov və ASC-də inzibati-təsərrüfat idarəçiliyini həyata keçirən, 1992-ci il təvəllüdlü Toğrul Rzayevin üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxslər kimi bu qaydaları ehtiyatsızlıqdan pozaraq 10 nəfərin ölümünə, 23 nəfərin isə xəsarət almasına, habelə ASC-nin ərazisində olan əmlaklara və təbiətə maddi ziyan vurmaqla digər ağır nəticələrə səbəb olmaları, həmçinin Tağı İbrahimovun xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınmasına əsaslı şübhələr müəyyən edilib".

Qeyd olunub ki, toplanmış sübutlar əsasında Tağı İbrahimova Cinayət Məcəlləsinin 213.3 (xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınma) və 225.3-cü (üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə, Toğrul Rzayevə isə həmin Məcəllənin 225.3-cü maddəsi ilə yekun ittiham elan edilib, onların hər ikisi barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

## *Nəzarətsiz yerə getməyin...*

**Son on- beş gündə ölkəmizin çimərliklərində, çaylarında ondan çox insan çimərkən suda boğularaq ölüb.**

Təbii ki, bu hadisə hamını, o cümlədən çimərliklərdə xidmət aparan Fövqəladə Hallar Nazirliyinin məlum qurumunu da çox narahat edib. Çünki çimərlik mövsümü başlamamışdan öncə həmin qurum əhaliyə müraciət edərək bildirmişdi ki, nəzarət edilməyən yerlərdə çimməməlidirlər. Təəssüf ki, bəzi insanlar bu xəbərdarlığı məhəl qoymayaraq nəzarət edilməyən yerlərdə çimmiş və nəticədə onları xilas edən olmayıb, boğularaq ölüblər!



Ona görə də məlum qurum bir daha əhaliyə bildirir ki, nəzarət olmayan və təhlükəli yerlərə getməsinlər. Və bir də onlar belə yerlərdə çimərkən boğulub öldə axtarışlar daha da çətinləşir! Bir sözlə, çimərliyə gedənlər diqqətli olmalıdırlar ki, belə faciələr yaşamasınlar!!!

## *Yaşıl otları, çiçəkləri tapdamayın...*

**Bakıda bir-birindən gözəl parklar, xiyabanlar var! Çünki o parkları, xiyabanları tikmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq və yaşıllıqları becərmək ondan da müşkül işdir.**



Belə gözəl parklardan biri də Yeni Günəşlidə "Fatimeyi-zəhra" məscidinin yanında olan parkdır. O parkda hər cür ağaclar, güllər, çiçəklər, bəzək kolları, yaşıl otlar var! Parkın bağbanı, Qarabağ qazisi Fikrət Hüseynov qardaşımızdır! O, hər gün səhər tezdən parka gələrək yaşıllıqları sulayır. Fikrət bu park üçün ürəyinə, qəlbini qoyub, Amma təəssüf ki, parka uşaqları ilə dincəlməyə gələn qadınlar övladlarına nəzarət etmir, uşaqlar isə yaşıl otların üstündə gəzir, ağacların yarpaqlarını qoparır, gülləri, çiçəkləri ayaqlayırlar.

Dostumuz Məhəmməd qardaşımız dəfələrlə o uşaqların analarına iradını bildirsə də qadınlar deyib ki, uşaqdır da qanmır! Uşaq qanmır, bu aydındır, bəs böyüklər də qanmır? Onları kim başa salmalıdır? Əlbəttə, analar! Analar isə usaqlarını haqlı çıxarırlar. Nəticədə isə parkdakı güllər, çiçəklər məhv olur! Və bizim də ən çox yazığımız Fikrət qardaşımıza gəlir. O, parka göz- bəbəyi kimi baxır, bəzi insanlar isə bu gözəllikləri məhv edir! Bax bunu Allah götürməz!!!

## *Kondisionerin xeyrindən çox ziyanı var*



**İsti yay günlərində kondisionersiz keçinmək mümkün deyil. İşdə kondisioner, evdə kondisioner, masında kondisioner...**

Bir sözəl, istidən canımızı xilas etmək üçün kondisionerdən əl çəkmirik. Amma mütəxəssislər deyirlər ki, gün ərzində kondisionerdən iki- üç saatdan artıq istifadə etmək insan üçün çox ziyandır! Ancaq biz az qala 24 saat kondisionerdən istifadə edirik! Sonra da deyirik ki, ciyərimiz və hər yerimiz soyuqlayıb! Həkimlər onu da bildirirlər ki, kondisionerdən çox istifadə etmək yuxarı və aşağı tənəffüs yollarında müyyən problemlər yaradır!

Buradan belə bir məntiqi nəticə çıxır ki, biz bir o qədər də səhhətiniz haqqında dərindən düsünmürük. Əgər dərindən düşünsək kondisionerin qarşında yatmaz və sonra da xəstələnmərik! Təəssüf ki, biz nə həkimlərin sözünə qulaq asır, nə də sağlamlığımız haqqında düşünürük!!!

## *Qəza xidməti gec gəlsə də...*



**İyulun 23- də Yeni Günəşli yaşayış sahəsinin "D" massivindəki 13 nömrəli binada kanalizasiya xətti partlamışdı.**

Ona görə də binanın həyətini və ətraf yerləri çirkab sular başmışdı. Hadisə ilə bağlı bina sakinləri "Azərsu" yun qəza xidmətinə məlumat vermişdilər.Səhər saat 9- da hadisə baş versə də , amma qəza xidmətinin əməkdaşları həmin yerə bir neçə saat sonra gəlib çıxdılar.

Elə buna görə də bina sakinləri çox narazılıq edirdilər. Çirkab sular isə daha da artırdı . Axır ki, qəza xidmətinin əməkdaşları gəlib çıxdılar və kanalizasiyanın partlayan yerini təmir etməyə başladılar. Nə az, nə çox dörd- beş saata yaxın əlləşib- vuruşdular. Axır ki, çətinliklə də olsa, problemi həll edə bildilər və çirkab suların həyətə axmasının qarşısını aldılar.

**Onlar gec gəlsələr də öz üzərlərinə düşən vəzifəni yerinə yetirdilər! Binanın sədri Fərman Kazımov dedi ki, qəza xidmətinin. əməkdaşları yaxşı işlədilər və baş vermiş qəzanı aradan qaldırdılar. Biz onların işindən razıyıq!!!**

## *Pomidor ucuzlaşır?*



**Yay vaxtı var ən çox istifadə edilən tərəvəz məhsullarından biri də pomidordur!**

Hamımız yaxşı bilirik ki, pomidor - yumurtadan hazırlanan yeməyin özgə bir ləzzəti var! Bunlar öz yerində! Amma bir həftə bundan əvvələ müqayisədə son günlər bu məhsulun qiyməti bir xeyli ucuzlaşıb. Əgər 10 gün bundan əvvəl pomidorun kiloqramı 3-7 manat arasında idisə, indi pomidor 1manat 50 qəpik, 3 manat arasında satılır.

**Pomidor istehsalçıları və satıcılarsa, deyirlər ki, bir həftədən sonra bu məhsul bir qədər də ucuzlaşacaq! Lap yaxşı, təki belə olsun! İnsanlar da məhz belə ucuzluq arzulayır. Bolluq olanda, istər-istəməz ucuzluq da qaçılmazdır!!!**

EMİL FAİQOĞLU



## Ərdoğan: "Yunanıstanın bütün addımlarını izləyirik"



**Yunanıstanın bütün addımlarını izləyirik. Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisində (TBMM) çıxışı zamanı deyib.**

O bildirib ki, Türkiyə lazım gələndə müdaxilələr də edir.

R.T.Ərdoğan qeyd edib ki, Türkiyə bütün ölkələrlə dostluğu möhkəmləndirməyə, dostlarının sayını artırmağa çalışır: "Uzadılan heç bir əli havada saxlamırıq".

Qeyd edək ki, Yunanıstanın müdafiə naziri Nikos Dendias daha əvvəl bildirmişdi ki, onlar bir gecə qəfil F-35 qırıcı təyyarələri ilə Ankaraya gedə bilərlər.

## Seçkilərlə bağlı "Polis əməkdaşları üçün yaddaş kitabçası" hazırlanıb



**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası Daxili İşlər Nazirliyi ilə birgə "Polis əməkdaşları üçün yaddaş kitabçası" hazırlayıb. Adalet.az xəbər verir ki, qurumlararası əməkdaşlıq çərçivəsində gerçəkləşdirilən layihə Milli Məclisə seçkilərdə polis əməkdaşlarının xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi və məlumatlılığının artırılmasına hədəflənib.**

Nəşrdə Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi dövründə, seçkiqabağı təşviqat mərhələsində, səsvermə günü, habelə rəsmi seçki sənədlərinin daşınması və mühafizə olunması proseslərində polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələri, xidməti vəzifələrinə uyğun həyata keçirəcəyi tədbirlər ətraflı izah olunub.

Azərbaycan Konstitusiyası, Seçki Məcəlləsi, "Polis haqqında" Azərbaycan Qanunu və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi normativ xarakterli sənədlər əsasında tərtib olunan kitabça polis əməkdaşlarının istifadəsi üçün nəzərdə tutulub.

## "Türkiyə dünyada sülhün və sabitliyin təmin olunmasına çalışır"

**Türkiyə dünyada sülhün və sabitliyin təmin olunmasına çalışır.**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidentinin Kommunikasiya İdarəsinin rəisi Fəxrəddin Altun Türkiyə kommunikasiya simpoziumunda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Türkiyə bu gün beynəlxalq aləmdə öz sözünü deyir, haqsızlığa qarşı susmur: "Türkiyə dünyada sülhün və sabitliyin təmin olunmasına çalışır. Bu mənada biz ciddi öhdəlik daşıyırıq".

F.Altun bildirib ki, bu işdə kommunikasiya vacib elementlərdəndir.

## İvanaşvilini öldürmək istəyirlər..?

**Gürcüstanın xüsusi xidmət orqanları, "Gürcü arzusu-demokratik Gercüstan" partiyasının yaradıcısı və sədri Bidzina İvanaşviliyə qarşı sui-qəsd hazırlanması ilə bağlı araşdırma aparır.**

"Dövlət təhlükəsizlik xidməti, hazırda Ukraynada yaşayan keçmiş dövlət məmurları və güc strukturlarının nümayəndələri "Gürcü arzusu" partiyasının fəxri sədri Bidzina İvanaşvilini öldürməyə hazırlaşmaları ilə bağlı istintaq aparır"-deyə Facebookun dövlət səhifəsindəki məlumatda bildirilir.

Gürcüstanın DTX-sı, iyul ayının 21-də vətənə qayıdan, Ukrayna müharibəsində iştirak edən vətəndaşları ilə söhbətlər aparmağa başlayıb. İki gürcü hərbiçi- Nadim Xmaladze və Vaji Tsetatze, "dövlət çevrilişinə cəhdlə" bağlı xüsusi xidmət orqanlarına dəvət olunsalar da, onlar çağrış yerinə gəlməyiblər.

Rüstəm Hacıyev

Mehriban Vəzir

# Nə gəldi yazmayın



**İyunun 13-də "Kulıs" dərgisinə bir hekayə göndərmişəm, ay ötüb... hələ nəşrini gözləyirəm. Görəcək günlərim varmış. İlk hekayəm "Ədəbiyyat və İncəsənət" qəzetində nəşr ediləndə, o sovet nəşr babasabasında belə get-gələ düşməmişdim. Allah Sabir Əhmədliyə rəhmət etsin, qədirbilən insan idi.**

**İki gün öncə yenidən zəng vurdum, Ulucay Akif "sabah" dedi. O sabah hələ olmayıb. Əcəba, sansormu var? Açıq desələr, adam işini bilər.**

**Nə isə... işin yaxşı tərəfi də var... hər gün "Kulıs"i açıram, özümü gözləyirəm, əvəzində pis olmur... tanış imzalar, gözəl üzlər görürəm. Bu görüşlər insanı yazmağa səsləyir. Məsələn: Vüqar Vanın "Tıq-tıq xanım özünə varlı ər axtarır" yazısı diqqətə layiqdir. Hiss olunur ki, müəllif nağılın hədəfini dövrün kişi komplekslərinə görə şərh edə bilir. Ünlü əsərin gerçək hədəfi caydırılıb, lakin başqa gerçəklər diqqətə çəkilib. Yumoru da öz yerində. Əlbəttə, əminəm, Vüqar o millibədii incinin gerçək kodunu bilir. Sadəcə, qarşı cinsə sözünü demək üçün bu nağılı fürsət aləti olaraq seçib. Olsun! Müəllif haqq sahibidi.**

**Bu yazıda demək istədiyim söz başqadır: Natəvan Dəmirçioğlunun Molla Pənah Vaqif haqqında məqaləsindəki bircə kəlmədən doğan məyusluğumu ifadə edəcəm.**

**Deyəcəm, hansı kəlmə...**

**Hələlik isə haşiyələrə keçək...**

**Bir moğol araşdırmaçının İkiçayarası- İran-Əfqan coğrafiyasının tarixi haqda dəyərli bir məqaləsi vardı ana dilimizdə. Müəllifin adını və saytın adını dəqiq yazmaq vaxt istəyir, o üzdən məchul yazıram. Maraqlanan olsa baxıb deyərəm. Moğol müəllif bir məqamda deyir ki, 70-ci illərdən bəri İran tarixçiləri beynəlxalq tarix toplantılarında iştirak etmirlər: həm özləri, həm dünya tarix elmi onların iştirakından imtina edib. Çünkü İranda tarix - elm deyil, təbliğat alətidir. İran dövlətinə lazım olan farsmərkəzli propaqanda elm adı ilə dərsliklərə salınır, mediada yayılır.**

**Yəni məsələ aydındı! Və tanışdır, biz, bunu bilirik, Cümhuriyyət tariximizi, ümumiyyətlə, dövlətçilik tariximizi danan və ya qara yaxan sovet tarixi də irantarixkimilərdən idi.**

**Bizim bəzi araşdırmaçılar da tarixə iransayağı, yəni regional (vilayət, məhəllə) təbliğat aləti kimi yanaşırlar. Əlbəttə, biz bu köynəkdən çıxmalıyıq. Azərbaycan tarixinə, xüsusilə, özünə müstəqil araşdırmaçı deyənlərə iransayağılıq yaraşmaz.**

**Tarix və tarixi şəxsiyyətlər olduğu kimi maraqlıdır.**

**Molla Pənah Vaqif haqda gerçək bir araşdırma yoxdur, fikrindəyəm. Çünkü Vaqif indi göründüyündən daha dərin, daha zəki, daha hiyləgər, daha diplomat, daha acımasız, daha əvəzsiz bir vəzir idi. Batil elmlərin ustadı idi, əlindən hər cür qara işlər gəlirmiş.**

**Qarabağ camaatında acı xatirələr qoymuşdur.**

**Mənbələrdə Vaqif haqqında bütün gəlmiş-getmiş klassik şairlərdən daha çox pis-yaxşı anılar var. O, sevilən şair, sevilməyən dövlət adamı idi. Saray mədrəsəsində, xan ailəsinin övladlarına dərs demişdi, adı çəkilən müəllifin cahil adlandırdığı bacarıqlı sərkərdə Məhəmməd bəyin bəyazında belə şeirləri vardı. Gənclik onu sevirdi.**

**Atalar "çox bilən quş dimdiyindən ilişər" demişlər.**

**Vaqif o quşlardan idi. Dimdiyindən ilişdi.**

**Qarabağ camaatı belə bir hekayə danışır: Vaqifin sevimli şagirdi, oğlunun əziz dostu, xanın qardaşı oğlu və etibar etdiyi 4 adamdan biri olan Məhəmməd bəy... Ağabəyim ağanı istəmək üçün ustadını - Vaqifi ata əvəzinə (atası Mehralı bəy öldürülmüşdü) əmisinə elçi göndərir. Vaqif siyasi fürsətə baxıb (xanlıq ağır dövr keçirirdi, Ağaməhəmməd şah gəlhagəldə idi) qızı Məhəmməd bəyə deyil, öz oğluna istəyir.**

**Siz belə bir işə düşsəydiniz nə edərdiniz?**

**Düşmənçiliyin təməli çoxbilmiş vəzirin bu xəyanət anında qoyulur. Əlbəttə, bütün bu kimi hekayələr şifahi tarixdir, çeşidlidir, hər birinin gerçəklik payı var və heç biri Quran ayəsi deyil. Amma bilməliyik ki müasir tarix elmində rəsmi tarixlə şifahi tarix yanaşı statusda qeydə alınır.**

**Lakin heç bir pis əməli Vaqifin şəxsiyyətinə, dahiliyinə xələl gətirmir. Əksinə bir az da maraqlı edir. Mürəkkəb edir. Orijinal edir.**

**Bəzən onu fransız dövlət xadimi Fuşeyə bənzədirəm, fransızlar Fuşeni bütün hiylələri, qədddarlığı, oyunbazlığı, fürsətçilliyi ilə sevirlər. Və ya qəbul edirlər...**

**Biz isə... Vaqifi görməyə imkan vermirik, gerçəkləri sevmirik... öz uydurduğumuz qədərinə heyran ola bilirik. Bizim cizgilərimizi aşanlara məhəlli dava açırıq.**

**Çox ayıb və.. gülünc...**

**Bu yerdə elə bu günlərdə "Kulis"də nəşr edirlən Akşin Yeniseyin "Çox da dərinə getmə" məqaləsi diqqəti çəkir. Müəllif Şuşada keçirilən Vaqif poeziya günlərindən və bir çox "işğala yenilmiş müstəqillik" gerçəklərindən bəhs edir... və... özgə və öz tövsiyəsi ilə çox da dərinə getmir. Tarixin dərinlik tələblərini də dilə gətirir. Tarix dərin olmayanda dayaz olur və elmilikdən çıxıb iransayağılaşır. Faydalı və ürkək yazı idi.**

**Gələk, məni məyus edən Natəvan Dəmirçioğlu kəlməsinə.**

**Müəllif Ağabəyim ağadan bəhs edərkən "o Fətəli şaha kəniz gedir" kimi bir ifadə işlədir.**

**Hörmətli Natəvan xanım, əzizim, Ağabəyim ağa Cavanşirə, Qarabağlı İbrahim xanın qızına, Tehrandan Şuşaya... Fətəli şah, başda mötəbər dayısı olmaqla yüksək dövlət ərkanından 30 nəfəri elçi heyəti göndərmişdi. Çuval-çuval qızıl göndərmişdi ki, o qızıl pulları xan eyvanından qara camaatın başına şabaş yağdırdı İbrahim xan... yatır etməyi özünə yaraşdırmadı Qarabağ xanı.**

**Kənizə şah müşaviri olan dayını və o mötəbər ərkanı elçi göndərmirlər.**

**Ağabəyim ağa Tehrana 200 nəfər adlı-sanlı Qarabağ bəylərindən ibarət dəstə ilə - öz vəziri, vəkili, eşikağası, qoruması, hesabdarı - yəni öz hökuməti ilə, hətta aşbazı, bağbanı, çalançı dəstəsi, nədimləri ilə gəlin köçmüşdü. Fətəli şah Ağabəyim ağanın özü ilə gətirdiyi bütün bu heyətə və onların ailə üzvlərinə öz xəzinəsindən ömrü-maaş kəsmişdi.**

**Mənbələr yazır ki, Tehran hələ bu cahi-cəlalda gəlin gəlişi görməmişdi.**

**Kənizə bu ehtişamda səxavət göstərmirlər.**

**Ağabəyim ağanın anası Qacar qızı idi, Cavad xanın bacısı idi, deməli Fətəli şahın qan qohumu idi, ikisi də Qacar törəməsi idi. Hər iki tərəfdən böyük nəsillərin Cavanşirlərin və Qacarların övladı idi Ağabəyim ağa. Gözəllik və elm sahibi idi.**

**Fətəli şah bu qarabağlı qızın qan dəyərini də, elmini də, helmini də bilirdi. O üzdən bu izdivaca hərəmində olan heç bir (yüzdən çox) xanımın ayaqları altına tökmədiyi qədər ləl-cəvahir tökmüşdü xəzinəsindən. Kənizə bu iltifatı göstərmirlər.**

**Ağabəyim ağa Tehran sarayına öz kuralları ilə girmiş, eşlik münasibətlərini özü təyin etmişdi.**

**Kənizə kural tanınmaz.**

**Fətəli şah Qum şəhərinin gəlirlərini Ağabəyim ağaya maaş kəsmişdi. Avropa və Asiya imperiya dövlətlərinin kraliçaları və birinci xanımları ilə yazışma haqqı vermişdi (əlbəttə, elminə və ağlına görə). Fətəli şah İran türk imperiyasında ilk dəfə tək kraliçə statusu vermişdi Ağabəyim ağaya.**

**Bilirsiniz, çoxarvadlılıq sistemində ayrıseçkilik yasaqdır, lakin Ağabəyim ağa bu seçkinliyi öz fərasəti ilə qazanmışdı. Bu işdə Fətəli şahın da haqq tanıması ayrı hünərdir.**

**Şəxsi həyatına, bədii yaradıcılığına keçmirəm. Bildiyinizi bilirsiniz.**

**Bir beyti ilə yaşayan şairdir:**

**Əfsus ki, yarım gecə gəldi, gecə getdi**

**Heç bilmədim ömrüm necə gəldi, necə getdi...**

**Şərəfimiz, fəxrimiz... niskilimiz... anamız olan o böyük şəxsiyyət haqqında o söz nə sözdü deyirsiniz, ay Natəvan xanım!?**

**Adını çəkmək istəmədiyim murdar qonşuların tarixində belə bir qadın şəxsiyyət olsaydı bilirsiniz nələr yazardılar? Bilirsiniz!**

**Nə isə... deyəcəyim... məyusluğum... bu qədər.**

**Gətirdiyim bütün faktlar tarixi mənbələrdəndir. Yeri gəlmişkən onu da deyim ki, hələ heç bir qadın haqda salnamələrdə bu qədər qeyd, fikir, dəlil olmayıb. Rus mənbələri, kəşfiyyat raporları isə onu "Rusiya - İran münasibətlərini pozan kraliça" adlandırıb.**

**Yəni bu rəsmi raporla dövlət, regional, uluslararası siyasətə müdaxiləsinin qədərini hesablaya bilərsiniz. Kəniz belə statusda olmaz, olsa-olsa saman altından su yeridə bilər.**

**Luvrda saxlanan, Napoleona göndərdiyi məktub isə bir ayrı hekayədir.**

**İran kraliçası Ağabəyim ağanın bütün bu çapalamaları rus işğalına düşmüş Qarabağ naminə idi. Od tutub yanırdı Vətən naminə...**

**Bilən, oxuyan, anlayan olsa... bu gün Şuşada bu xanımın ən uca abidəsi qoyular...**

**Belə... adlarını çəkdiyim bütün müəlliflərə və "Kulis"ə hörmətlərimi bildirirəm.**



Əlisəfa Azayev

# Böyük xəzinə!...

Bəlkə də, heç on iki yaşım yox idi. Beşinci, ya altıncı sinifdə oxuyurdum. Bir yeniyetmə fəhmi ilə özüm üçün nəticə hasil elədim. İmkansız bir ailənin övladıyam. Atam kolxoz sürücüsü, anam evdar qadın. Mən gələcəyimi necə qura, bir tərəfə çıxa bilərəm?! Qərarım qəti oldu: ”Ancaq kitabla dostluq hesabına!”

O vaxtlar atamın xalası qızı Şamma qonşu Ərəbxana kəndində kolxoz kitabxanasında işləyirdi. Hər dəfə ora işə gedib-gələndə, yaxşı, maraqlı kitablar gətirərdi oxumağa. Yadımda idi, bir dəfə bibim Maşura onun gətirdiyi Viktor Hüqonun qalın cildli ”Səfillər” romanını birinə göstərib, oğlu Əlimusanı öyürdü: ”Bax da, halaldı ona... Bu boyda, qalın, neçə səhifəsi olan kitabı tam oxuyub qurtarıb. Bəlkə, 1000 səhifəsi var”.

Bu sözlər, söhbət sanki onun da həyat idealına təsir elədi. Məqsədi bir oldu, kitab oxumaq, kitaba bağlanmaq! Atası Soltan savadsız bir adam olsa da, elmə, savada, kitaba hörmət edən birisi idi. Hələ kiçik yaşlarından atadan yetim qalmış, ana himayəsində böyümüşdü. Elat camaatından olub, qoyun, mal-qara saxlamışdılar. Onun bu sözləri heç vaxt yadından çıxmır: ”Xoş bir yaz günü idi. Qanqal yığmağa getmişdik. Qayıdanda, yolda atamın ölüm xəbərini eşitdim... Dərhal bütün qanqalları tozlu yola töküb, ağlar, göz yaşları içində kəndə tərəf qaçmağa başladım...”

Atam bir gün ona böyük hind ədəbiyyatının ölməz yadigarı olan ”Kəlilə və Dimnə” kitabını gətirərək dedi: ”Bunu sən də oxu, maraqlı kitab olduğunu deyirlər”. Bəlkə də, ilk dəfə heyvanların, quşların dili ilə insani münasibətlərin şahidi oldu. Həyat nə qədər mürəkkəb, ziddiyyətli, düşündürücü imiş. Bu qara cildli kitab başqa aləm idi...

Sonra da bir gün atası ona oxşar cilddə çap olunmuş ”Qabusnamə” kitabını gətirdi. Həmin kitabdan ona məlum oldu ki, müəllif Keykavus bizim gözəl Gəncə şəhərində yaşayıbyaratmışdır. Bu xəzinə idi. Oğluna müəllifin vəsiyyəti, tövsiyəsi halında yazılmış bu kitab gözəl insani münasibətlərdən bəhs edirdi.

Taleyin qisməti ilə bu kitablar orta məktəb illərində onun əsl mənada ömür yollarını işıqlandıran sehrli çıraqlardan biri oldu. Səbəbsiz deyil ki, atası o vaxt onu Qara şəhərdəki sürücülük məktəbinə aparmaq istəsə də, getmədi. Hüquqşünas olmaq istəyirdi. Bir gün də yolda maşınına Köhünlü kəndində müəllim işləyən, əslən Şamaxıdan olan bir müəllim əyləşir. Yolda söhbət düşür, deyir ki, Şamaxı Pedaqoji məktəbində adamları var, oğlunu həmin məktəbə qəbul etdirə bilər.

Atası çox sərt, ciddi adam idi. Əsl mənada stalinçi... Bir söz dedi, qurtardı. Onu sözündən döndərmək çətin olardı. Onda da belə oldu. Əlacsız qalıb Şamaxı Pedaqoji məktəbinə gedəsi oldu.

Yadında idi, üç yüz nəfərə yaxın tələbə böyük zalda əyləşmişdilər. Məktəbin direktoru, tarix elmləri namizədi Əziz Kərimov çox hörmətli bir adam idi. Tələbələrin səviyyəsin bilmək üçün sorğu-suala başladı. Sualların üçünə də bir-bir o cavab verəndə səsləndi:

- Yenə sən...
- ...
- Yaxşı cavab ver...
- ...
- Yaxşı, əyləşmə, de görüm hansı rayondan gəlmisən?
- Kürdəmirdən...
- Hansı məktəbdə oxumusan?
- Mollakənd kənd orta məktəbində... Tarix müəllimim də İbrahimxəlil Hüseynov olub...

Bəli, onda müəllim soruşmasa da, müəllimini yada salmağı, adını çəkməyi özümə borc bildim. Böyük Vətən Müharibəsi iştirakçısı, əslən Türkədi kəndindən olan İbrahimxəlil müəllim buna layiq bir adam idi. Şagirdləri ələ almağı bacarır, sinfi əsl mənada 45 dəqiqə müddətində ayıqsayıq, elmə-sənətə məhəbbət ruhunda saxlaya bilirdi. Hamı ona, keçdiyi dərsə valeh idi. O sanki adi bir müəllim yox, böyük bir sənətkar idi. Elə ustalıqla danışır, hərəkət edir, xəritə qarşısında dayanıb əlindəki iri çubuqla lazımi yerləri göstərdi ki, sivri, iri uclu bu çubuq da həmişə əlində olardı. Sanki o iti uclu bir ox idi. Hər an hara isə sancılmaq qorxusu vardı...



Kitablarla dostluq onu beləcə Şamaxı Pedaqoji məktəbinə gətirdi. Sonra da Azərbaycan Dövlət Universitetinə. İndiki Bakı Dövlət Universitetinə. Hüquq fakültəsinə... Daha sonra isə onun aspiranturasına...

Yadında idi, Şamaxı Pedaqoji məktəbin bütün tədbirlərinə aparıcılıq edərdi. O vaxtkı İttifaq Sovetinə deputat olan böyük bəstəkarımız Qara Qarayev Şamaxıya - seçiciləri ilə görüşə gəlmişdi. Rayon mərkəzindəki böyük ”Şirvan” mədəniyyət mərkəzində keçirilən həmin görüşün də aparıcısı o idi...

Bir gün pedaqogika müəllimi Əli müəllim ona xitabən dedi: ”Ə, xərdəşim, bura sənin yerin deyil axı... Bir il gec olaydı, çıxıb instituta gedə bilməzdinmi?” Əlbəttə, bu otuz nəfərlik tələbə içində müəllimin ona verdiyi böyük qiymət, dəyər idi.

Məktəbi yekunlaşdıranda ona fərqlənmə diplomu vermək istədilər. 200 manat pul ardırıldı. Qırx ilə yaxın məktəb direktoru işləmiş dayısı Məhəmməd müəllim dedi: ”Əlisəfa, sənə belə fərqlənmə lazım deyil. Həqiqətən də, o vaxtdan qəti qərarı oldu ki, həyatda nə əldə etsə, öz zəhməti hesabına əldə edəcək. Belə də oldu.

Universitetə qəbul vaxtı yazıdan 5/4 almışdı. Şifahi imtahan vaxtı komissiya sədri yaşlı müəllim soruşdu: ”Yazıdan nə yazmışdın, oğul?” ”Sərbəst mövzu yazmışdım... Səadət insanın öz əlindədir”. Bu sözləri deyəndə həmin müəllim eynəyinə əl gəzdirərək, diqqətlə ona baxa-baxa gülümsər halda dedi: ”Çox sağ ol, oğul!... Deməli, həmin mövzunu 90 nəfər abituriyent arasından yazan yeganə sən olmusan”.

Kitabla dostluq universitetdə oxuduğum illərdə də köməyimə gəldi. Partiya tarixindən imtahan verirdik. Professor Seyfəddin Qəniyev ”4” dedi. Mən etiraz etdim: ”Mən hazırlaşmışam axı, ”5” niyə almayım? Müəllim ciddiləşən kimi oldu: ”Onda bir bilet də çək, zəif cavab versən ”3” qiymət yazacağam”. Bilet çəkib, danışdı. Heç bir problem olmadı. ”5” qiymət yazdı.

”Burjua ölkələrinin dövlət və hüquq tarixi” fənnini tədris edən Böyük Vətən müharibəsi iştirakçısı Əli Əliyevlə də belə bir vəziyyət yaşandı. ”5” qiymət aldı.

Aspiranturada oxuyanda, ”Pedaqogika” fənnindən imtahan verəndə, kişi müəllim ”4” dedi. Yanında əyləşən qadın müəllimə ona tərəf əyləşib: ”Axı niyə ”5” qiymət verməyək? soruşanda, o, sözünü dəyişərək: ”Yaxşı, ”5” dedi”.

Həyatda da hər şeyə öz zəhməti bahasına nail oldu. Necə ki, bir vaxtlar hərbi xidmətdən qayıdıb, universitetə qəbul olmaq üçün getmək istəyəndə evdə yol pulu tapılmadı. Əlli manat pulu Ağasəlim kirvəgildən alıb gətirdilər. Onun hesabına atlı il universitet, dörd il aspirantura illərini yola saldı, diplom aldı, mütəxəssis oldu.

Doxsanıncı il seçkilərinin Respublika Xalq Deputatlığa namizəd oldu... Bir sözlə, on ilədək müəllim işlədi... Ulu Öndərə yazdığı təbrik məktubu köməyinə gəldi... Siyasi Büroya üzv namizədi seçilməsi, Sosialist Əməyi Qəhrəmanı adı alması münasibətilə... ”Bilik” cəmiyyəti Kürdəmir rayon təşkilatının məsul katibi işinə gətirildi. Sonra da on beş il Kürdəmir rayon XDS İcraiyyə Komitəsi təşkilat şöbəsinin müdiri vəzifəsində işlədi.

Sonra da ədliyyə işi... Dövlət notariusu oldu Siyəzəndə... Həm də illərlə Xızı, Şabran notariuslarını əvəz elədi. 1996-cı ildə hakim tutulub həbs ediləndə bir ilədək də Siyəzəndə məhkəməyə sədrlik.

Respublikanın 200 notariusu arasında ilk dəfə ədliyyənin ən böyük mükafatına - Ədliyyə Döş nişanına layiq görüldü.

Bəlkə də, bu sətirləri yazmayacaqdı. İllər boyu aspirant yoldaşı bildiyi Milli Məclisin Mədəniyyət Komitəsinin sədri deputat Fazil Mustafa ilə həmin görüş olmasaydı. Qəbulunda olanda ona yenicə çapdan çıxmış ”Notariusun qeydləri”, ”Notariat sirri” kitabların ona təqdim edəndə, fərəhli halda dedi: ”Çox gözəl... Onda bir şəkil çəkdirək...”

Bax Fazil bəyin böyüklüyü budu! Halal olsun ona! Kaş bütün vəzifə sahiblərimiz kitabı, müəllifi belə qiymətləndirə, önəm verəydilər! Böyük ingilis dramaturqu Vilyam Şekspir nahaq yerə deməmişdir ki: ”Kitab mənim üçün tacdan qiymətlidir”. Kitaba bu yanaşma ilə münasibət bəsləyənlər həmişə qazanıblar, uduzmayıblar!... Bəli, kitab böyük xəzinədir!... Onun qədrini bilək!... Gələcəyimiz inkişafımız, firavanlığımız üçün!... Yaxşı deyiblər ki, görünən dağa nə bələdçi?! Dünyanın ən inkişaf etmiş ölkələri bu dirçəliş, sıçrayışa, yalnız kitaba xoş münasibətlə nail olublar!...

# Tələbələrin köçürülməsinə başlanılıdı



**2024-2025-ci tədris ili üçün ali və orta ixtisas təhsil müəssisələrində təhsil alan tələbələrin köçürülməsi üçün sənəd qəbuluna başlanıb.**

Köçürülmə prosesində iştirak etmək istəyən tələbələr iyulun 31-i 18:00-dək portaldan (portal.edu.az) qeydiyyatdan keçərək ”şəxsi kabinet” yaratdıqdan sonra, istifadəçi adı və paroldan istifadə etməklə müvafiq bölməyə daxil olub, köçürülmək üçün elektron müraciət formasını doldurub təsdiq edə bilərlər.

Sənəd qəbulu Elm və Təhsil Nazirliyinin Kollegiyasının 21 fevral 2024- cü il tarixli KQ-02 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Ali və Orta ixtisas təhsili müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) Qaydaları”na uyğun olaraq elektron formada təhsil müəssisələri tərəfindən aparılacaq.

Ali və orta ixtisas təhsil müəssisələrinin normativ təhsil müddətində (sonuncu tədris ili tələbələri istisna olmaqla) təhsil alan və təhsil aldığı müddət ərzində təhsil proqramı ilə həmin dövr üçün müəyyən olunmuş kreditlərin ən azı ikidə bir hissəsini toplamış tələbələr köçürülmə prosesində iştirak edə bilərlər.

Köçürülmə üçün Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal, qəbul olunduğu ildə köçürülmək istədiyi təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır. Həmçinin tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilmiş eyni ixtisas qrupu daxilində olmalıdır.

Qaydalara əsasən, xarici ölkələrin akkreditə olunmayan təhsil müəssisələri tələbələrinin və digər ölkələrdə qiyabi təhsil alanların köçürülməsinə icazə verilmir. Bununla yanaşı, tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələrinin reytinq siyahısında olması və tələbənin beynəlxalq səviyyəli imtahanlarda əldə etdiyi nəticələr nəzərə alınan göstəricilər sırasındadır.

Xaricdən köçürülmək istəyən tələbələr qismən akademik tanınma haqqında şəhadətnamə təqdim etməlidirlər. Müraciətçilər qismən tanınma haqqında şəhadətnaməni əldə etmək üçün Təhsildə Keyfiyyət Təminatı Agentliyinə (tkta.edu.az; 146-8) müraciət etməlidirlər.

Bir ali təhsil müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən və tələbələr sırasına bərpa olunan şəxslər (dövlət hesabına təhsil alanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

## *Bəzi yerlərdə leysan yağıb, çaylardan sel keçib*



**İyulun 25-i saat 10:00-a olan məlumatına görə, öncədən xəbər verildiyi kimi gündüz dağlıq ərazilərdən başlayaraq hava şəraiti dəyişib, əksər rayonlarda arabir yağış yağıb, şimşək çaxıb. Ayrı-ayrı yerlərdə yağıntılar leysan xarakterli intensiv olub.**

Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, Bakıda və Abşeron yarımadasında da gecə saatlarından başlayaraq arabir yağış yağıb, şimşək çaxıb. Yarımadanın bəzi yerlərində yağıntılar intensivləşib.

Düşən yağıntının miqdarı Bakıda və Abşeron yarımadasında 11 mm-dək, Balakən-Şəki bölgəsində 62 mm, Lənkəran-Astara bölgəsində 55 mm, Mərkəzi Aran bölgəsində 39 mm, Quba-Qusar bölgəsində 33 mm, Qarabağ bölgəsində 30 mm, Dağlıq-Şirvan bölgəsində 26 mm, Naxçıvan MR-də 13 mm, Gəncə-Qazax bölgəsində isə 11 mm-dək təşkil edib.

İyulun 25-də gecə və səhər saatlarında Şəki rayonu ərazisindən axan Kişçaydan, Qəbələ rayonu ərazisindən axan Göyçaydan, Dəmiraparançaydan, İsmayıllı rayonu ərazisindən axan Girdimançaydan və Quba rayonu ərazisindən axan Qudyalçaydan sel keçib.

## Moskvada Azərbaycan Mədəniyyəti Günü keçirilib



**”Moskvada yay. Hamı küçəyə” festivalı çərçivəsində Rusiya paytaxtının ”Briqantina” parkında Azərbaycan Mədəniyyəti Günü keçirilib.**

Moskva vilayəti Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyətinin Qadınlar şöbəsinin müdiri, tədbirin təşkilatçısı Ulduz Əsgərovanın verdiyi məlumata görə, gün ərzində Rusiya paytaxtının sakinləri və qonaqları incəsənət ustalarının çıxışlarına - milli rəqslər və musiqi nömrələrinə, Azərbaycana həsr olunmuş rəsm sərgisinə baxmaq imkanı əldə ediblər, həmçinin Azərbaycan yeməkləri və şirniyyatlarının dadına baxıblar. Moskva Linqvistik Universitetinin rəqs qrupu parlaq nömrələrlə səhnəyə çıxıb, Rəna Qafarlı ”Qavalla rəqs” və ”Stəkanlarla rəqs”i ifa edib. Andrey Katkov, Aysel Məmmədova və Vasil Məmmədovun ifasında məşhur ”Mavi əbədiyyət”, ”Mənim şəhərim Bakı”, ”Dünyanın ən yaxşı şəhəri”, ”Zibeydə” mahnıları səsləndirilib.

Azərbaycan Mədəniyyəti Günü Rusiyanın müxtəlif mədəniyyətlərinin nümayəndələrini birləşdirən, onları bir araya gətirən, ölkəmizin adət-ənənələrini, mədəniyyətini nümayiş etdirən bayrama çevrildi.

## *Ermənilər yenə “erməni lavaşı” festivalı keçirdi*

**Bildiyiniz kimi, 2016-cı ildə isə lavaş, (yufka, katırma) Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və İranın ortaq mirası kimi UNESCO-nun siyahısına daxil edilib Bundan başqa, mənbələr göstərir ki, XX əsrin əvvələrinə qədər çap olunan erməni lüğətlərinin heç birində lavaş sözünə rast gəlinmir.**

Sovet türkoloqu Sevortyanın rəhbərliyi altında İrəvanda çap olunan ”Türk dillərinin etimoloji lüğəti” kitabında lavaş türk mənşəli söz kimi göstərilir. Erməni türkoloq bu sözün Şərq dünyasında türklər vasitəsi ilə yayıldığını yazıb.

Amma görünən odur ki, erməni erməniliyindən , yəni başqasının malına sahiblənmək hissindən , oğurluğundan əl çəkən deyil.

Adalet.az xəbər verir ki, Ermənistanın Şirak qubernatorunun müavini Anna Martikyan Axuryan icmasının rəhbəri Zaven Manukyanla birlikdə hökumətin dəstəyi ilə ”Ardin” Təhsil, Mədəniyyət və Turizmin İnkişafı Fondunun təşkilatçılığı ilə Arevik qəsəbəsində ”Lavaşın sehri” adlı çörək festivalı keçirib. Festivala Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi də qatılıb.

Festivala proqram zamanı yaradılan ipək yaylıqların sərgisi də olub. Daha sonra ”Lavaş: ”birlik və qüdrət rəmzi” mövzusunda açıq səma altında rəsm sərgisinin açılışı olub.

Qeyd edək ki, tarixçilərin qənaətinə görə, lavaşın 6 min ildən çox yaşı var. ”Lavaş” sözü Türküstan və Volqaboyundan Balkanlara qədər bütün Türk dilləri və ləhcələrində geniş yayılıb.

Lavaşa bəzi bölgələrdə yuxa, yayma, fətir və nazik çörək də deyilir. ”Kitabi Dədəd Qorqud” dastanında isə ”Bozlamac” adlandırılır. Qədim tarixi olan lavaş sac üzərində bişirilir.

Qazax rayonunda e.ə.II minilliyə aid daş saclar, Quba, Xaçmaz və digər Azərbaycan ərazilərində isə gil saclar tapılıb. Bu isə hələ 4 min il əvvəl Azərbaycan ərazisində sac üstündə lavaş bişirildiyini sübut edir.

Mahmud Kaşğarinin ”Divanü Lüğat-İ-Türk” kitabında, Nizaminin, Məhsətinin, Xaqaninin əsərlərində və Yusif Balasaqunlunun ”Qutadqu-Bilik” kitabında ”Nazik çörək” adlandırılır. XVII əsrdə Şamaxıda qonaq olan Almaniyalı şərqşünas və səyyah adam Oleari lavaş haqqında məlumat verib və onu ”yuxa” adlandırıb. Aleksandr Dümanın ”Qafqaz səfəri”ndə də ”yuxa” haqqında məlumata rast gəlinir. Lavaş buğda unundan hazırlanır, uzunluğu 35-90 sm-dir. Bəzən bir qədər də böyük olur. Kürədə də lavaş bişirilir və dəyirmi formada olur.

***P.S.** Bəli, qaşına-qaşına çıxırlar ocaq başına... ”Erməni lavaşı” ”TasteAtlas” kulinariya bələdçisinə görə dünyanın ən yaxşı 10 çörəyi siyahısında 9-cu yeri tutub. İlk onluğa həmçinin ənənəvi olaraq Fransa, İran, Çin, Türkiyə və s.-də hazırlanan çörək məhsulları daxildir.*

***Lavaş ona görə ”ermənilərin” sayılıb ki, 2014-cü ildə UNESKO ”erməni lavaşı”nın bişirilməsi və yeyilməsi ənənəsini bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil etmək qərarına gəlib.***

***Həyasızların kökü kəsilsin, İLAHİ!***

**Əntiqə Rəşid**

**Pərvanə Bayramqızı**

# Söz yarası



**Lələk şüurun həmdəmi oldu. İnsan ürəyini ona açdı, onunla bölüşdü sirrini.**

**Elə bilirdim, xətti gözəl olanların mənəvi dünyası da ona uyğun olur. Düşünürdüm, əsəbi adamlar mətni tələsik yazıb qurtarmağa çalışırlar, ona görə də xətləri ”ilan-qurbağa” olur. Nizam-intizamlı adamlar hərfləri bir biçimdə düzür, sözlər də tərbiyəli uşaqlar kimi anaları harada qoysa, orada sakitcə durur. Tanıdığım yaxşı adamların hamısı yaxşı yazırdı. ”Word” proqramında yazmağa başlayandan, şair demiş, ”etibarlı-etibarsız tanınmır”.**

**Bu proqram adamı tənbəl öyrədir. Dəftərdə yazanda, sözün yerini dəyişəndə istəyirsən ki, sözü ”vırezat” edib, aparıb lazım olan hissəyə yerləşdirəsən. ”Word”də qara salanda görünmür, səhv yazanda vərəq cırmalı olmuruq, mürəkkəbin bitmir və s.**

**O zamanlar yazmaq kişi işi sayılıb. Dövrümüzdə bu cür ”kişiləşmək” adi hal alıb, hətta formaları da çoxalıb: kişi kimi şalvar geyinmək, kişi saçı kimi gödək kəsdirmək, kişi kimi maşın sürmək və s.. Kişi kimi söz vermək də var, deyəsən, onu mənimsəmək çətindir. Bundan təkcə qadınlar ”əziyyət” çəkmirlər, elə kişilər özləri də söz verib əməl edə bilmirlər. Yaxşı olar ki, bu ifadə ”adam kimi söz vermək” şəklində işlənsin. Cins fərqi qoyulmadan. (Elə**

**bil kimsə ”türklər kişi sözünü adam anlamında işlədirlər” dedi).**

**”Molla Nəsrəddin” jurnalının illüstrasiyalarından birində müsəlman qadın yazan əcnəbi qadına baxıb təəccüblə yanındakına: ”Bu qadın kişi kimi yazır”, - deyir. Elə bilirsiniz, bu təfəkkür dəyişib? ”Kişi kimi” yazmağı indi də qəbul etməyənlər var. Yazmaq kişi işidir? Qadının ürəyi, ruhu, duyğusu yoxdur?**

**Yazmaq acan mədəyə qida ötürmək, dolub-daşan qabın başından boşaltmaq kimidir. İstər kişi, istər qadın mənəvi dünyasını dincəltmək üçün yazır. Mənəvi dünyamız da cəmiyyətin problemləri ilə yüklənib, çözüm yollarını axtarırıq. Tapdığımız çarəni kağız vasitəsilə insanlar arasında yayıb nəyəsə nail olmaqda anlaşılmayan nə var?**

**Yazmağı qadına qüsur bilib yolunu bağlamaq nə deməkdir? Yazmaq qadına niyə yasaq edilməlidir? Yəqin ki, bu suallar çoxuna qəribə görünəcək. Heyrətlənməyin, indiyədək bir dəfə də reallıqdan uzaq heç nə yazmamışam. Bu da onlardan biridir.**

**Kişi kimi yox, özü kimi, duyduqlarını olduğu kimi yaza bilməyən qadınlar çoxdur. Hərəsi bir səbəbdən dişini dişinə sıxıb durur. Bəlkə də, nə vaxtsa daxilindəki etiraz vulkan kimi püskürəcək. Necə ki... ya da yazmıram.**

**Milli Mətbuat Günündə mənəvi buxovları qırıb, əzabla, sayagəlməz çətinliklər içində imzasını yalnız istedadı ilə tanıda bilən qadın yazarları ayrıca təbrik edirəm.**

**Zülməti yarıb işığa çıxardığınız ruhunuz var olsun!**

**Kişi kimi yazmayın, qadın kimi yazın! Kişiləşməyin! (Maşın sürmək, şalvar geymək, saç kəsdirmək və s. nəzərdə tutmuram).**

**Sovet hakimiyyəti illərində nəşr edilən ”Kütləvi kitabxananın işi” (1954) kitabında belə bir cümlə var: ”Mətbuat - bizim partiyanın ən iti və ən qüvvətli silahıdır”. Həmin dövrdə mətbuatın imkanlarından yaxşı istifadə edilib. Sovet ideologiyasını daha geniş yaymaq üçün ucqar yerlərə də mətbuat nümunələri göndəriblər. Təəssüf ki, indi belə maraq duyulmur. Mətbuat bu gün daha çox düşmən olanların bir-birini söydürməsi üçün tribunaya çevrilib.**

**Dövrümüzün mətbuatı - bir notbuk, yaxud telefon. Vur qoltuğuna (götür əlinə), harada istəsən, nədən istəsən, yaz, adını informasiya qoy.**

**Dünyada Mətbuat Azadlığı Günü təsis edilib. Məncə, bizdə mətbuat ”azaddır”. Kim nə istəyir, yazır, harada nə görsə, çəkib paylaşır. Qapalı qalan hadisələr bizlik deyil. Bizə gərək olan gündəmdir, onu da hər cür ”cəlbedici” başlıqla dərc edirlər, oxuyub bilirik ki, filan rayonda altıayaq quzu doğulub, filankəs filankəsə filan söz dedi, ana dörd uşağını qoyub qaçdı və s..**

**”Şeir həsr etdiyi adamın ölümünü ondan gizlətdilər” - Bu ədəbiyyat saytlarından birinin mətnə seçdiyi başlıqdır.**

**Yazıda hamıya məlum olan mövzudan söhbət açılıb. Məşhur mahnıdan, iki insanın sevgisindən bəhs ediblər. IP-yə hesablanmış başlıq guya diqqətçəkəndir. İzləyici manşeti görən kimi düşünəcək: ”Kimsə kiməsə şeir yazıb, o kimsənin kimsəsi də şeir yazanı tapıb, qətlə yetirib, onun ölümünü də şeir yazılandan gizləyiblər”. Buna görə də daxil olub yazını oxuyacaqlar, oxunma sayı da sürətlə artacaq. Məlumatlı olanlar sərlövhədəncə hər şeyi bilir, olmayanlar da gözucu baxanda öyrənirlər ki, bu boyda ”zülm çəkmək” ”Neyləyim?” şeirini (mahnısını) N.Rəfibəylinin R.Rzaya yazdığını bilmək üçün imiş. (Amma bir-birindən xəbərsiz dünyadan köçmək, doğrudan da, kədərlidir).**

**Başqa bir xəbər başlığı - ”Həkimdən yayılan kütləvi virusla bağlı xəbərdarlıq”. Belə çıxır ki, virusu həkimlər yayırmış.**

**Yeri gəlmişkən, xaricə ”ixrac olunan” ”jurnalistlərin” daha səsi gəlmir, ya mən eşitmirəm?**

**Qeybət sayılmasaydı, deyərdim ki, filankəs filan şey edib.**

**Sağal, (mayan) yaralar... var - söz yarası...**

**Bilmirəm, əvvəl-axır nəzarət edən tapılacaqmı bu xırda-xuruş zay saytlara?**

**Daxil olub oxumursan, amma sən istəməsən də, qarşına çıxır: yaraladılar, öldürdülər, zorakılıq oldu və s..**

**Qan qoxusu duyulan manşetlərdən təngə gəldik.**

**Sevgi, xeyirxahlıq, yaxşı əməllər təbliğ edin. Onsuz da insanlar bir-birilərini sevmirlər, incidirlər, bu iyrənc xəbərlərlə az-çox qalan inam, ümid hisslərini də öldürməyin!**

**Zorakılığın əleyhinəsinizsə, sosial şəbəkələrdə maarifləndirici paylaşımlar edin. İzləyici sayına aludə olub insanların əsəblərini korlamayın! (Təəssüf ki, onlar daha çox oxunurlar).**

**Deyəsən, məndən jurnalist çıxmaz.**

**Heç nəyə xəbər gözü ilə baxmıram. Gördüklərimi danışmağa ərinirəm, yanımda olanı çatdırmağa həvəsim olmur. Müəssisədə toz-torpaqlı yeri görəndə düşündüm ki, təmir gedir. Ötüb getdim. Həmin yerdən ötən bir işçi isə araşdırıb bu barədə xeyli məlumat toplamışdı. Hətta ”günahkar” da tapmışdı. Adam bir hadisəni dinclik, dincliyi də hadisə kimi qəbul edə bilər. Baxır kim nəyə necə yanaşır. Məndən yaxşı işçi də olmaz. ”Rəhbər yarıdan” deyiləm. Tutaq ki, diktoram, xəbər mətni oxumalıyam, əgər yalandırsa, oxumaqdan imtina edəcəyəm, veriliş aparıramsa, şou xatirinə tituluna layiq olmayan ”xalq artisti” ilə ”səmimi” söhbət etməyəcəyəm, həkiməmsə, xəstəyə dərman aldırmayacağam, qan lazımdırsa, özüm verəcəyəm, müəlliməmsə, direktoru yalandan tərifləməyəcəyəm, valideynin cibinə göz dikməyəcəyəm. Nəşriyyat işçisiyəmsə, pul alıb gicbəsərlərin yazılarını çap etməyəcəyəm və s.. Belə ipə-sapa yatmayan işçi kimin nəyinə lazımdır ki, ona şərait yaratsın?**

**Bizdə idarə və müəssisələrdəki rəhbərlər isə özləri kimi ”məsuliyyətli”, ”çalışqan”, ”başıaşağı” işçiləri sevirlər. Bu etirafdan sonra çətin ki, aranızda mənimlə işləmək istəyən tapıla.**

**Narahat olmayın, işdən çıxmamışam. Xəyallardan yazmaq qadağan deyil ki?**

**Etirazımı mətnlərimlə çatdırıram. Çalışıram, çətinlikləri göstərib tövsiyə edim. Öz mətni haqqında yüksək fikirdə olmaq eyibdir, bilirəm. Amma ”Yolsuz cəmiyyətin yolu” mətnini kim yazsaydı, oxuyub alqışlayardım. Kimin olsaydı, ürəkağrısını duyardım. Cəmiyyətin bugünkü vəziyyətinə acıyan, çıxış yolu düşünən adamların olduğunu bilib bir azca toxtayardım. Bu cür mətnlərim çoxdur, izləyənlər bilirlər. Bilirlər ki, vətən mövzusu həmişə beynimdə, qələmimin ucundadır. Vətəndən, qəhrəmanlıqdan təkcə hansısa əlamətdar tarixlə bağlı boğazdan yuxarı yazmıram. İlin bütün günü ən vacib mövzulardan yazılarım olur. Ən əsas profilimi kitabxanaya çevirmişəm. Mütaliəni təbliğ edirəm. Görən, bilən var? Dəyərləndirilir? Buna görə haradansa mükafat alıram? Yox! Bu, könül işidir, bu əqidədir, bu insanın öz yoludur.**

**Kədərə də qəlbimdə yer var, sevincə də. Yeri gələndə də yumora keçirəm. Heç biri qeyri-səmimi deyil. Duyan duyur. On-onbeş oxucum var, onlar daim oxuyurlar. O kəslər oxuyurlar ki, özlərinin yolu var.**

**Yaxşı işləri qiymətləndirməyən laqeyd ziyalılardan, paxıl adamlardan heç nə gözləmirəm. Yazdıqlarımı cəmiyyəti düşünüb yazıram. Sevgim təmənnasızdır. Amma ağrı ilə yazdığım mətnləri görməzdən gələnlərin məhz bu yazını oxumaqlarını istəyirəm. Təkcə bu mətnlə kimin hansı əqidənin sahibi olduğunu təyin etmək olur.**

**Ötən əsrin mətbuatı böyük problemləri ilə birlikdə həm də örnəkdir. ”Füyuzat”la ”Molla Nəsrəddin”in qarşı-qarşıya qoyulması millətin ana dili, üslub baxımından problemi olsa da, hər iki jurnalın məqsədi maarifləndirmək olub.**

**Mollalıq olmasaydı, Nəsrəddin Nəsrəddin olmayacaqdı. ”Molla Nəsrəddin” olmasaydı, görün kimlər olmayacaqdı?**

**”Əkinçi”nin sayəsində də ”tarlada cütü şur ilə sürürük”. Söz tarlasını deyirəm.**

***Ağ çala, qara toxum...***
***Əlim ilə əkərəm,***
***Dilim ilə biçərəm.***



# BAYAT



№ 16 (876)



Rəsul Rza

## Mən torpağam

Mən torpağam, məni atəş yandırmaz;
tərkibimdə kömürüm var,
külüm var.

Mən baharam çəmən-çəmən
Çiçəyim var, gülüm var.

Mən küləyəm, əsməsəm,
kim bilər ki, mən varam.
Mən buludam, səhraları susuz görüb,
ağlaram.
Mən ürəyəm, döyünməsəm
ölərəm.

Mən insanam,
sadə insan əlinin
yaratdığı nemətlərlə öyünməsəm,
ölərəm.

Mən işığam - qaranlığın qənimi.
Mən insanam,
daşıyıram qəlbimdə
dünyaların sevincini, qəmini.

Maraq dolu gözəm mən,
baxmaya bilmərəm.
Qarlı dağdan süzülən çayam mən,
axmaya bilmərəm.

Mən insanam,
vətənim var, elim var.
Ən böyük həqiqəti,
azadlığı, məhəbbəti,
nifrətisöyləməyə qadir olan
dilim var.

Mən bir qranitəm ki,
hər parçamda duyulur
bərkliyim,
döyüşdə möhkəmliyim,
ülfətdə kövrəkliyim.
Mən insanam, ülfətsiz -
Ölərəm.
Məhəbbətsiz, nifrətsiz -
Ölərəm.

Mən bulağam,
tapşırıqla axmıram.
Mən həyatam,
Həmişə yoldayam;
nəfəsdəyəm, arzudayam,
baxışdayam, ürəkdəyəm, qoldayam.

Mən torpağam, nemətimi, varımı
zəhmət sevən insanlarla bölərəm.
Mən ürəyəm, doyünməsəm
ölərəm.

## Məndə ixtiyar olsa

Mən istəyirəm:
buludlar ağlasın
uşaqlar ağlamasın;
analı, ya anasız.
Mən istəyirəm:
güllər açılsın,
güllələr açılmasın,
amanlı, ya amansız.
Mən istəyirəm:
qapılar qapansın
soyuq olanda hava.
Gözlər qapanmasın,
sözlər qapanmasın.
Mən istəyirəm:
yanğınlar sönsün,
ümidlər sönməsin.
Meyvələr dəysin öz fəslində.
Ürəklərə söz dəyməsin.

Bəhərdən budaqlar əyilsin.
İnsan başını əyməsin,
xəcalətdən, ya gücsüzlükdən.
Axsın bulaqlar göz yaşı kimi,
torpağın üzərində.
Göz yaşı bulaq kimi axmasın
dünyanın heç bir yerində.
Hər şey insana baxsın.
İnsan ələ baxmasın.
Gecələr ulduzlar oyaq olsun.
İnsanlar yatıb dincəlsin;
qüvvət toplasın sabahın xeyirli işlərinə.
Açsın gözlərini gələcəyin ümidli
səhərinə.

Mən istəyirəm:
sevinc, səadət bol olsun.
Ürəkdən-ürəyə,
ölkədən-ölkəyə,
açıq yol olsun.

## Deyirlər

Məhəbbət elə bir ismət evidir,
onun qapıları bağlı gərəkdir.
Onun sığındığı etibarlı yer
insan sinəsində
adi ürəkdir.

Ürək süfrə deyil
gəlib-gedənə
açasan,
var-yoxum bax, budur, - deyə.
Məhəbbət çeşməsi qardan yaranmır,
tökülb dağıdasan
bir sudur- deyə.

Yüz sözü, yüz sirri
dosta desən də,
məhəbbət sirrini özündə saxla!
O tək səndən deyil,
səninki deyil,
açıb saçacaqsan söylə,
nə haqla!

## Ayrılmayaq

Xəyalın yanımda, sən uzaqdasan,
Hicranın yolları ömür qədərdir.
Bu yalqız axşamda yuvama baxsan:
mənəm, xəyalındır, bir də kədərdir.

Gəl, ört pəncərəni, qalaq üz-üzə,
bir sən ol, bir də mən, bir də gözlərin.
Vüsal qərq olurkən hicran - dənizə
ağ bir yelkən olsun o son sözlərin.

Bir sən ol, bir də mən, bir də dərdimiz.
Ağlayaq doyunca, gülək doyunca.
Baş-başa qaldıqca bu möhnətlə biz
döysün qapıları külək doyunca.

Döysün, qoy açmayaq. Yorulsun külək.
Qəmli hicran qalsın qapıda dustaq!
Bir an vüsalınla çırpınsın ürək.
Sonra... sonra yenə biz ayrılmayaq!

## Çinar

Gecə keçmiş, ulduzlar ağ, göy qara!
Söykənmişəm qocaman bir çinara.
Bir yanımda ömür kimi axır su,
Qaçmış bu gün təbiətin yuxusu.

Budaqlarda sərin yelin xoş səsi.
Yarpaqların həzin-həzin nəğməsi.
Ürəyim bir qanadlanmış quş kimi
Hey çırpınır, təsəllisiz, əsəbi.

Hündür çinar budaq atmış, qol atmış,
Öz ömründə çox əsrlər qocaltmış.
Görkəmində qarlı dağlar vüqarı.
Başı bütün ağaclardan yuxarı.

Tufan qopar, yağış yağar, qar tökər;
od qamçılı ildırımlar göy sökər.
Bəzən çayda daşlar daşı qovalar.
Seldə gedər göy çəmənlər ovalar.

Yarğan yarar sinəsini dağların.
Sular oyar binəsini dağların.
Karvan çəkər göydə qara buludlar.
Çovğun gələr, şaxta kəsər, buz donar.

Xan çinarım əyməz məğrur başını.
Kimsə bilməz xan çinarın yaşını.
Gecə qara, durdum düşündüm bir az,
Dedim nədən ulu çinar yıxılmaz?

Birdən çinar dilə gəldi dedi: - bax!
Bu torpaqda dərindən kök salaraq,
hər tərəfə uzatmışam qolumu,
övladlarım bürüyüb sağ-solumu.
Belə məğrur dayanmağa haqlıyam.
Mən kökümlə bu torpağa bağlıyam.

## Hamımız yoldayıq

Yol.
Qatar.
Minənlər var, düşənlər var.
Kimi gülə-gülə minir,
gülə-gülə düşür.
Kimi kədərli, qayğılı.
Duracaqlar ötüşür...

İskələlər keçir.
Qurtarmaq bilmir qatarın yolu.
Gündüzü var, gecəsi var.
Hələ gülə-gülə minəcək,
kədərlə düşəcək
neçəsi var.

Nə mən bilirəm harda düşəcəyəm,
nə qatardakılar bilir.
Bəlkə heç qatar dayanmayır:
düşənə elə gəlir,
minənə elə gəlir.

Bəlkə mənə elə gəlir.
Gedir qatar.
Çay içirəm, papiros çəkirəm,
düşünürəm, şeir yazıram.
Mən bu uzun yolda
getməyə, getməyə, getməyə də,
ən yaxın duracaqda düşməyə də hazıram.

Ancaq...
Bu şeiri qurtarım.
Bir yenisini başlayım.
Bir də...
Nə yol qurtarır,
nə arzular.
Yeni iskələlər, duracaqlar ötüşür.
Kim isə minir.
Kim isə düşür.

## İnsan

Səslər kəsildi.
Fikirlər dolaşdı.
Qurğuşun asıldı kirpiklərdən.
- Aç qapını!
- Buyur!
- Mən Ölüməm, gəlmişəm!

Xoş gəldin desəm,
bir az gülməli çıxar.
Gəlmisən, apar!
Adı, atasının adı,
yaşı, ünvanı budur...

-Gedək, dur!
Sükut çökdü araya,
uzun, dərin bir sükut,
bir saniyə tamam...
Qalxdı ayağa
dedi: - Gedək.
Demədi: "Yanılmısan,
Mən deyiləm
sən axtardığın adam".

## Vaxt var ikən

Çıq-çıq saat işləyir.
Düşür əbədiyyətə
ömrün geri dönməyən anları.
Zaman alıb aparır insanları
bugünəcən heç kəsin
qayıtmadığı uzaqlara.

Vaxt var ikən dünyaya bax!
Baxıb doymasan belə.
Bir divara daş qoy!
Çiçək iylə!
Saçlarını
sabahın xoş nəsimiylə dara!
Könlünü aç günəşə, bahara.

Vaxt var ikən gəl,
şəfəqləri qarşılayaq
səhər-səhər.
Sevək, sevilək!
Fikrimizdən işıqlansın zülmətlər.
Dodaqlarında açılsın
təbəssüm çiçək-çiçək.

Vaxt var ikən
əllərinin hərarətindən
isinsin bir insan əli.
Nə qədər iş var görməli,
Nə qədər söz var deməli.

Vaxt var ikən
bircə qələm vur,
bir budaq peyvənd elə.
Demə, o necə, mən də elə
Düşmənə amansız ol,
dosta xoşqılıq!

Vaxt var ikən
elə yaşa, elə çalış
bir gün sən olmayanda
hər kəsə aydın görünsün
yerində qalan boşluq.

## Ayrılıq

Əlim qopdu əlindən,
Mən dedim: - Üşüyərsən!
Sən dedin:
-Əynim-başım istidir.

Mən dedim:
-Olsun
Cəhənnəmdə də üşüyər adam;
yalqız olsa.

Sən getmişdin.
Sözlərimi eşitmədin.
Səni sözüm üşütmədi.
Sakit budaqlarda
sakitdi yarpaqlar.

Mən qışqırdım, ey!
Həsrətini gəl, apar!
Sən eşitmədin.
Səni səsim üşütmədi.

Ayrıldıq.
Evə gəldim.
Yaşıl civəyə baxdım.
Hərarət iyirmi üçdü.
Sözün yadıma düşdü:
Əynim-başım istidir.
Mən
Üşüyürəm istidən.
Bəs sən necə, sən?!

№ 27 (2401) 26 iyul 2024-cü il

# Şirvan - gözəl bir şəhər!




**Azərbaycanın bir-birindən gözəl şəhərləri, qəsəbələri, rayonları və kəndləri çoxdur. Təbii ki, hər bir gözəlliyi gerçəkləşdirmək üçün ora çox böyük vəsait yatırtmalı və qüvvə sərf edilməlidir. Ən azından ona görə ki, pul olmasa, bir daşı-daş üstdə qoymaq çox çətin və müşkül bir işdir. Üstəlik də puldan savayı, bir ürək, bir güc və bir qüvvə də lazımdır.**

Bu gün Azərbaycan 30 il bundan əvvəlki ölkə deyil, çünki 30 il bundan əvvəl Azərbaycanın 20 faiz torpağı ermənilər və onların havadarları tərəfindən işğal olunmuş, bir milyondan çox məcburi köçkün və qaçqın var idi. Belə bir mürəkkəb durumda həmin insanları digər ərazilərdə, daha doğrusu, yaşayış məntəqələrində yerləşdirmək, onlara çörək, su vermək, bir sözlə, arxa durmaq o qədər də asan məsələ deyildi. Amma Azərbaycan dövləti heç kimə ağız açmadan bu çətinlikləri öz daxili gücü hesabına həll elədi. Yəni, bir milyona yaxın məcburi köçkün digər rayonlarımıza yerləşdirildi, onlara hər cür şərait yaradıldı. Başqa sözlə demiş olsaq, Ümummilli Lider Heydər Əliyev qaçqınlara və məcburi köçkünlərə atalıq etdi. Ondan sonra isə həmin siyasi kursu davam etdirəm Prezident İlham Əliyev son 20 ildə qaçqınlara arxa durdu və onları çətin vəziyyətdən çıxarmağı bacardı. Bütün problemlər zaman-zaman öz həllini tapdı. Üstəlik də 2020-ci ilin sentyabrın 27-də başlayıb, noyabrın 10-da başa çatan 44 günlük İkinci Qarabağ savaşı Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə şərait yaratdı. Sonrakı problemlər isə 2023-cü ilin sentyabrın 19-u və 20-də antiterror əməliyyatı zamanı işğal altında olan bütün kəndlər, qəsəbələr, rayonlar ermənilərdən azad edildi.

Və həmin yerlərdə Azərbaycanın üç rəngli bayrağı ucaldıldı. Ölkəmizin bir zamanlar çətin durumda olmasına baxmayaraq, bütün rayonlarda, şəhərlərdə abadlıq və quruculuq işləri görülüb. Belə şəhərlərdən biri də Şirvandır. O Şirvan ki, bir vaxtlar sovet dönəmində şəhər baxımsızlıq üzündən bərbad günə düşmüşdü. Hətta şəhərdaxili yolların əksəriyyəti pis vəziyyətə salınmış, yağışlı və yağmurlu havalarda avtomobillər həmin küçələrdə rahat hərəkət etmirdi. Təbii ki, bu cür vəziyyət yerli sakinlərin böyük narazılığına səbəb olurdu.

Ona görə də Şirvanın sosial-iqtisadi inkişafı və abadlıq-quruculuq işləri Ulu Öndər Heydər Əliyevin vaxtında və Prezident İlham Əliyevin hakimiyyəti illərində diqqət mərkəzində saxlanıldı.

Şəhərin bərbad yolları, küçələri, parkları və xiyabanları və hətta ucqar yerləri belə ən müasir üslubda inşaa edilərək, əhalinin istifadəsinə verildi. İnsanlar da gördü ki, Azərbaycan Prezidenti Şirvanın yenidən tikilməsi və abadlaşdırılması üçün nə qədər vəsait ayırıb. Aydındır ki, bu vəsaitlər də şəhərin zaman-zaman abadlığına, yenidən tikilməsinə və qurulmasına yönəldildi.

Başqa sözlə demiş olsaq, Şirvanda çox qısa zamanda möhtəşəm işlər görüldü. Xəstəxanalar, məktəblər, uşaq bağçaları və digər sosial obyektlər inşa edildi. Bununla yanaşı, Şirvanın bir neçə yerində çox möhtəşəm parklar tikildi. Bu parkların birində Ulu Öndər Heydər Əliyevin çox möhtəşəm abidəsi ucaldıldı.

Çünki Heydər Əliyev həm sovet dönəmində, həm də müstəqillik dövründə Şirvana böyük diqqət və qayğı göstərmişdir. Və Şirvan camaatı da onu heç vaxt unutmurdu.



Bu gün də Şirvanda biz olarkən Heydər Əliyev parkında bir neçə el ağsaqqalı və ziyalılarla görüşdük. Onlar Şirvanın bugünkü gözəlliyindən söhbət açdılar.

Həmin ağsaqqallardan biri olan Həşim Rzayev dedi ki, mənim 85 yaşım var, amma Şirvanın indiki qədər füsunkar və gözəl olduğunu görməmişdim.

Ulu Öndər Heydər Əliyev dəfələrlə Şirvana səfər etmişdi və o səfər zamanı mən də şəhər sakini kimi oradaydım. Ulu Öndərin bizim camaatı necə böyük məhəbbətlə sevməsinin şahidi oldum. Bu gün Şirvanda nə gözəllik, nə tikinti və nə quruculuq işləri varsa, hamısı Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin xidmətləridir. Bunu sadə insanlar çox yaxşı bilirlər. Çünki əvvəllər biz təqaüdçülər gözəl bir yer tapıb, orada istirahət edə bilmirdik, bir stəkan çay içməyə rahat yerimiz yox idi.

Amma indi Şirvanın hansı yerinə, hansı məkanına ayaq basırsan, bir-birindən gözəl, səliqəli yaraşıqlı istirahət mərkəzlərinə, yeməkxanalara, çayxanalara rast gələcəksən. Özü də şəhərimiz çox səliqəli və çox da təmizdir. Hər səhər yuxudan duranda yaşıl ağacların arası ilə getmək mənə ləzzət edir. Çünki son vaxtlar Şirvanda on minlərlə şam ağacı və digər növ ağaclar, bəzək kolları, güllər, çiçəklər əkilib. O gözəllikləri yaratmaq nə qədər çətindirsə, onları yayın istisində, qışın soyuğunda becərmək və qorumaq ondan da çətindir. Çox sağ olsun bizim kommunal işçilərini! Onlar şəhərimizin isti yay günlərində bütün yaşıllıqlarına vaxtlı-vaxtında su verir, qulluq göstərir, küçələri və prospektləri çox səliqəli təmizləyirlər. Artıq şəhər sakinləri də bu təmizliyə öyrəşiblər.

Yəni insanlar əvvəllər olduğu kimi, əllərinə nə gəldi küçəyə, səkiyə tullamırlar. Çünki hər yerdə məişət tullantılarının yığılması üçün qutular qoyulub və insanlar da həmin tullantıları o qutulara atır. Yəni şəhərimizin təmizliyini və gözəlliyini qorumaq təkcə bu işləri görənlərin deyil, həm də bizim borcumuzdur.

Həşim müəllimin yanında əyləşmiş Cəmil Əliyevlə də tanış olduq. O, dedi ki, sovet dövründə zavodların birində fəhlə işləyib. Onun da yaşı 85-dən çoxdur.

Cəmil müəllim deyir ki, elə mən əslən şirvanlıyam. Şirvanın həm çətin gününü, həm də xoş gününü görmüşəm. Müstəqillikdən əvvəl ölkədə bir dərəbəylik yaranmışdı və Şirvanda da cəbhəçilər burdan vurub, ordan çıxırdılar. Heydər Əliyev gələndn sonra ölkənin hər yerində olduğu kimi, Şirvanda da özbaşınalığa və dərəbəyliyə son qoyuldu. Şəhərdə sakitlik və əmin-amanlıq yarandı. İndi bu əmin-amanlıq uzun illərdir davam edir. Biz təqaüdçülər də ölkəmizin və şəhərimizin firavan həyatını görüb rahat nəfəs alırıq.

**Prezident İlham Əliyev bir neçə dəfə Şirvanda olub. Həmişə də gedəndən sonra şəhərimizdə çox böyük abadlıq və quruculuq işləri görülüb. Biz burda çox rahat və xoşbəxt həyat sürürük. Çünki Şirvanda insanların rahat yaşaması və işləməsi üçün gözəl şərait yaradılıb. Bunu tək biz yox, şəhərimizə gələn qonaqlar da görürlər. Və onlar deyirlər ki, Şirvan son illər daha da gözəlləşib və abadlaşıb.**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ

MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyənin ən gözəl şəhərlərində tətiliniz daha rəngarəng olacaq

**Hər il milyonlarla turistin axın etdiyi Türkiyənin gözəl sahil əyalətləri daha yavaş, daha sakit və daha rahat bir tətil üçün marşrutlar təklif edir. Türkiyənin sakit şəhərlərində (Cittaslow) mənzərələri valehedicidir. Səhər zəngin türk mətbəxinin təamları ilə səhər yeməyi verilir, axşamlar isə Ege dəniz məhsulları, yerli zeytun yağlı yeməklər və dadlı türk şərabları ilə davam edir. Qayıq səfərləri, sörfinq, qədim yerləri araşdırmaq, bir sözlə ruhunuza qida verəcək hər şey və daha çoxu sizi gözləyir!**

### *İzmir vilayətində hüzurlu tətil: Seferihisar və Foça*

Ege dənizi sahilində yerləşən İzmir vilayətinə təkcə İzmir şəhəri deyil, həm də Çeşme, Alaçatı, Urla və Kuşadası kimi bir çox gözəl istirahət yerləri daxildir. Türkiyənin ilk yaşayış məskəni və 2009-cu ildən bəri Cittaslow şəbəkəsinin üzvü olan Seferihisar İzmirdən avtomobillə bir saatdan az, ən yaxın çimərlikdən isə təxminən 20 dəqiqəlik məsafədədir.

Seferihisar yerli dəyərlərini və ənənəvi sahil qəsəbəsi özünəməxsusluğunu qoruyub saxlamaqla yanaşı, günəş enerjisi ilə işləyən küçə lampaları və plastik yerinə hörgülü torbalar kimi davamlılıq təşəbbüslərini də həyata keçirmişdir. Sakinlər yerli toxumlardan bitki yetişdirir və mağazalarda rayondan gələn məhsullar satılır. Dənizkənarı Sığacık məhəlləsi, Seferihisar rayon mərkəzindən bir neçə kilometr aralıda, bazar günü fəaliyyət göstərən bazarı ilə məşhurdur; Sığacık qalasında qurulan bazar yerli məhsulların geniş çeşidini təklif edir. Naringi paytaxtı olaraq da bilinən Seferihisar mahalı hər noyabrda naringi mövsümünü Naringi festivalı ilə açır. Təbii ki, bölgədə qədim tarixi yerlər, o cümlədən İon İttifaqının ən mühüm yaşayış məntəqələrindən biri olan Teos Qədim Şəhəri var.

Sahildə yaşayan suitilərin adını daşıyan Foça, tarix, təbiət və dənizin unikal birləşimini təqdim edən sakit bir qəsəbədir. Bölgə təbiət baxımından nəsli kəsilməkdə olan Aralıq dənizi suitisinin yaşayış yeri olmağa davam edərkən, Eski Foça, Yeni Foça, Bağarası və İlıpınar kimi Mavi Bayraqlı çimərliklərdə də kanoe, yelkən və üzgüçülük kimi fəaliyyətlər həyata keçirilir. Foçanın köhnə şəhəri olan Eski Foça dənizkənarı meyxanaları, şirniyyat evləri və dostcanlı pişikləri olan mənzərəli bir məhəllədir. Bu dinc balıqçı kəndi həm də qara Foça Karası üzümləri ilə dolu zeytun bağları və üzüm bağları ilə məşhurdur. Foçada günə başlamağın ələ yolu xırtıldayan simit və ya isti çörəkdir; Axşamlar bol limonlu ləzzətli midye dolması yeyə və Foça üzümündən hazırlanmış yerli şərabların dadına baxa bilərsiniz.



### *Muğlada təbiətin vəhdəti: Akyaka*

Aralıq dənizi ilə Egey dənizinin kəsişməsində yerləşən Muğla vilayəti, Bodrum, Fethiye, Marmaris, Datça və Akyaka kimi məşhur tətil yerlərinə ev sahibliyi edir.

Şam meşələri ilə əhatə olunmuş və Gökova körfəzinə baxan Akyaka, İdyma adlı qədim Karya yaşayış məntəqəsinin yerində salınmışdır; o dövrə aid daş qəbirlər hələ də şəhərə gedən yolda görünür.

Oyma taxta evləri ilə də tanınan Akyaka kiçik balıqçı kəndi günəş, qum və dənizlə tamamlanan yavaş, dinc bir atmosferə malikdir. Külək sörfü, uçurtma sörfinqi və dəniz kayağı bölgədəki fəaliyyətlərdən yalnız bir neçəsidir və körfəzdən əlavə Azmak çayı da mövcuddur.

Əhəmiyyətli yeraltı çay olan Azmak, səthə çıxan kimi dəniz suyu ilə qarışaraq üzgüçülərə isti və soyuq suyun heyrətamiz birləşməsini təklif edir.

### *Türk Rivierasının ən sakit paytaxtı: Finike*

Mavi Bayraqlı çimərlikləri, dalğıc yerləri və dəbdəbəli kurortları ilə seçilən Antalya əyaləti Finike Yavaş Şəhəri kimi füsunkar şəhərlərə də ev sahibliyi edir. Ərazinin Finikiyalılar tərəfindən eramızdan əvvəl V əsrdə Phoinikos adı ilə qurulduğuna inanılır və sonradan tarix boyu bir çox başqa sivilizasiyalara ev sahibliyi etmişdir. Bölgənin ən görkəmli qədim şəhərləri Limyra və Arykanda ziyarətçilər üçün açıqdır. Finikenin gözəl təbii şəraiti - portağal bağları, təmiz çimərliklər və sakit firuzəyi körfəzlər - ərazinin digər təbiət möcüzələri kimi ziyarətçiləri cəlb edir.

**Məsələn, Andrea Doria körfəzi təmiz dənizi, yaşıl ağaclarla örtülmüş çimərliyi və ara-sıra Aralıq dənizi suitiləri və Caretta dəniz tısbağaları ilə Antalya vilayətinin ən gözəl körfəzlərindən biridir. Ziyarətçilər həmçinin Gökbük Kanyonunda gəzintiyə çıxa və təsirli stalaktit, stalagmit və travertin hovuzları olan Suluin Mağarası ilə tanış ola bilərlər. Coğrafi olaraq göstərilən Finike portağalları xüsusilə meyvə şirəsi, mürəbbə və marmelad kimi məhsullar baxımından məşhurdur və rayonu bir qastronomiya məkanına çevirir.**

# On üç ölkədən olan tanınmış səyyahların Qarabağa səfəri başlayıb

**Dünya miqyaslı dörd nəhəng səyyah klubundan birinin - "Most Traveled People" (MTP) səyahət klubunun rəhbəri də daxil olmaqla 35 nəfərlik geniş heyətin iyulun 25-də Qarabağa səfəri başlayıb.**




Dünyanın ən böyük səyyahları siyahısında adı ilk onluqda yer alan Çarlz Vilinin (Charles Veley) rəhbərlik etdiyi heyətin səfərinə 13 ölkədən beynəlxalq səyahətçilər qatılıblar. Bu ölkələr sırasında ABŞ, Böyük Britaniya, Almaniya, İsveçrə, Norveç, İsveç, Portuqaliya, Filippin, Polşa, Macarıstan və digərləri də var.

Bu klubun üzvlərinin işğaldan azad edilmiş ərazilərə dördüncü səfəridir. MTP daha əvvəl Qarabağa və Şərqi Zəngəzura üç dəfə səfər edib. Vətən müharibəsindən ötən dörd il ərzində isə 50-yə yaxın ölkədən 400-dək beynəlxalq səyahətçi böyük qruplarla Qarabağa və Şərqi Zəngəzura 10 dəfə səfər edib. Bugünkü səfər bu qəbildən olan sayca 11-ci səferdir. Həmin səfərlər azad edilmiş ərazilərdəki böyük dağıntılar və aparılan nəhəng quruculuq-bərpa işləri ilə yerində tanış olmağa imkan yaratmaqla, reallıqların dünyaya nümayişi üçün müstəsna əhəmiyyət daşıyır. Beynəlxalq səyyahların sosial mediada dünyanın ən müxtəlif bölgələrindən xeyli sayda izləyici ordusu var.

MTP səyahət klubunun təsisçisi və rəhbəri, amerikalı səyyah Çarlz Vili bir neçə gün əvvəl "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda da iştirak edib. O, həmin forumda "feyk nyus"ları ifşa etməkdə beynəlxalq səyahətçilərin rolunu vurğulayıb, bir sıra xarici media orqanlarında Qarabağ barədə təqdim olunan saxta məlumatlarla yerində gördükləri arasında kəskin fərqi izah edib.

**Klubun budəfəki səfəri üç gün davam edəcək. Heyətin Qarabağa səfəri Füzulidən başlayıb. Bu gün beynəlxalq səyahətçilər Xocavənddə, Şuşada, Xankəndidə və Ağdamda olacaq. Sabah isə onlar Şərqi Zəngəzura səfər edəcək. Səfərin sonuncu günündə isə heyət Zəngilanda və Cəbrayılda olacaq.**

## *Vaqif Mustafazadənin yeni lent yazısı tapılıb*



**Azərbaycan caz sənətinin əfsanəsi, caz-muğam janrının yaradıcısı, Əməkdar artist Vaqif Mustafazadənin bu günə kimi bəlli olmayan lent yazısı üzə çıxarılıb.**

Bu barədə Rəşid Behbudov Fondunun direktoru Kamil Şahverdi öz sosial şəbəkə hesabında məlumat verib. Bildirilir ki, lent yazısı müğənni, caz musiqisi bilicisi Tofiq Həsənsoy tərəfindən aşkar olunub. 1979-cu ildə Vaqif Mustafazadənin son konsertlərindən birində ifa olunan bu əsər Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası Bəstəkarlıq kafedrasının müdiri professor Aydın Əzim Kərimoğluya məxsusdur.

"Aydın K.Azim mövzusunda fantaziya" adlı əsəri V.Mustafazadə və dostları gitarada Ələsgər Abbasov (Türkiyədə yaşayır), zərb alətində Pərviz Ədib (Almaniyada yaşayır) və bas-gitarada Nazim Quliyev ifa edirlər.

Kamil Şahverdi paylaşımında yazıb: "... 45 il bundan əvvəl ifa olunan şedevr fantaziyanı ilk dəfə sizə təqdim etməkdən qürur duyuram. Bu lent yazısının üzə çıxması üçün dəyərli dostumuz, caz musiqisinin mahir bilicisi və təbliğatçısı Tofiq Həsənsoya təşəkkürlər!".

Tofiq Həsənsoy isə Vaqif Mustafazadə haqqında kitab üzərində də işlədiyini bildirib: "Vaqif Mustafazadə ilə bağlı çoxsaylı qəzet məqalələri və götürdüyüm müsahibələrin rus dilindən doğma dilimizə tərcüməsi ilə məşğulam. Məqsəd gələn il Vaqif Mustafazadənin 85 illik yubileyinə bu kitabı hazır etməkdir. Həmçinin maestronun "Tallin - 66" və "Tallin - 67" caz festivallarında canlı ifasının lent yazılarından ibarət albomu təqdim etməyi qarşıma məqsəd qoymuşam".

## *Yay Olimpiya Oyunlarının iştirakçısı olan idmançılar şikayətçidirlər*




**Paris 2024-də iştirak edən idmançılar Olimpiya kəndində qida çatışmazlığından şikayətləniblər.**

Qol.az xəbər verir ki, təşkilatçılar qida rasionunu tərtib etməli olublar ki, hamıya kifayət etsin. Məsələn, idmançılar toyuq yumurtası və bəzi digər məhsulların azlığından narazıdırlar. "Sodexo Live" restoranlar şəbəkəsinin meneceri bildirib ki, idmançıların rəylərini izləyirlər və ərzaq tədarüklərini Olimpiya kəndindəki restoranların artan tutumuna, eləcə də ilk günlərdə müşahidə olunan faktiki istehlaka uyğunlaşdırmaq üçün fəal işləyirlər.

Oyunlar zamanı idmançıları qidalandırmaq üçün 600 ton təzə qida tədarükünə cavabdeh olan "Carrefour" təsdiq edib ki, onlardan qida istehlakının həcmini artırmaq xahiş olunub.

Daha əvvəl İsveçin həndbol üzrə milli komandasının üzvləri Olimpiya kəndinin yataq dəstlərindən şikayətləniblər. Onlar qeyd edib ki, döşəkçələrin balıq torundan hazırlanması onlara narahatlıq yaradır.

İsveçin stolüstü tennis millisinin üzvləri isə nəqliyyatın durumundan narazıdırlar. Kişi və qadın komandaları məşq etmək üçün hər gün 1 saat 20 dəqiqə yol qət edirlər. Onların məşqi şəhər mərkəzindən bir neçə kilometr cənubda keçirilir.

"Avtobuslar çox istidir. Gündə iki dəfə 40 dəqiqə məsafə qət edirik. Düzünü desəm, Parisdə isti Hindistandakından daha çoxdur. Əgər belə davam edərsə, insanlar avtobuslarda huşunu itirəcəklər", - deyə İsveç millisinin baş məşqçisi Yurgen Person bildirib.

Faiq Qismətoğlu **İlham Əliyevə** bibisi
**Suruş xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 188
Çapa imzalanmışdır: 25.07.2024